**Vaqif Bayatlı Odər**

# BƏY ATLI ŞEİRLƏR



Vaqif Bayatlı Odər

# Bəy Atlı Şeirlər

Hamısı "Bu dünyada son yoxdu" – dedi,
"Hamı Tanrıyla əbədi, Tanrıyla əbədi!"

Bakı – 2019

*Bu kitab – hər il çeşnisiz bir neçə Göyüzü xalça toxuyan uca Anama və uca xalçalar toxuyan, ilmələri də sevgiylə, eşqlə oxudan bütün qanadlı Azərbaycan, Türk dünyası Xanımlarına əbədiyyət duası*

# GÖZ YAŞIYLA AXAN ŞAİR

*Bir göz yaşında azmışam,*
*üzlə axıram aşağı,*
*ancaq üzü tanımıram...*
*Bu göz yaşı məndən axır?*
*Mən bu gözü tanımıram...*

Qəfil sevgi etirafı, canıyaralı adamın sızıltısı təəssüratını yaradan bu təsirli misraların müəllifi Vaqif Bayatlıdır. Bu dünyaya gəlişi, təqribi hesablamalara görə oktyabr ayının ilk ongünlüyünün hansısa naməlum gününə, ya bəlkə, ondan da bir az əvvələ – sentyabr ayının sonlarına təsadüf edən bu söz sahibi, ilahi eşq təmaslarından yaralı canlarıyla dünya şeir xəzinəsinə dərin hikmət, sirli həqiqətlər dolu, mistik şərq ecazı bəxş etmiş söz dahilərimizin davamçısı – onlardan biridir.

Vaqifin doğum günü, anası Dursun xanımın xatırlamalarına görə, "əncirin qurtaran vaxtı"na təsadüf etsə də, biz (Vaqifin qələm dostları) bu əlamətdar günün tarixini oktyabr ayının 1-nə müəyyənləşdirdik. Niyə məhz oktyabr ayının 1-nə, səbəbini özümüz də bilmədik...

…Əslində bu, belə də olmalıydı. Dünyanın qəbul olunmuş məkan və zaman anlayışlarına heç cür uyuşmayan, qaydalar və çərçivələr aləminə heç bir

vəchlə sığışmayan Vaqifin doğum tarixi də, görünür, Yer ölçüləriylə müəyyən edilmiş zaman və məkan kateqoriyası üzrə yox, onun "Vaqif Cəbrayılzadə" kimi bizlərin arasında – zaman və məkan ölçülərinin işləmədiyi, əlahiddə Söz Ərazisində zühur etdiyi məqamla müəyyənləşməliydi. Lap əslinə qalanda, Vaqifin doğulduğu ilin özü də – həmin o naməlum payız gününün təsadüf etdiyi ilin dəqiq tarixi də şübhə doğurur. O səbəbdən ki, gecə-gündüz şəhərin hansı naməlum səmtlərindənsə, hansısa daha naməlum istiqamətlərinə üz tutub yeriyə-yeriyə, yüyürə-yüyürə yaşayan, küçələri Günəş şüalarının saçma bucağı, küləyin səmti, havanın temperaturu üzrə eninə-uzununa ölçə-ölçə, Kainat qanunlarını mövsümlər üzrə dəyişib öz daxili qanunları və arzularıyla yeniləyən, Yer kürəsini gah ayağının altına ilişən bir parça torpaq, gah Allahın tək bir ibadətdən ötrü yaratdığı "Müqəddəs Ulduz" elan edən bu Duyğular Sultanının özünün də reallıq, ya görüntü olduğu dərin şübhələr oyadır. Sözün, şeiriyyətin ən əlçatmaz qatlarında səyriyən, oraların çəkisiz ənginliklərindən asılı qalan bu adamın, həm də necəsə, aşağılarda – bu dünyanın tutqun, kobud reallığında yaşamaq bacarığı da eyni müəmmanı doğurur. Həmin bu sirli müəmmanı yaradan digər məqam – Vaqifin yaşa dolduqca ağırlaşıb bükülmək əvəzinə, nazilib incələn yeniyetmə qaməti, seyrəlib nazilmək əvəzinə, qalınlaşıb codlaşan gur saçları, "bu, əslində, bığlarımdı, yeri səhv düşüb" – dediyi qalın, qara qaşları, körpə sevincini, bəzən qüssə dolu, səbəbsiz uşaq incikliyini qoruyub saxlayan üzüdür.

Çəkisiz bədəninin pərvazından, yoxsa pərvazlı ruhunun çəkisizliyindən, az qala, havayla yeriyən, əynindəki geyimləri ən küləksiz havalarda belə necəsə, öz-özünə dalğalanan, düz getdiyi yerdə səmtini qəfil küləyin, ya buludların istiqamətiylə dəyişən bu əbədi səyyahı şəhərin küçələrində,

dənizkənarı parkda görənlər bir qədər aramlı olub, diqqətlərini toplasalar, onun yeriyib yüyürə-yüyürə üz tutduğunun heç hara yox, göylər – sonu, sərhədi bilinməyən səmavi ənginliklər olduğundan duyuq düşərlər...

*Göy üzündə qaça-qaça*
*hara gedir bu uşaq?!*
*Bu uşaq hamıdan qoca,*
*xəbəri yox, qaçdıqca*
*sınır göyü, sınır yolu,*
*xəbəri yox,*
*ürəyi sınıq sevgiylə,*
*ovcu sınıq göylə dolu.*
*Toxunuram sınıqlara,*
*sınıqlar quşlara dönür,*
*ürəyim bir ovuc dənə,*
*quşlar ürəyimə qonur*
*ürəyimi dənləməyə…*

Dənizkənarı parkda Vaqifin öz iş otağı var. Bu, üst budaqları onu güclü yağışlardan, alt qolları – xəzri küləklərindən qoruyan, nəhəng palıd ağacının altıdır. Vaqif dəniz və palıd qoxulu bu sehrli “otağa”, nə palıd yarpaqlarının “xəfif pıçıltısını” dinləyib ilhamlanmaqdan, nə sahilboyu dalğalanan “qəmli Xəzərin mirvari köpüklü suları”nı seyr edib vəcdə gəlməkdən ötrü gəlir. O bu “otağa” tüksüz, ləléksiz quş balası, məhrəm, isti yuvasına sığınantək sığınmaqdan, orada öz-özünə bürünüb, öz içində səssiz-səmirsiz əriməkdən ötrü gəlir…

*Ölsəm, bir də min il sonra dirilsəm,*
*Bu dünyada hər şeyin sonunu bilsəm?!*
*…Bir çölün düzündə bir qara kolla*
*qəflətən tapışıb qalsam baş-başa,*

*baş-başa qaldığım o qara kol da*
*kolluğundan çıxıb dönsə qardaşa,*
*nə desəm, nə sorsam, cavab yerinə*
*tikanlı üzünü sürtsə üzümə,*
*hər tikan ucundan, tikan canından*
*bir damla göz yaşı baxsa gözümə,*
*bir dəniz də gəlsə, üzündə gəmi,*
*hey sürtsəm üzümü divarlarına,*
*uzanıb qollarım, bitib qollarım*
*dönsə o gəminin avarlarına,*
*sular qollarımı yuduqca yusa,*
*saçlarım yosuntək axdıqca axsa…*

Sonu, qurtaracağı olmayan bu misralar – olanların, ya hələ min ildən sonra ölüb, bir də diriləcək Şairin qəlbində baş verməkdən ötrü yol gələnlərin sonsuzluğa qədər elə beləcə müəmmalı şəkildə havadan asılı qala-qala dəyişən sirli əvəzlənmələr olduğu kimi, insan ruhunun bu dünyadan əxz etdiyinin də beləcə – ilk baxışda, hər hansı real məntiqi səbəbə dayaqlanmayan, lakin hansısa taleyüklü, əlamətdar hallar yaratmağa qabil, ələgəlməz, izaholunmaz “duyğu hadisələrindən” ibarət olduğunu anladır.

Zahirən aydın, axıcı ədəbi dildə yazılsa da, dərki, anlamı fövqəlduyum və intellekt tələb edən bu şeiriyyətin müstəsna özəlliyi – alt qatı ruhun hallarıyla bağlı, yalnız onun özünün (ruhun) dərk edə biləcəyi sirli, ilahi hikmətlər gizləməsidir...

Bayatlı poeziyasına yaxından bələd olanlar bu yaradıcılığın, ənənəvi baxış bucağından dərk edilməsinin mümkünsüz olduğunu yaxşı bilirlər. O səbəbdən ki, Şair insan nəfəsi toxunmayan, hansısa ayrı, səmavi ərazilərdən – sıravi gözlə görülmə-yənlərin görkəmindən, duyulmayanların ağrısından,

izaha gəlməyənlərin izahından yazır... Şeirlərində tez-tez rast gəlinən "min illər", "milyon illər" ifadəsi kiməsə uydurmaçılıq, ya yaradıcı şövqün məhsulu kimi görünə bilərsə də, misraların alt qatından sızan şirin və yandırıcı iztirablar dolu isti nəfəs, bunun əksini – yazılanın, qədimdən qədim, min illərlə yaşanmış uzaq xatırlamalar olduğunu hiss etdirir.

*Min ildi, milyon ildi*
*Sənə sarı qaçıram,*
*ayaqlarım sevinir,*
*yolum sevinir, Allah.*
*hər gün Sənin Göyünə*
*mismarlanır qollarım*
*mismarlanır, dincəlir,*
*qolum sevinir, Allah.*
*Sevgin, ancaq sevgin var,*
*qollarımın gözündə.*
*Bəs nədən əzab gəzir,*
*qolumu dəlib keçən*
*mismarların üzündə?..*

İllər ötür, bütün vücudu, varlığı və ruhuyla İlahiyə can atmaqdan yorulmayan Vaqifi, yolundan heç nə döndərə bilmədi. Nə bu dünyanın mal-dövləti, nə "var" adlandırdığımız oğul-uşaq, nə şan-şöhrət azarı. Vaqifi, şəhidi olduğu Sözün əlindən almağa heç nəyin və heç kimin gücü çatmadı. Vaqif Sözün xəstəsi, Onun qulu olaraq qaldı. O, indi də belə yaşayır. Sözlərin, misraların arasıyla, əlçatmaz göy pillələrində pay-piyada dolaşa-dolaşa… Yenə misralarla, sözlərlə sevişir, əhd bağlayır, küsüb-inciyir, onlarla, halına, xasiyyətinə bələd olduğu doğmalarıtək, xüsusi ehtiram və ehtiyatla davranır, gizli sövdələşmələr aparır, bir sözün o biriylə yanaşı du-

randa hansı hala düşməsindən, hansı sözün hansı sözə işıq, hansına kölgə salmasından günlərlə, aylarla zövq alır, əzab çəkir… Bu halıyla Vaqif, bəzən mənə kimsəsizlər evinin əzabkeş dayəsini xatırladır.

Vaqif Bayatlı imzası kifayət qədər tanınır, şeirləri Azərbaycanın hüdudlarından kənarda – Türkiyədə, İranda, İngiltərədə, ABŞ-da, hətta uzaq Avstraliyada da oxunur və sevilir. İl-ildən cücərən, yaşıllaşıb qol-budaq atan bu kütləvi oxucu sevgisi də bizim Vaqifi ovutmur. Onu qışın çovğununda, yayın istisində sərgərdan gəzdiyi küçələrdən, yollardan yığışdıra bilmir. Vaqifin əbədi oyaq qəlbini, ac ruhunu nə geniş xalq kütlələrinin sevgisi, nə əcnəbi millətlərin marağı, nə şan, nə də şöhrət doyura bilir. Onu yalnız bir Sevgi – bir vaxtlar ona "Ol!.." demiş, sonradan gözlərinin dərinliyinə baxıb: "Şair Ol!" demiş Uca Yaradanın qənirsiz şüanı, səbəbsiz nisgili andıran Sevgisi doyurur bircə...

*Min ildi, milyon ildi,*
*bağlayıb yollarımı*
*bir-birinin ucuna,*
*gəlib çatdım axırı*
*Sənin dar ağacına.*
*Kəndirin dartıldıqca,*
*boynum dincəlir, Allah.*
*Boynum dincələn görüb*
*tez vururlar boynumu,*
*çiynim dincəlir, Allah…*
*Şükür, şükür, çox şükür,*
*Sən yenə Göyüzündən*
*yerə enirsən, İlahi…*
*Dünya gözümdə söndükcə,*
*Sən görünürsən, İlahi…*

***A.Məsud***

***Bütün Türk dünyasının Məzahir Avşarı***

*Kitabın rəsmlərlə duası hər an göyüzündə də yeni göyüzü, yeni ulduzlar yetişdirən Antalya Akdeniz Universitetinin professoru Məzahir Avşar bəyin.*

*O, həm də bütün Rəng dünyasının Məzahir Avşarı!*

## *İki dünya – bir Tanrı şeiri*

### *Üzü Tanrıya yazı yazmaq – həm də Tanrıya İbadət*

*Ey kainat balaları, bala kainatlar, üzü Tanrıya yazı yazmaq həm də Tanrıya İbadət! Həm də, həm də hamını hamıya sevdirmək, hamını hamıya istətmək kimi daha böyük, daha uca bir İbadət!*

*Əsl kitab da İlahidən, kitaba İbadətdən gəlir. Həm də hər bəndə kitabı – bəndəni yaradan Allahın yönəltməsiylə hamının o bəndəni də duymasıyçün yarı İlahi, yarı insani bir cəhd. O kitabı oxumaq, duymaq da elə İlahini duymaq kimi!*

*Allah bütün insanları, həm də insanların bənzəri bütün kitabları hardasa az, çox dərəcədə İlahi kitablara bənzər, hamının hamını duymasıyçün, yaşamasıyçün, sevməsiyçün, sevdirməsiyçün yaradır.*

***Söz və Sevgi Tanrının insana iki ən böyük hədiyyəsi***

***Hamını hamıya yupyumru Sevdirmələr***

*Bu kitab hər bir oxucuya çiçək açılantək açılır.*
*O həm də çiçək açantək Eşq açıb, Şeir açıb, Dua açıb*
*Tanrıdan hamının sevməsini, sevilməsini, həm də, həm də*
*hamının hamını sevdirməsini, istəməsini diləyən,*
*göyüzündə də diz çöküb yeni sevgi göyüzü toxuyan,*
*hamını yeni Yerüzü, yeni Göyüzütək oxuyan kitab —*

***yupyumru bir Eşqlə, yupyumru bir Sevgiylə***
***hamını hamıya yupyumru Sevdirmələr***

*Hər iki dünyanın hər an ən böyük sərvəti, dövləti Sözlər – önündə də diz çöküb dua açan, çiçək açan ürəklər, dizlər.*

## *İlk çiçək duası – ilk şeir duası*

*İlk çiçəkdən qabaq hər iki dünyada da ilk çiçək duası vardı. İlk çiçək duası, əbədiyyət sahillərində hər iki dünyada da əbədi sevməyə, hamını hamıya – bütün canlıları, bütün ruhları da bir-birinə sevdirməyə hər iki dünyadakı Sözləri bir-birinə sevdirməkdən başlamışdı.*

*İlk çiçək duasıtək Sevən, Sevdirən Sözlər hər iki dünyanın sonsuz göy sahillərini də, sonsuz eşq sahillərini də, sonsuz ruh sahillərini də aşar gedər, aşar gedər, aşar gedər.*

*Tanrım! Tanrım! İlahi!*
*Bu dağları bir zamanlar*
*göyüzünün son qatından*
*aşağıya çəkdiyintək*
*sən qalxan göyləri də*
*bircə anlığa görməkçün*
*bu göyü də aşağı çək.*

### *O Ruhunur, İlahinur qalxan göylər*

*İlahi! İlahi! Tanrım!*
*Bu dağları bir zamanlar*
*göyüzünün son qatından*
*aşağıya çəkdiyintək*
*sən qalxan göyləri də*
*bircə anlığa görməkçün*
*bu göyü də aşağı çək.*

## *Quran – Tanrınur payı Tanrıdan*

***Salavat çevirirkən göyə, Tanrı ətəyinə qovuşan an***
***Tanrı güllərıtək açılan əllərə, üzlərə, gözlərə***

*“Quran-i Kərim”, “Quran” –*
*hər an bir an öncəkindən*
*daha gözəl göy açan,*
*ulduz açan, ay açan*
*son əbədiyyət göyü,*
*son göyün ulduzu, ayı.*

*Hər salavat çevirən an*
*üzümüz, gözümüz, ruhumuz*
*Tanrı üzüylə qovuşurkan,*
*Tanrı güllərıtək açılan*
*üzlərə, gözlərə, göylərə,*
*bütün kainata “Quran” –*
*Tanrınur payı Tanrıdan.*

*Dədəyurd duası*
*Dədəyurd duası*
*Dədəyurd duası*

## ***Azərbaycan – qucaqlayıb qoxlamağa Ataqılınc, qucaqlayıb ağlamağa Anakünc***

*Azərbaycan – göyüzündə*
*Qanad açan, qanadlanan*
*Ataqılınc, Atabilək,*
*Qalxan düşmən ordusunu,*
*Oxunu haqlamağa*
*Atasinə, Atakürək,*
*Bir kimsəyə qoxlatmadan*
*Allahacan saxlamağa*
*Anagül, Anaçiçək,*
*Ən uca yuvalar üstdə*
*Yuvalar bağlamağa*
*Anatel, Analələk,*
*Ən uca dualar üstdə*
*Dualar bağlamağa*
*Anadil, Anadilək,*
*Son göyüzündə diz çöküb,*
*Üz sürtüb ağlamağa*
*Anakünc, Anadirək,*
*Həm də, hər an Tanrının*
*Kirpiyiylə yırğalanan*
*Anabeşik, Anayüyrək.*

*Hamımız içində körpə,*
*Hamımız içində köyrək,*
*Hamımız içində şimşək.*

***Tanrı Şairlərə uca Qələm qədər,***
***həm də uca Qəm qədər yaxın***

***Ən qəhərli, ən qəmli bir qələm də bilir***
***o, bir Tanrı qələmi, bir Tanrı qəmi***

*Yenə minillər öncəkitək*
*şairlər hər zaman ancaq*
*vəfasız eşqi, sevgini,*
*vəfalı qəmi yazacaq.*
*Deyən, bunu elə eşq də,*
*elə eşqin canındakı*
*əbədi qəm də bilir,*
*elə cana eşq gələn kimi*
*şeirsevən, cansevən*
*o qəm də qalxıb gəlir.*

*Hər bir söz də bilir hər an,*
*o, bir Tanrı sevinci, qəmi,*
*Alınlara zaman-zaman*
*"Bu, son qəmli eşqdi" – yazan*
*ən qəmli Qələm də bilir*
*o, bir Tanrı qələmi.*

## *Son peyğəmbərini doğar göylər yorular-yorulmaz*

*Dağ göy olar, düz dəniz,*
*Sultan qul olar, şah kəniz,*
*bu dünyadan daha qəliz*
*sirrə varılar-varılmaz.*

*Göyüzü ulduz bitirər,*
*ulduz da adam gətirər,*
*yeni qurbanlar yetirər,*
*rahat olar bütün çiyinlər*
*son baş vurular-vurulmaz.*

*Duaların gözləriylə*
*salavatçün açılıb göyə*
*ovuclar Allaha baxar,*
*qəfil kainata düşüb*
*səs salmasınlar deyə*
*gözlər göz yaşını boğar –*
*Son peyğəmbərini doğar*
*göylər yorular-yorulmaz.*

## *Bütün İlahi Göyüzündə də Şairlər olmadan olmuş*

*Heç nə gizlətməyin bizdən,*
*biz söz çəkirik sözdən,*
*deməsəz də, üzdən, gözdən*
*şairlər bilmədən bilmiş.*

*Ən dar gündə, ağır gündə,*
*hamı lal, kar, sağır gündə*
*uzaqvuran top gücündə*
*şairlər gülmədən gülmüş.*

*Göydə də son göyə çatıb,*
*qoynunda günəştək yatıb*
*yenə günəştək doğmaqçün*
*dan yerinə də tağ atıb,*
*şairlər ölmədən ölmüş.*

*Səni can oğrusu bilim,*
*canımı gizlədim gülüm,*
*çox da lovğalanma, ölüm,*
*məni tapammazsan, gülüm,*
*şairlər olmadan olmuş.*

## *Şeir – yarı insani, yarı İlahi cəhd*

*Şeir – hər an, hər an hərəkətdə olan kainat deyilən bu Əbədi Böyük Sükutu – görünən, görünməz bütün kainatların hər an duyduğu əbədi Eşqə, əbədi Sözə çevirməyə yarı insani, yarı İlahi cəhd.*



“Sultan”

***Dilimiz – ən qədim vətənimiz,***
***sözü, sevgisi, Göyüzüylə***
***həm də, həm də ilk dinimiz!***

## *Əsl döyüşçüyə səngəri qəfəs*

*Əsl döyüşçüyə səngəri qəfəs,*
*düşmən səngərin al, sarı yarama*
*döyüş o səngərdə döyüşdü ancaq,*
*gedib qayıtmağa aldığım nəfəs,*
*nəfəsi ölümdən geri almağa*
*ölümün üstünə yürüşdü ancaq.*

*Qılınc gülümsəsə, təndə can gülsə,*
*əsir torpaqları alıb durmasaq,*
*heç bir Türkün gözü bağlana bilməz,*
*düşmən yuxusuna yurdumuz girsə,*
*o an duyuq düşüb onu vurmasaq,*
*düşmən zamanında haqlana bilməz.*

*Nəfəsi doğmalar, səsi doğmalar,*
*heç vaxt deyilməyən nəğmələr deyib,*
*heç vaxt alınmayan yurtlar aldılar,*
*qanadlı nəğmələr, atlı nəğmələr*
*ölən əsgəri də ata qaldırar,*
*ölən atları da qanadlandırar.*

*Ölüm də bir uçuş, əvvəlcə yerə,*
*sonra yer üzünə, sonra göylərə,*
*ölüm həm də döyüş*
*hər Türk oğluna,*
*Öldün, Türk?! Qalx, göyün boş qalan andı,*
*Onsuz da yer sənin. Qalx, Göy uğruna,*
*Türkün Göy yürüşü başlanan andı.*

## *Dünyanın şahı, sultanı, qurbanı*

*Sənin də xəbərin olsun,*
*mənim sonsuz göyüzü okeanında, dənizində*
*yupyumru, gonbul planetim,*
*xəbərin olsun sənin,*
*dünyanın kapitanı bilir,*
*sərnişinlərin də bilsin,*
*balıqlarınçün də suyun üzünə,*
*quşlarçün də, lap elə göyüzünə yaz,*
*bütün dünyanın şahı, sultanı olmaqçün*
*Avropanın, ya Amerikanın*
*lap elə quşların, balıqların*
*şahı, sultanı olmaqçün nə etsən də çox az,*
*buna nə silah gücü çatar,*
*nə sehr, nə küy, nə kələk,*
*ən ilk, ən son gerçək –*
*dünyanın şahı, sultanı olmaqçün*
*bəndənin, quşun, balığın yox tək,*
*hər bir yaradılışda hər an Allahı duymaq, görmək,*
*həm də onun yaratdıqlarının ən güclüsü yox,*
*gücsüzlərçün canını qurban verənlərin*
*ən yaraşıqlısı, ən zəifi, ən zərifi olmaq gərək.*

## *Şeir – Sözün ən məğrur, ən eşqli şəkildə Tanrıya doğru uçuşu*

*Şair adamları bir-birinə, həm də yerə, göyə, kainata, bütün dünyalara sevdirməyə sözləri bir-birinə sevdirməkdən başlayır.*
*Şeir də elə sözləri, yeri, göyü, kainatları bir-birinə əbədi sevdirməkdir!*

*Həm də, həm də beləcə*
*Şeir – tənhalıqdan əzab çəkən sözlərin ən gözəl qurtuluşu,*
*Həm də, həm də beləcə*
*Şeir – Sözün ən gözəl, ən eşqli şəkildə Tanrıya doğru uçuşu.*

***Tanrının pıçıldadığını duyan***
***Əbədiyyət xoşbəxtləri***

*Hətta Tanrını da həyəcanlandıran "mən səni sevirəm" – Anı,*
*sən bu dünyanın ən gözəl nəğməsi, ən sərxoş canı.*

*Tanrım, hamını hər an ilk sevgi çiçəyi, gülütək,*
*ilk sevirəm sözünün dilitək açan o candan elə.*

*Həm də hər an, hər zaman hamını ilk eşq gülü, ilk sevgi göyü,*
*ilk eşq kəpənəyi açan  o candan can elə.*

*Ey insan, dağ, düz, su, ulduz, göy bir daha bilin:*
*Əslində "mən səni sevirəm" əsl eşqlə deyiləndə, hətta göydə Tanrı da həmişə bu üç sözü ilk dəfə eşitmiş kimi onu deyən insandan da,  bütün insanların hamısının birdən həyəcanlanacağından da daha çox həyəcanlanır, hətta onun bütün dünyaya "mən hamınızı sevirəm" – pıçıldadığını duyan əbədiyyət  xoşbəxtləri də olur.*

*Adama qoyun deyib güldürməyin düşməni, yadı,*
*qoyunun ağı da, qarası da dövlətlərimizin adı*

## ***Doğma qoyun üzlərə, qoyun gözlərə***

*Min illərdi düz demirlər:*
*yaxşılar gedir, pislər qalır,*
*pis həmişə çox görükür,*
*nə qədər yaxşı getsə də,*
*yenə minlər, yüzlər qalır.*

*Yenə, yenə min illərlə*
*eşq gözləyən dağlar, düzlər,*
*üzlər, gözlər, nazlar qalır,*
*öpülməmiş dodaqlarda*
*öpülməmiş səslər, sözlər,*
*öpülməmiş közlər qalır.*

*Hər nə gəldi diləyirik,*
*hər cür qələt eləyirik,*
*adama qoyun deyirik,*
*deyirik, son anda amma,*
*yenə bizə hamıdan doğma*
*qoyun üzlər, gözlər qalır.*

## *Əbədi doğma mələklər, doğma kələklər şəhəri*

*Can tacı eşqlər, diləklər,*
*acı gerçəklər şəhəri,*
*qatlanmaz, sınmaz biləklər,*
*sınan ürəklər şəhəri.*

*Əsəbi doğma küləklər,*
*əsəbi doğma çiçəklər,*
*doğma tənhalar, təklər,*
*doğma yalanlar, gerçəklər,*
*doğma kələklər şəhəri.*

*Sevişmələr, həyəcanlar,*
*həm can verər, həm can alar,*
*səni ancaq sevən anlar,*
*sən eyy,*
*əbədi doğma şeytanlar,*
*əbədi mələklər şəhəri.*



**“Bilge kişi”**

***Şeir Şərqdən doğar, hər şeir dalınca bir Günəş də,***
***o Günəşin yanından eşqlə baxmaq da,***
***bütün kainatda lap ən ağıllı da, lap ən axmaq da***

*Küçədən keçənlər, yoldan ötənlər*
*hərəsi bir yandan məni silkələr,*
*biri ağlamalı, biri gülməli:*
*– Mən ağac deyiləm, a gülməşəkər,*
*yerişinə qurban bütün ölkələr,*
*yürü ağlamalı, yürü gülməli.*

*Bilirəm öz qəmin, öz qədəmin var,*
*özgə cür vurmağın, özgə dəmin var,*
*ölənlərin ölmür, can qurtarırlar,*
*hər ölün təbriklik, dirin rəhmətlik,*
*dirin ağlamalı, dirin gülməli.*

*Mən yad deyiləm ki, sizlərə güləm,*
*həm də həvəsim yox hər gün döyüləm,*
*hamıya baş əyib bir-bir deyirəm:*
*– Mən sizi sevsəm də, sizdən deyiləm,*
*sürü ağlamalı, sürü gülməli.*

*Kim məni tutmaqda, kim haqlamaqda,*
*kim mənə gülməkdə, kim ağlamaqda,*
*ancaq, hamımız bir, birgə axmaqda,*
*lap ən ağıllı da, lap ən axmaq da*
*yarı ağlamalı, yarı gülməli.*

***Dəli sözlərin ən ağıllısı,***
***ağıllı sözlərin ən dəlisi***

*Burda lap elə adamlartək*
*şeirin qara tellisi, ağ tellisi,*
*dupdurusu, yupyumrusu,*
*dəli sözlərin ən ağıllısı,*
*ağıllı sözlərin ən dəlisi,*
*ən dəlisi, ən dəlisi –*
*ən qısqanc, ən eşqli tikanlısı,*
*ən dəli çiçəklisi, güllüsü.*

*Elə gültək, çiçəktək*
*gözələ ağıl nə gərək,*
*onsuz da o hər nə etsə,*
*hamıya gözəl görünəcək ...*

***Bağışlayın, mən nifrət edə bilmirəm,***
***mən ancaq sevə, sevdirə bilirəm***

*Cürbəcür qəzetlərdə cürbəcür adamlar*
*elə hey deyirlər, ya xorla, ya da tək-tək:*
*Filankəslərə, filanlara nifrət etmək gərək!*
*Ancaq bağışlayın, mən nifrət edə bilmirəm,*
*mən ancaq sevə bilirəm.*

*Siz də torpaqtək, göytək sevin, sevdirin,*
*Göylərin eşqlə oxşayıb, göytək açdırdığı,*
*eşqlə uçdurduğu ruhlara da sevinin,*
*onlartək eyni anda hər iki dünyada*
*hamıya hər şeyinizi verin,*
*başqa heç nə haqda düşünmür onlar,*
*onlar ancaq canlarını, ruhlarını verə,*
*ancaq sevə, sevdirə bilirlər.*

*Mən çox zaman çox adamdan,*
*elə özümdən də cəsarətli olmuşam,*
*ancaq mən cəsur deyiləm,*
*sadəcə balaca göylü, balaca boylu bir şam,*
*həm də heç də həmişə istədiyim kimi olmamışam,*
*beləcə, mən, hərdən bizə baxıb dinməzcə inildəyən*
*torpağımıza, suyumuza oxşamışam.*

***Bütün insan haqlarından daha üstün insani haqq dünyanın ən kasıb, Allahın ən varlı adamı olmaq – Allahçün yaratdığı bu dahi kainatdan da maraqlı***

*Tanrım, ən uzaq dünyaları da*
*ən yaxın, ən doğma sözə çevirməkçün*
*onları dönə-dönə hər an*
*canımda sevgiylə yan-yana düzdürə-düzdürə,*
*yəni mənə şeir yazdıra-yazdıra,*
*şeir yazdırmaq əzabını özünə,*
*şeir olmaq sevincini sözə,*
*öyünmək sevincini verirsən mənə.*

*Duyuram, sən bütün yaratdıqlarınla deyirsən:*
*Hər an hər şeyini hamıya vermək–*
*Tanrı sevən insanlıq budur, bu, tək !*
*Həm də hamıya hər şeyini verə bildiyinçün*
*dünyanın ən kasıb,*
*Allahın ən varlı adamıtək hər an sevinmək!*

*Hər an hər şeyini dünyaya verən adam*
*hər an hamıdan daha azad, daha haqlı,*
*yaratdığı bu yer, göy ruhu, elə Allaha da*
*yaratdığı bu dahi kainatdan da daha maraqlı.*

***Göyüzü ancaq eşq dualarını, sevgi pıçıltılarını***
***hər an duyacaq,***
***əslində bütün Kainat – sevgi duaları,***
***sevgi pıçıltıları ancaq***

*Torpaqlar, sular, sözlər aşıb əbədi Eşqin bu kitabının kainat duasına, torpağına, dənizinə, göyüzünə, sözlərin əbədi gənc, səslərin əbədi tunc dövrünə xoş gəlmisiniz. Onlar elə bu anlar da, sizdən sonrakı anlar da min illər sonrakı, min illər öncədəki kimi Allaha, onun yaratdığı bütün varlıqlara dua edərlər, ağaclar Allaha çiçək açantək onlara dua açarlar, çünki hər iki dünyadakı görünən, görünməz bütün varlıqlardan onlarda nəsə olduğunu hər an duyarlar.*

*Onlar həm də duyarlar, bu kitab hamıya çiçək açan, hamını hamıya sevdirən, hamıya dua açmaqçün diz çökən, hamıya dua edən kitabdır.*

*Adamlar dua edərkən dua açdıqları yerin ortasında yox, Allahın onları olduğundan daha Allahlı görə biləcəyi bir küncə çəkilər, beləcə bütün yeri, göyü, kainatı Allaha saxlamış kimi olurlar.*

*O mübarək anlar onlar həm də Allahın adamlara sonsuz səxavətini duymuş kimi olurlar, çünki bəndələri dua edən anlar Allah onun gəlişiylə kainatın mərkəzinə çevrilən bir kuncə çəkilər, qalan bütün yeri, göyü, kainatı dua edənlərə verər.*

*O anlar dünya İlahinin sonsuz eşqlə ucaltdığı kainat boyda sonsuz məbədə çevrilər. Alllah ona dua edənlərlə birgə bir kuncə çəkilər, bütün kainat İlahidən insanlara gələn, insanlardan İlahiyə uçan sevgi pıçıltıları, sevgi dualarıyla dolar.*

***Eşqtək mübarək minarə başlar dalğalanar, çiçək açar mübarək göy, mübarək dəniz çiyinlər üstdə***

*Allah ətəyinə aşan an*
*hamı hamıdan körpə,*
*hamı hamıdan qoca,*
*hamı hamıdan cavan,*
*hamı hamıdan uca.*

*Orda Sevinc də, Dərd də*
*hər an hər biri  həm tək-tək,*
*həm də ikisi bir yerdə*
*bir-birinə eşqdən çiçək,*
*göz yaşından mübarək.*

*Əbədiyyətdən sonra da*
*ruhlar, canlar aşar, daşar*
*şəhid ayinlər üstdə,*
*ayinlər enən an vurulan*
*mübarək minarə başlar*
*mübarək eşqtək dalğalanar*
*eşqdən dəniz çiyinlər üstdə.*

## *Göyüzü – Allahın ən əziz balası*

***Allahın ətəyinə aşan göyüzündə də***
***sözün ən  çox sevdiyi şəkil – Şeir!***

*Mən şeir yazmıram,*
*düzü, mən heç bilmirəm Şeir nə?!*
*Mən ancaq dəyiləndə Sözün xətrinə,*
*Söz ağlayanda dururam,*
*Sözü ağlayan dünyanı*
*Söz ən çox sevən şəkildə,*
*ağlayanı sevindirəcək şeirtək çiçək,*
*eşqtək mübarək qururam.*

***Hər iki kainatın bir anı olduğunu hər an duyan adam –***
***əbədiyyət sahillərində sərxoşlar sərxoşu,***
***sizsə, insan sahillərində ayıqlar ayığısınız, şərablar***

*Çox zaman dünyanın canından, hətta bütün kainatdan*
*bir az da şərab qoxusu gəlir elə bil,*
*bütün göyüzü, kainat elə bil bir az sərxoş zaman-zaman,*
*Ancaq sən mənə çox gecikmisən, şərab qoxusu,*
*ay alagöz, incəbel badə, sən də gecikmisən,*
*siz də, siz də naz-qəmzəli, dilbər xanım şərablar,*
*daha naz-qəmzəylə yoldan çıxara bilməzsiniz məni,*
*düzdür, siz bu sərt dünyanı bir az yumşaldırsınız,*
*bu yumşalmadan xoşbəxt olanlar da olur,*
*bəzi anlar onlara siz hamıdan daha doğma gəlirsiniz,*
*Bütün doğmalardan ayrılmaq zordur,*
*amma badələr tarixi, ayrılıqlar tarixi deyir:*
*ən ağrılısı, ən zoru həm də hamıdan doğma,*
*hamıdan dost, sədaqətli badələrdən ayrılmaqdı.*
*İnciməyin, badələr, mənim canım sizsiz də sərxoş,*
*mən indi içəndə sərxoşluqdan ayılıram ancaq,*
*sevimli rənglərinizə, sevgiylə gülümsəmənizə,*
*naz-qəmzəylə süzülmənizə də baxıram,*
*bilin, mən çoxdan sizsiz də dünyanın ən sərxoş eşqi,*
*canı o eşqlə dolu ən sərxoş şeiri, sözüyəm,*
*ancaq bu dünya kimi siz də həddən artıq ayıqsınız.*

*Mən – hər iki kainatın bir anı olduğunu hər an duyan adam –*
*əbədiyyət sahillərində sərxoşlar sərxoşu,*
*sizsə, insan sahillərində ayıqlar ayığısınız, şərablar.*

## *Dünyanın ən uca adamı – hamını özündən uca tutan adam!*

***Hər bir insan hər an həm bir Allah əsəri, Allah sevgisi, həm də dünyaya heç vaxt deyilməmiş bir Allah sözü***

*Ey bütün sözləri özündən uca tutan Söz! Bilirəm sən hər şeyi bilirsən, şair ancaq onları yada salır. Çünki Allah hər bir insanı o qədər zəngin və gözəl yaradıb, onlar hər an yenidən kəşf olunmağa, ən əsası isə hər an öz-özünü kəşf etməyə layiq. Gözəl görünməyənlərisə, ya biz duymuruq, ya da biz onlarda, özümüzdə nəsə etmişik, ona görə də Allahın yaratdığını tam duya bilmirik.*

*Gözəl saymadığınız adamlara da bir daha baxın. Bilin, onlarda kəşfinizçün hər an gizli bir gözəllik sizi gözləyir. Hər bir insan özünün də xəbəri olmadığı saysız gözəlliklərlə bitib tükənən deyil, sonralar özü özündə yaratdığı bütün çirkinliklərə baxmayaraq, hətta ən böyük cinayətkar da yenə Allahın yaratdığı gözəl bir əsərtək sonsuzluğa qədər kəşf oluna bilər.*
*Bilin, hamı, hamı Allahın ən gözəl əsəri!*

*Ancaq, ancaq hamını Allahın ən gözəl əsərini görəntək görmək azdır, çox azdır, hamını həm də hər an Allah sevdirəntək sevdirmək, Allah uca tutantək uca tutmaq gərək. Allah axı Sizə özünün bu qabiliyyətini də verib. Bununla Allah sizə deyir, siz hamını hər an özünüzdən də uca tuta bilirsinizsə, deməli, siz də hamıdan ucalardasınız, Bunu ancaq ucalar edə bilər. Bunu edirsinizsə, siz bəndənin yox, Allahın ucalarındansınız.*



**Bayatlı Odər**

***Budağından tutduğum göyüzünə keçir ağrılarım yenə də, göyüzü, bağışla məni, göyüzü budağı, bağışla sən də***

*Göydən gələn Göy ağrılarımı, Söz ağrılarımı,*
*Yerdən qalxan od, ocaq, kösöv, köz ağrılarımı*
*daha çox dizləri üstdə oturduğum qardaş daşlar,*
*ürəklərinə ürək,*
*kürəklərinə kürək qatdığım qardaş divarlar,*
*ən çox da budağından tutduğum*
*budağına budaq qatdığım göyüzünə oxuyuram:*
*Bağışla, dağın, daşın, divarın da ürəyi Göyüzü,*
*səndən nə qədər gizlətsəm də yenə,*
*duyuram, qəmim, kədərim yetişməmiş*
*ağrıları kal-kal keçir sənə.*
*Bağışla, qəmi, kədəri səni sevindirəcək qədər,*
*Heç olmasa, ağrıtmayacaq qədər belə,*
*ballı-ballı, güllü-güllü, telli-telli*
*yetişdirə bilmirəm hələ.*

***"Quran" oxunanda ayələrarası sükut –***
***o əbədiyyət anları Tanrı özünə sarı qaldırır,***
***göyüzünə çevirir bütün insanları***

***Dahi kimi, dahilər dahisitək yaradır Allah bizi,***
***bizsə dahi qatili edirik özümüz özümüzü.***

*Allah dahi kimi yaradır,*
*dahiliyə doğru yönəldir hər bir kəsi,*
*həm də Allah üçün ən maraqlısı*
*insanların öz dahiliyini necə kəşf etməsi.*

*"Quran"ın avazla oxunma anı*
*bütün insanlara çox şey deyir Tanrı,*
*ən çox da ayələr, sözlər arasındakı*
*əbədiyyət boyda sükut – əbədiyyətə ucalma anları.*

## *Tanrının ən çox sevinməsi*

*Bu dünyada da Tanrı ən çox sevinir*
*yaratdıqlarının yaratdıqlarına,*
*onların yarada-yarada qalxdığı göyün qatına,*
*həm də dünyanın əbədi sevgi qapağı,*
*sevgililərin ancaq gözləriylə danışdığı*
*kainatın əbədi dünya Sükutuna.*

*Kim Allahı hər an daha çox sevindirirsə dönə-dönə,*
*Allah da daha çox  sevindirir onu, sevinir ona,*
*sevinir yaratdığı dünyayla yarışda*
*dünyanın belini yerə vuran hər xan fikrə, sultan sözə,*
*həm də əyilib, yıxdığı dünyanı əvvəlkindən də ucaya qaldıran*
*hər xan oğlana, xanım qıza, sultan oğlana, sultan qıza.*

## *Hər gecə bütün eşqli ulduzları sayıb qurtarcaq – ancaq, ancaq onda, bir azca rahat oluram ancaq*

*Hər gecə eşqli ulduzları sayıb qurtarcaq,*
*hamısının öz eşq yuvasında yuxladığını görüb*
*ancaq, ancaq o zaman,*
*bir azca rahat oluram ancaq.*

*Əslində mənim əsas işim yazmaq deyil,*
*hər gecə ulduzları saymaqdı,*
*həm də göyüzündən küsən, inciyən,*
*qopub düşən ulduzları tapıb,*
*göyüzüylə barışdırıb,*
*öpüb yerinə qoymaqdı.*

*Mənə tez-tez deyirlər, sən tək deyilsən,*
*bu dünyada ulduzların sayı qədər*
*ulduz, ay dəlisi var, ay dəli, bunu bil,*
*sən onları sayırsan, ya yox,*
*ulduzların heç vecinə də deyil.*

*Ulduzlarsa, mənə başqa şey deyir ancaq,*
*əgər adamlar deyən kimiysə,*
*vallah, yaxşı iş görmür ulduzlar,*
*yalan yoldadı onlar,*
*işlərini, güclərini atıb hər gecə*
*yerüzündə, göyüzündə nəysə qaynadırlar –*
*göyüzü dəlisi, ulduz dəlisi bir şairi*
*hər gecə səhərəcən oynadırlar.*

## ***Poeziya dinlər içində ən eşqli bir dindir, şair həm də söz Allahı, söz dirildəndir***

*Qəfil əsəbiləşdinsə, səsə-küyə yox,*
*tez pəncərədən çölə,  göyə bax,*
*baxdıqca göydəki, ya yerdəki dost uzaqlar,*
*yavaş-yavaş ağrını canından alacaq.*

*Bircə dəfə bunu bildinsə,*
*ondan sonra uzaqlara, göylərə baxmaq,*
*elə yox olan ağrı da dostun olacaq,*
*beləcə uzaqları özünə həmdəm,*
*dost edə-edə yaxınlara keç,*
*həm də bil, Tanrı*
*yaxınları uzaqlaşdırmaqçün yox,*
*uzaqları yaxınlaşdırmaqçün*
*yaradıb insanları.*

*Əsl şairlik elmlər içində bir elm,*
*dinlər içində bir dindir,*
*bütün ağır anlarda şairi dindir,*
*o, söz Allahı, söz dirildəndir,*
*həm də demək gərək*
*ölü, xəstə sözləri diriltmək*
*adam diriltməkdən daha çətindir.*

## *Tanrının gözəl üzlərdə öz gözəlliyini açması – Tanrı üzündən o üzlərə gözəllik keçməsi*

*Hər an, hər an yerüzündə, göyüzündə*
*yeni-yeni gözəlliklər yaratmağı sevən Tanrı*
*gözəl insanların üzündə*
*özünün hər an təzələnən gözəlliyini duyar,*
*o canlarda, o üzlərdə Tanrı*
*özünün ən gözəl çiçəklərini açar,*
*duyduqca, açdıqca  da o gözəlliklərə,*
*o üzlərə hər an İlahilik qatılar.*

*Gözəl üzlər həm də ona görə gözəl,*
*ona görə gözəl, hər an onlara baxır Tanrı,*
*sən də, ey mübarək adam, o üzləri görəndə dua et –*
*o üzlərə baxarkən səni də mübarək etmiş Tanrı,*
*sənin duanı da dinləyir,*
*bil, Tanrı hər adam qarşısına çıxartmır onları.*

*Bu dünyadan qabaq, Şeirdən qabaq yazılmış şeir*

## *Ən sevməli, ən gülməli ağıllılardan da ağıllı, ən sevməli, ən gülməli giclərdən də gic*

*Hürmələri dünyadan uca, dünyadan böyük,*
*iki balaca, iki körpə küçük hürürdü bizə şən-şən*
*üzdən, gözdən, lap elə hürdükləri sözdən də birdilər,*
*heç fərli-başlı hürmək də bilmirdilər –*
*hürmələri özlərindən yekə, özlərindən iriydi,*
*həm də, deyəsən, bu dünyada ilk hürmələriydi,*
*hürə-hürə hürə bildiklərinə görə yaman sevinirdi onlar,*
*hürməkdə də bircə istəkləri vardı, onları da it saysınlar,*
*elə bizim də bircə istəyimiz vardı – bütün itlər, insanlar,*
*bu körpə küçüklər başda olmaqla, bizim sevgimizi duysunlar.*

*Bizə elə şirin, elə şən hürürdülər,*
*bir də gördüm onlara qoşulub hürürəm mən də,*
*hayıf, indiyəcən bilməmişəm, nə gözəlmiş hürmək,*
*dünyayla ittək danışmaq, dünyanı ittək görmək,*
*eləcə, biz hürürdük iki küçük bir adam üç küçüktək,*
*sənsə baxıb hey gülürdün dünyanın ən gözəl üçlüyünə*
*hələ hürmək bilməyən bizdən də körpə kiçiktək.*

*Mən, deyəsən, daha çox səninçün hürürdüm o gün,*
*həm də elə bil adamtək yaşamağın yorğunluğundan,*
*adamlıqdan dincəlmək istəyirdim heç olmasa bircə an,*
*həm də ömür boyu bizi sevən, hətta bizə hürən itlərə*
*nəsə bir borc yığılıb qalmışdı canımda haqq yerinə*
*hürdükcə hürürdüm, sənsə baxıb hey gülürdün yenə.*

*Bu dünya deyilən dərdimiz yox idi,*
*hamımız bir cür dəliydik, başqa cür dəlimiz yox idi,*
*hər iki dünyayla danışacaq başqa dilimiz yox idi,*
*hürürdük, gülürdük, biz dörd adam, dörd küçük idik,*
*dünyanın ən sevməli, ən gülməli ağıllılarından da ağıllı,*
*ən sevməli, ən gülməli giclərdən də gic idik.*

## *Qurbanlar cəlladları ağlayar*

*Kimə lap tez göndərib*
*kimi xeyli gözlədib,*
*Hər insanın canında*
*Tanrı nəsə gizlədib.*

*Deyən elə gizlinsiz*
*var ola bilməz heç kəs,*
*həm də deyən elə bu*
*gizlinləri yaratmasa*
*Tanrı da ola bilməz.*

*Həm gündüzlər, həm gecələr,*
*dəqiqələr, saatlar*
*asdıqları adamların*
*ayaqları altında*
*özlərindən xəbərsiz*
*hər gün min yol diz çöküb*
*dua edər cəlladlar.*

*Elə qurbanlar da hər gün*
*bam-başqa bir dünyada*
*əzab çəkər onlarçün,*
*hətta qara bağlayar,*
*onlarçün əzab çəkən*
*cəlladları ağlayar.*

## *Ən qatı cani də uşaq*

*Hərə qocalır bir cürə,*
*birinin üzünə nuru,*
*birinin zoru çıxır,*
*yola salan çox olsa da,*
*hamını qarşılamağa*
*ancaq qəbri, goru çıxır.*

*Allahın dərgahına bax,*
*Nə yaşayıb bunlar, Allah?*
*Hamı körpə, hamı uşaq,*
*Bir yol "Can!" de ağlayacaq –*
*ən qatı cani də üzü ağ,*
*dimdiyi sapsarı çıxır.*

*Allah baxır, baxır ona,*
*bunu göndərsin hayana,*
*ha vurub, bölsə də yenə,*
*cənnətə, cəhənnəmə də*
*yenə yarı-yarı çıxır.*

## *Utanıb adam yerinə günah yazıq azalır*

*Adamda adamlıq azaldıqca*
*dünyada da dünyalıq –*
*ağacda ağaclıq, quşda quşluq,*
*balıqda balıqlıq azalır.*

*Dünyada xanımlıq, bəylik,*
*yazda yazlıq, yayda yaylıq,*
*elə bil göydə də göylük,*
*həm də xalıqlıq azalır.*

*Yaşayırıq elə-belə,*
*günahları bilə-bilə,*
*bir an da gəlmədən dilə*
*utanıb adam yerinə*
*günah yazıq azalır.*

## *Dünyanı pak saxlamaqçün bizə güc yığır Allah*

*Dünyanı pak saxlamaqçün*
*hər an dünyanın üzündən*
*günah, suç yığır Allah,*
*haqqın, eşqin göyüzündən,*
*onların gülən üzündən*
*bizə güc yığır Allah.*

*Hər an sığınsa Allaha*
*dönməzlər dönər bir daha,*
*bir gün zülm qalxanda şaha,*
*ətəyinə sığınmağa*
*həm vurub yıxan neçə qoç,*
*həm də vurulub yıxılan*
*neçə köç yığır Allah.*

*Baxıb hər bir millətə,*
*ondakı ağla, qeyrətə,*
*birinin başına əsl dədə,*
*birinin başına da çətə –*
*bir dəstə gözüdoymaz, ac,*
*bir dəstə gic yığır Allah.*

## *O əksər Tanrı mələkləritək mübarək, həm də, həm də mübarək qəddar idi*

*Onun yazdıqlarını*
*hərə bir cürə yozurdu,*
*o isə əslində ancaq,*
*ancaq Allahçün yazırdı.*

*O bu dünyada həm ilk,*
*həm də, həm də*
*son tənhalığı yazanda*
*dağda, düzdə, dənizdə*
*xoşuna gəlməyən hər nə var*
*Tanrı yolundan itirirdi,*
*həm də hər şeyi həm özü,*
*həm də Tanrı sevəcək*
*bir şəklə gətirirdi.*

*O bunları edə-edə*
*bütün gözəl çiçəklərtək*
*bütün eşqlərə yar idi,*
*əksər Tanrı mələklərirtək*
*o həm mübarək mələk,*
*həm də mübarək zalım,*
*mübarək qəddar idi.*

## *Ölümsüzlüyüm hər an gülümsəyənə, gülənəcən, canımdan sənin ölümsüzlük ətrin gələnəcən ancaq səninçün yenidən doğulacağam, Vətən*

*Ağılla sevməyin nəsə bir həddi var,*
*həm də ağılla sevəndə sevgidə elə bil nəsə çatışmır,*
*mən səni daha çox dəli kimi sevirəm, Vətən,*
*mən hər an səni sevən ruhumu, canımı,*
*sənin ən ətirli çiçəklərdən də ətirli daşına,*
*torpağına, suyuna, göyünə döyə-döyə,*
*hətta hərdən səni söyə-söyə sevirəm, Vətən.*
*Hərdən sevdiklərimi sevgiylə söyməsəm,*
*elə bil sevgidə nəsə çatışmır həm də,*
*bütün söyüşlər də sənindir, sənlə gözəlləşir,*
*yeməyə daşım, dəmirim,*
*qucaqlamağa tikanım, kolum, Vətən,*
*öpməyə dağım, daşım, cığırım, yolum, Vətən.*

*Ancaq mənimtək sevənlər bilər, dağı, daşı,*
*tikanı, kolu sevgiylə necə öpmək, yemək olar.*
*Canımdan göyünün, suyunun, torpağının,*
*kolunun-kosunun, tikanının da ətri gələnəcən,*
*onları qucaqlayacağam,*
*başımı, bədənimi, canımı onlara döyəcəyəm,*
*canıma bütün ağaclarının ağrısı gələnəcən*
*özümü bütün ağaclarından asacağam,*

*sularının ətri hər an canımdan gələnəcən*
*bütün çaylarında, göllərində boğulacağam,*
*ölümsüzlüyüm gülümsəyənə, gülənəcən,*
*canımdan sənin ölümsüzlük ətrin,*
*ölümsüzlük qoxun gələnəcən*
*yenə, yenə səninçün doğulacağam, Vətən.*

## ***Sevməyə, cırıb atmağa bizə daha doğma, daha əziz başqa cəhənnəmi hardan alaq?***

*Bu şeirə bax, bu şeirə, alınmır heç cürə,*
*yazıram, içindəki dağ, düz, dəniz qarışıq*
*hamısını cırıb atıram,*
*cıranda hərəsi ağrıyır bir cürə,*
*Sizə də əzab verirəm, ay söz, ay kağız,*
*ay dağ, ay düz, siz Allah, bağışlayın məni.*

*Dənizə də deyirəm, yaman əsəbisən, bir az dur,*
*dəniz yazıq neyləsin, dəlidi də xahiş eləyir,*
*dəniz durur, şeiri yazıram dənizin üstünə,*
*Səni yanasan şeir, alınmadın yenə,*
*deyib yazıq dənizi də, şeiri də cırıb atıram.*

*Axırda şeiri yazıram bütün dünyanın üstünə*
*ən balaca hərflər altda qalır ən uca dağlar da,*
*yenə boş yerə, alınmır yenə,*
*bağışla, dünya, deyib dünyanı da cırıb atıram.*

*Sonra özümə deyirəm, ay dəli, ay axmaq,*
*bir şeirə görə cırıb atdın dünyanı,*
*indi biz sənə hərdən sevməyə,*
*hərdən də cırıb atmağa*
*bundan daha doğma, daha gözəl,*
*daha əziz cəhənnəmi hardan alaq?*

*"Dünyanın ən təhlükəli anlarında dünyanı ağıllandıran dəli gerçəkləri – ancaq təhlükələrdən açılan uçurum çiçəkləri" silsiləsindən*

## ***Ruha, cana çox zaman yalan deyən şərablar haqda yox, ruha, cana eşqtək qalxan Şahanə Şərablar haqda***

*Dünyaya günəştək çıxan,*
*ən buludlu canlara da günəştək, eşqtək qalxan,*
*günəştək, eşqtək baxan o şahanə şərabları*
*hər zaman, hər çağ içmək günah ancaq.*

*Hər zaman, hər çağ*
*onları ancaq gültək, çiçəktək qoxlamaq,*
*diz çöküb sevgiylə, eşqlə onlara baxmaq,*
*onları ruhun gözləriylə görmək, öpmək, oxşamaq!*

*Əslində içki içməkçün yox –*
*and içməkçün ancaq!*

*Onları içmək hər zaman, hər çağ –*
*göyü, gözəlliyi içmək, gülü yeməktək,*
*adi suya çevirib mədəyə, gödənə, bədənə,*
*ordan da ayaqlar altına atmaq demək.*

***Çox adam çaxırdan, araqdan, hətta ən son anda***
***boş şüşədən,***
***mənsə şeirdən, elə ilk andan boş varaqdan***
***sərxoş oluram***

*Kimlərsə bir coşqun çayı keçəntək*
*bir şüşə şərabdan keçməkdən,*
*o coşqun çayı*
*hər iki dünyanı birdən içirmiştək içməkdən,*
*bədənləri, ruhları,  canları*
*boşaltdıqları sərxoş badələrtək şərabdan çox,*
*hər iki dünyayla dolmaqdan,*
*hətta üçüncü dünya həsrətində qalmaqdan sərxoş olurlar.*

*Ən şairanələrsə,*
*dünya gözəli gözlərinə baxantək*
*incəbel badənin eşqlə dolu gözlərinə*
*elə bircəcə an baxmaqdan,*
*baxcaq da, o badəylə dolmaqdan,*
*elə o andan da o badənin,*
*o gözlərin olmaqdan sərxoş olurlar.*

*Mənsə badə eşqlə dolantək sözlə dolub,*
*önündə ən dəli badənin də diz çökdüyü*
*eşqdən də sərxoş dəli söztək ağlamaqdan, gülməkdən,*
*eyni anda ağlaya-ağlaya, gülə-gülə*
*ən ağıllı sözdən də çox,*
*ən dəli sözün eşqindən ölməkdən sərxoş oluram.*

## ***Kişilər elə hönkürürlər, elə ağlayırlar bəzi anlar, elə bil ağlamağın o anında həm də gülürlər onlar***

*Kişilər bəzi anlar elə ağlayır, elə hönkürürlər acı-acı,*
*ağlamağın o anında həm də elə bil gülürlər onlar,*
*o an göyün göz yaşı baxan yerinə baxır Allah da.*
*Əslində gülməklə ağlamaq qardaş-bacı,*
*ancaq bilmirəm, nədən*
*bəzən həm ağlayıb, həm də gülməsə*
*tam rahat olmur bədən, can.*

*Kişi göz yaşı az, amma hər damla çox ağır olar,*
*ağlamadıqları anların hamısını birdən ağlayarlar onlar,*
*qoyun canlarında illərlə yığılıb ağırlaşan, ağrıdan,*
*hətta hərdənbir elə bil güldürən nə qədər göz yaşı var,*
*hamısını bir-bir rahatlasınlar, bir-bir ağlasınlar,*
*həm də o anda adamlar gülürmüştək ağlamağın*
*ağlamaqdan daha ağır olduğunu anlasınlar.*

*O an göyün o göz yaşı baxan yerinə baxır Allah da,*
*yer o an göydə elə bil göz yaşı çalasına düşür,*
*dünya yenə bu dünyadan da qoca əbədi Qəmə,*
*əbədi Sevincə sarı sürüşür.*

*Hamının əcəl qatarıyla dünya səyahəti hər an qurtarar,*
*bir an yükün çoxluğundan çətin dartınar qatar,*
*o an qatara yük az olsun deyə əsl kişilər atılar,*
*elə atılcaq da qatarın yanınca qaçan*
*ölümün belinə yatar onlar.*

## *Vətən, səni sevənlər sənin qəlbin*

*Səlcuqlar imperiyasının sonuncu şəhidi Elçin Səlcuqa*

*Vətən,*
*torpağının üstündə rahat gəzməyən*
*torpağının altında da rahat yatammaz.*

*Bu yazıqlar elə bilirlər hamı ölür,*
*Ancaq mən bilirəm, Vətən, səni sevənlər*
*ölütək bəndə qəbrinə yox,*
*sevgitək sənin qəlbinə enir,*
*onların qəlbi də heç zaman durmur,*
*hər an sənin qəlbinlə,*
*həm də sənin qəlbintək vurur,*
*"Şəhidlərim, qalxın" – deyən anda*
*onlar tək əbədi əsgərlərintək yox,*
*həm də, həm də*
*hər an hər yerdə çarpan*
*sənin əbədi qəlbintək*
*sıçrayır, qalxır, durur.*

***Diz çöküb torpağı – əslində bütün yerüzünü***
***öpənlər həmin anda***
***həm də yerüzünə uzanan Göyüzünü –***
***Tanrı ətəyini də öpürlər***

*Gündüz, ya gecə*
*diz çöküb torpağı, həm də beləcə –*
*bütün yerüzünü öpənlər*
*əslində yerüzüylə birgə Tanrı göyünü –*
*onun bütün kainatı örtən,*
*öpən ətəyini öpürlər.*

*Tanrı ətəyini yerüzündən diz çöküb*
*göyüzündə öpənlərin həmişə, hər an,*
*hamısının bir-bir, tək-tək*
*balaca günəşlərtək qalxan,*
*balaca günəşlərtək öpən alınları, öpən gözləri,*
*balaca günəş budaqlarıtək qatlanıb öpən,*
*qatlanıb günəş açan dizləri mübarək.*

## *Allah, gör nə təşər doğulur*

*Ayağa dursunlar bütün istəklər, haqlar,*
*bütün ağıllılar, bütün sarsaqlar,*
*ağıllı, ağılsız bütün qadağalar, yasaqlar*
*ayağa dursunlar, ayağa dursunlar,*
*bir şair qələminin qəlbindən,*
*dünyaya şeir gəlir, şeir doğulur.*

*Ayağa dursunlar şeiri tapdalayan ayaqlar,*
*ancaq o ayaqların başları bilsinlər,*
*şeiri tapdalanan dünyadan,*
*ancaq, ancaq ayaqla yazılan şər doğulur.*

*Sən Allah, bu söz bəbəyə bax,*
*böyüyüb ya xanım, ya bəy söz olacaq,*
*ona intizarda hətta Allah,*
*bax, sözdən dünyaya, həm də Tanrıya*
*necə böyük, necə uca bəşər doğulur,*
*bu qədər ağrıdan, əzabdan*
*özü də gör necə gözəl,*
*necə lovğa, çığırğan, necə təşər doğulur.*

## *O, unutmağın da, unudulmağın da ən günahkar, ən suçlu şeiri*

*Nə gözəl olur ona bu haqq –*
*hər iki dünyada da unudulmaq!*
*Hər iki dünyada da unudulmaq!*

*Nə gözəl! Nə gözəl!*
*Yaşamaq – bir şeirin canında yox olmaq ancaq,*
*orda hər iki dünyada unudulantək unudulmaq!*

*Şeirim, gönçələn, bir daha açıl qalx,*
*Hər iki dünyaya bir daha göstər,*
*hər iki dünyada hər an eşqlə oxlanmaq*
*ancaq şeirə yaraşır, həm də şairə ancaq.*

*Çox da ki, hər iki dünyada sən*
*heç kimi unutmayan,*
*ancaq ən çox unudulacaq biri,*
*həm də hər iki dünyanın da*
*unutmağın da, unudulmağın da*
*ən günahkar şairinin*
*ən günahkar, ən suçlu şeiri.*

***Allahın yaddaşında ən çox şahanə şairanəliklər, həm də, həm də ən şairanə şahanəliklər qalmış***

*Şair coşan an ruhuyla uça-uça*
*bütün quşlardan da,*
*bütün uçuşlardan uca.*

*Ürəklərin fatehi eşqi duy, bax,*
*Sən də, Sən də görəcəksən,*
*quşlar qanad açmağa*
*macal tapmamış şair uçacaq,*
*görəcəksən Qız qalalarının,*
*Oğuz qalalarının*
*üst-üstə ən ucasından da uca*
*qanadlanıb uçan quşlar yox,*
*şairlər olmuş ancaq.*

*Onlar həm də bu dünyada da*
*şairanə, şahanə uçuşlarıyla*
*daha da qaldırmış göyüzünü,*
*daha şahanə, daha şairanə etmiş,*
*elə bütün İlahi zamanlarda da*
*göyüzünü də ən çox*
*şairlər fəth etmiş, şairlər almış,*
*İlahinin yaddaşında da  tək şairlər yox,*
*həm də ən şahanə şairanəliklər,*
*ən şairanə şahanəliklər qalmış.*

*Bu dünyaya gəlməyimiz haqda sakitcə söhbət:*

***Hamımız başqa doğma dünyalardan***
***bu doğma dünyamıza gələnlərik***

*İlk anda*
*nəsə bir-iki pis şey görə bilərsiniz,*
*ancaq bizim dünya elə də pis deyil,*
*bir az yarı ağıllı, yarı dəli,*
*bəlkə də bütün göyüzündə*
*dünyaların ən gülməlisi, ən ağlamalısı,*
*bəlkə ən məzəlisi, bəlkə də ən gözəli.*

*Başqa göylərdən gələnlər,*
*bizdə çox gözəl insanları görsəniz,*
*vallah, geri dönməyəcəksiniz,*
*sizə bir sirr də açım:*
*bir də görəcəksiniz,*
*bu dünya ruhunuzu almış,*
*əslində elə burdakı bütün insanların ruhları da*
*bir zamanlar bu dünyaya beləcə gəlmiş,*
*elə burda da beləcə qalmış.*

## *Bu dünyanın da yaşı, heç deməynən, ancaq bircəcə anmış, o, başqa dünyadan qalmış bir ruhi dağ yanında yaranmış*

**Dünyanın dünyanı daha bir dünya boyda böyüdən yazıçılarından**
**Afaq Məsuda**

*Ancaq ruhunla bax,*
*onda görərsən, duyarsan ancaq:*
*əbədiyyətdən əbədiyyətə axır o dağ,*
*hərdən ona əbədiyyətin sahillərində*
*bir damlatək ya bir dəniz,*
*ya da bir okean ilişib qalır,*
*hərdən də indi yaşadığımız yox,*
*hərdən okeantək, dəniztək duyduğumuz*
*min illik, milyon illik ruhi ömürlərimiz.*

*Hərdən də ora əbədiyyətdən*
*Əbədiyyət Tənhası bir səs uzanır:*
*"Göyüzü, bu ruha bir yüz il də,*
*bir min il də, bir milyon il də süz,*
*o ruhasa süzmə, o ruh əbədiyyətdən də ölümsüz".*

*Anlaşılmaz bir şey yox,*
*bu dünya o dağın yanında körpəcə uşaq,*
*onun yanında bu dünyanın yaşı da*
*əslində bircəcə anmış,*
*bu dünya başqa bir dünyadan qalmış*
*görünməz bir ruhi dağ yanında yaranmış.*

## ***Dağ da, düz də, dəniz də hər an, hər gün ən gözəl şəklini  almaq istəyir Allahın***

*Hətta bizə görünən, görünməyən*
*dağ, düz, göyüzü, dəniz də*
*hər an Allahın olmaq,*
*həm Allahın, həm də onun yaratdıqlarının*
*onları ən gözəl görə biləcəyi yerlərdə yox təkcə,*
*həm də onların bütün anlarında olmaq istəyir ancaq.*

*Gözlərin ruhuna mane olur,*
*gözlərini yum, belə daha işıqlı olur,*
*ancaq ruhunla bax,*
*ancaq onda duyacaqsan bu Kainatın*
*təkcə bizə görünən tərəflərində yox,*
*həm də bütün kainatda da*
*sevənlər sevdikləriyçün*
*Allahın ən gözəl şəklini*
*almaq istəyir hər an, hər çağ.*

***Hərdən də başını kainatın bir küncünə qoymağa,***
***ordan da hər an Allahın sevgisini  duymağa,***

*Qoxlamağa ölüm yoxdu,  əbədiyyət var,*
*qalxmaq var ancaq son göyə,*
*ancaq ondan sonra qalxdığın hər göy də*
*son göy olacaq.*

*Beləcə qalx, qalx hər an yeni son göyə,*
*hərdən başını kainatın bir küncündən çıxartmağa,*
*ordan daha bir yeni əbədiyyəti də qoxlamağa,  görməyə.*

## *Diktatura, Əli, Vəli*

*Haqsız əmri*
*Əli eləməsə,*
*Vəli eləməsə,*
*ağıllı eləməsə,*
*dəli eləməsə,*
*diri eləməsə,*
*öləndən sonra da*
*ölü eləməsə,*
*haqsız əmr verənin*
*gücü yetməz*
*heç bir kəsə.*

## *Napoleonun qlobusları*

*O hələ Alp dağlarını yəhərtək*
*Avropanın belinə basıb*
*çapan kozır tuzikən,*
*çox xoruz dövlətlərin*
*xoruz krallarını fərələşdirən*
*lovğa fransız xoruzuykən,*
*atının belindən bütün dünyanı*
*teleskopsuz, durbinsiz görürkən,*
*dəli Rusiya qarışıq bütün Avropanı*
*bir böyük toyuq hini sayır,*
*dövlətləri bir hinin toyuqlarıtək*
*qabağına qatır, hala gətirirdi.*

*Ancaq qarnı qlobuslaşdıqca,*
*dünya qlobusu şəklində*
*ancaq öz qarnını görür,*
*qarın qlobusunu qucaqladıqca*
*tutduğu torpaqları –*
*qucaqladığı dünya qlobusunu itirirdi.*

## *Körpə cocuq ayaqqabısıtək əziz, öpməli, yeməli olsun dünyamız*

*"Cocuqlar ən uca bayraqdan da uca",*
*– deyə-deyə, cocuqları qaldırın göyə,*
*Endirin başqa bayraqları,*
*qaldırın göyüzütək dalğalanan cocuqları*
*bu dünyadan da, bu kainatdan da yuxarı,*
*– "Bir dalğalanan cocuq min bayraqdan da*
*daha gözəl yaraşır göyə" – deyə-deyə*
*qaldırın, qaldırın cocuqları.*

*Qoy cocuq ayaqqabısıtək əziz,*
*öpməli, yeməli olsun dünyamız,*
*qaldırın, qaldırın cocuqları*
*göyümüz, torpağımız, daşımız üstdə,*
*qoy taykeş, yeməli cocuq ayaqqabıları,*
*yeməli cocuqlar dalğalansın*
*əbədiyyət bayrağımıztək başımız üstdə.*

## ***Hər iki dünyanın ən gözəl dili, ən gözəl eli, ən gözəl gülü***

*Dünyanı əslində cocuqlar idarə edir –*
*Güney  Azərbaycanı idarə edən şeir dualı cocuqlarımıza*

*Hər iki dünyanın ən gözəl dili*
*sən danışdığın dil,*
*hər iki dünyanın ən gözəl eli*
*sən doğulduğun el,*
*hər iki dünyanın ən gözəl gülü –*
*gecə-gündüz hər an, hər an*
*sənə baxan, səni qoxlayan*
*sənin cocuq üzündən,*
*tumurcuq burnundan,*
*atlı Türk dilindən,*
*türk qoxundan doymayan gül.*

## *Tanrı Şeiritək qalx*

*Oğlum Odərə*

*Odər, Tanrı şeiritək qalx,*
*dünyaya ancaq Tanrı şeiritək bax,*
*həm də bil ancaq,*
*bu dünyaya gələn hər bir uşaq –*
*ilk addımını əvvəl göydə atır, sonra yerdə,*
*ilk addımından sevindirir göyü, yeri,*
*çünki o, Tanrı uçuşu yeriyən bir Tanrı şeiri,*
*bil, o şeirlər həm də ona görə tez-tez yıxılırlar –*
*onlara "can" deyən Tanrıyla eyni anda*
*Tanrıya "can" deyib dinsinlər,*
*həm də yıxılarkən körpə qucaqlarıyla*
*bu boyda dünyanı Tanrıtək qucaqlamağı,*
*hətta yıxılan ən uzaq dünyaları da*
*Tanrıtək göydə tutmağı da öyrənsinlər.*

***İlk, son sevgim, sevincim, dərdim hər zaman – canım bütün Türk dünyası, bütöv Azərbaycan***

*Mənim sevməlidən sevməli,*
*könül bağlamalıdan  bağlamalı,*
*uğrunda ölməlidən ölməli,*
*gülməlidən gülməli,*
*ağlamalıdan ağlamalı yurdum,*
*ilk, son sevgim, sevincim, dərdim,*
*lap dərd içində də*
*bu dünyada səndən gözəl ancaq səni gördüm.*

*Hər an, göyüzünü də aşan*
*qılıncı, oxu, yayı bizə Tanrı payı,*
*o pay hər iki dünyanın*
*ən uca ulduzuna, ayınacan,*
*həm də Azərbaycan adını çəkən an*
*hətta düşmənə də "can" dedizdirən,*
*üstəlik ona "bəy can" da yedizdirən,*
*Azərbaycan türkütək dünyada*
*"az ər" olduğunu da dadızdıran*
*o taylı, bu taylı Azərbaycan.*

## *Azərbaycan, sən məni hamıdan dəli, hamıdan suçlu, hamıdan güclü edəli*

*Sən Allahın ən sevimli,*
*ən dəli qızı Eşq sözütək,*
*sən Eşqin hər an yenidən Allaha*
*bir an öncəkindən daha gözəl,*
*daha çiçək görünən üzütək.*

*Sən balaca, körpə suların*
*yumru-yumru axmağıtək,*
*o yumruların yumrulanıb, açılıb,*
*hər an bir daha, bir daha göyə, Allaha*
*körpə su sevgisiylə baxmağıtək.*

*Sağ ol, mənim dəlidən də dəli yurdum,*
*nə  ayağın altındakı yumru torpağa,*
*nə başın üstündəki yumru göyə,*
*məndən başqa bir kimsəyə*
*aman vermədin sənə dəli deməyə,*
*sağ ol, mənim ağıllıdan ağıllı, dəlidən dəli,*
*eşqdən də eşqli yurdum.*

*Azərbaycan, mən səni elə sevdim, elə sevdim*
*hər iki dünyada bir kimsəyə nə dəlilik,*
*nə ağıl, nə də eşq qaldı sevməyə,*
*sən beləcə, məni hər iki dünyada da*
*hamıdan çox sevməkdə suçlu etdin hər an,*
*həm də hamını hamıya sevdirməkdə də*
*hər iki dünyada da hamıdan dəli,*
*hətta sevən bütün uca dəlilərdən də*
*daha qanadlı, daha güclü etdin, Azərbaycan.*

## *Türk atının mübarək yalı*

***Xəritədə Türkiyə – Avropa üzərində hər an***
***şaha qalxan Türk Atının mübarək yalı,***
***Avropa da mübarək Türk atının yalı altda***
***yarı at yəhəri, yarı at nalı***

*İstəyirsən, qalx,*
*göyüzündən bütün qitəyə bax,*
*istəyirsən, xəritəyə bax,*
*ya da könlünün gözüylə*
*göyüzünün nur düzünə,*
*nur dənizinə – qalx bax,*
*elə qalxan kimi də  görünəcək sənə:*
*Türk qılıncı düşmənə*
*daha dadlı gəlsin deyə*
*qılıncdan qabaq at nalı qoxladan Türkiyə,*
*hər zaman, hər an*
*dörd ayağını dörd dənizə qoyub,*
*Avropa göylərində şaha qalxan,*
*sıçrarkən əbədiyyəttək dalğalanan Türk atının –*
*Türk dənizinin mübarək yalıtək,*
*Avropa da Türk atının,*
*Türk dənizinin yalı altda*
*yarı at yəhəri,*
*yarı da qılınclar, qalxanlar əyən,*
*qılınclar, qalxanlar yeyən*
*hər an mübarək Türk atının*
*hər an mübarək nalıtək.*



**Hakan**

*Hər bir qəhrəmanlıq  bir Tanrı hökmü,*
*həm də bir Tanrılıq kimi*

***Qəhrəmanlıq da sevgi kimi***
***hər zaman Tanrıdan gəlir!***

*Qəhrəmanlıq da tək insandan yox,*
*sevgi kimi hər zamanTanrıdan gəlir,*
*Qəhrəmanlıq – Tanrının bir anlıq qəlbi,*
*Tanrının hökmüylə*
*bir anlıq Tanrılıq kimi!*

*Bu dünyada son anında qəhrəman*
*ancaq ona görünən görünməz göyüzündə –*
*əbədi ruh okeanında, eşq dənizində*
*heç bir cana, heç bir ruha*
*qorxu toxumu qalmasın deyə,*
*canındakı son qorxunu da son düşməntək*
*məhv edər, gedər göyə,*
*göydən də o üzə, o taya,*
*gedər, yadigar qoyub gedər*
*dünyamıza qəhrəmanlığı,*
*həm də son anında gördüyü Allaha*
*üzündəki əbədi heyranlığı.*

*Gedər, gedər qəhrəman*
*ruhunun əbədi nur çağı,*
*gedər onu göyüzünün*
*ən ulduzlu düzündə qarşılayan*
*min illərin sevgiləri,*
*min illərin igidləri,*
*min illərin şəhidləri solu, sağı.*

***Sözün insan şeirindən***
***Tanrı Şeirinə aşdığı an***

*Döz, döz, Sözsüz uçmayan,*
*Uçmağa hər an, hər zaman*
*Söz istəyən qanadım, döz,*
*Söz insan göyündən yox,*
*Tanrı göyündən qanadlanar,*
*İnsan göyündən Tanrı göyünə*
*aşdığı andan da Söz*
*Eşq dilində Göyüzü,*
*Tanrı Eşqi dilində də*
*Göyüzü Çiçəyi, Göyüzü Gülü adlanar.*

## *Cəhənnəmdə də haqq arayanlarçün canım odərlər nəğməsi*

*Şəhriyar del Geraniyə*

*Dünya, dünya, biz də varıq,*
*bizi də Tanrı yaradıb,*
*lap elə cəhənnəmdə də*
*haqq ararıq, eşq ararıq,*
*çox da ki, ayaqyalınıq,*
*ancaq özümüzü heç vaxt*
*ayaqyalın saymırıq,*
*baxın, ayaq dərimiz*
*ayaqlarımızda çarıq,*
*yeyilir, çarıq azalır,*
*demək biz varıq, azalır.*

*Çox ucalardan dönürük,*
*salavat çevirən əltək*
*göyün üzündən enirik,*
*günəş bizimlə qalanır,*
*yanıb günəşə dönürük,*
*hər an, hər an sevinirik,*
*yanımızda bir-birinə*
*sarılan dostlar, doğmalar,*
*yaramızda, canımızda*
*yanan dost qucağından*
*sarılan sarıq azalır,*
*Daha da bərk qucun, dostlar!*
*Biz yandıqca, artır işıq,*
*baxın qaranlıq sozalır,*
*demək, biz varıq, azalır.*

## *Dünyanı kişilər idarə edir, kişiləri də qadınlar*

***Bir əbədi çölün düzündə görünənlərə,***
***həm də, həm də görünməzlərə***
***əbədi Qadınlar haqqında ilk kərə***

*... həm də qadınlarda İlahidən nəsə*
*insanüstü bir qüvvə də var,*
*elə ona görə də*
*hətta dünyanı sarsıdan,*
*dünyanı qorxudan ən qəddar imperatorlar da*
*öz qadınlarından çəkiniblər çox zaman,*
*çünki qadınlar tarixdən həmişə güclü olublar,*
*həm də hər cürə tarixin bildiyindən*
*daha çox şey biliblər onlar.*

*Qadınlar həm də bu dünyaya, hətta Allaha da*
*kişilərin axıradək anlamadığı*
*nəsə bir İtaətlə də təsir edərlər,*
*həm də kişilərin heç bir zaman duymadığı*
*Allahdan gələn hansısa gizli bir qüvvəni də*
*hiss edər, duyar, anlarlar,*
*eləcə də o anlar Allaha*
*kişilərdən daha yaxın olar onlar.*

*Qadınlarda kişilərdən fərqli*
*başqa bir qüvvə də var,*
*kişilər çox zaman dünyanı,*
*qüvvəylə, güclə, qolla, qıçla,*
*həm də daha çox günahla, suçla alarlar,*
*qadınlarsa dünyanı öz zəif, zərif canlarıyla,*
*xəyaltək, kölgətək yerişləriylə,*
*Allaha daha doğma əzablarıyla,*
*Allah yanında bir an çəkən əzablı min illəriylə,*
*min illər çəkən əzablı anlarıyla qazanarlar.*

## *Bütün qadın barmaqları tikiş tikən anlarda doğmadan da doğma gəlir hətta Allaha da*

*Harda tikiş tikən qadın, qız görəndə*
*mən uşağa dönmək,*
*onların ayaqları altına yıxılmaq istəyirəm,*
*onların iynə batan barmaqlarını,*
*hətta iynələrini*
*min illərin analarının min illərdi ağrıyan*
*iynə batmış barmaqlarıtək*
*üfürüb ovutmaq istəyirəm.*

*Tikiş tikmək qədər,*
*qırılmış düyməni tikmək qədər,*
*nəyisə nəyəsə bərkitmək,*
*birləşdirmək qədər qədim duyğu yox,*
*min illərdi qızların bəyləriyçün*
*ilk hədiyyəsi onların*
*qırılmış düymələrini tikmək,*
*onları daha çox dimdik, şahanə görmək,*
*həm də heç vaxt ayrılmayan o düyməylə*
*özlərinə, ailəyə, evə daha çox bağlamaq olub.*

*Canım, gözüm, iynəm, düyməm mənim,*
*evə gələndə də bəylər*
*kəlbətinlə, çəkiclə, daşla, kərpiclə,*
*bıçaqla, gülləylə, yerlə, göylə,*
*xanımlarsa daha çox tikdikləri iynəylə,*
*bərkitdikləri düyməylə sevərlər.*

***Avropa qadınları dünyanı daha çox  öz bədənləriylə, Şərq qadınlarısa, daha çox gözləriylə devirərlər***

*Avropa qadınları dünyanı daha çox*
*öz bədənləriylə dinləyər, devirərlər,*
*Şərq qadınlarısa dünyanı*
*daha çox gözləriylə devirərlər,*
*ancaq onlar bəzən də devirib sonra sevərlər.*

*Hər iki dünya üçün də daha tez ayılar qadınlar,*
*hamını hər an sevgiyə,*
*gözəlliyə yönəldən Tanrını da onlar*
*çox anlar kişilərdən daha tez duyar, anlar,*
*elə ona görə də Tanrı*
*onu daha çox duyduqları anlarda*
*qat-qat, çin-çin gözəllik yaradar qadınlarda,*
*O Tanrı gözəlliyi anları*
*Tanrı eşqçün daha da şahanə edər onları,*
*onların çiçəktək açılan gözlərini,*
*hətta gözlərdə bir-bir tumurcuqlayıb,*
*üzlərdə eşqin gülləritək açılan göz yaşlarını da*
*eşq ətirli edər Tanrı.*

*Çünki Tanrı da daha çox sevər*
*onu gözəllikləriylə duyan ruhları, canları,*
*Tanrı eşqini duyarkən hər an canlarında,*
*ruhlarında yeni-yeni gözəlliklər açanları.*

## *Qadınlar nə istər?*

*Qadınlar nə istər?*
*Dəqiq deyə bilmərəm nə istərlər,*
*ancaq dəqiq bilirəm kişilər heç bir zaman*
*qadınların nə istədiklərini*
*anlaya bilməyəcəklər axıracan.*

*Qadınlar nə istər?*
*Onlar nə istədiklərini*
*hərdən heç özləri də dəqiq bilməzlər,*
*ancaq o dəqiq bilmədiklərini*
*bütün dəqiqlikləriylə kişilərdən istərlər.*

*Qadınlar nə istər?*
*Sevənlər hər şeyi sevdikləriyçün istər,*
*Allahçün də maraqlı olar,*
*sevdikləriçün daha nə istəyəcək onlar,*
*qadın düşüncəsi, sevgisi*
*kişi düşüncəsindən daha doğma,*
*daha maraqlı gələr Allaha.*

## *Musiqili, eşqli, çiçəkli xanım yerişlərindən, xanım ayaqlarından, xanım donlarından – xanım yarpaqlarından danışan kamançalar*

*Dünya tarixindən danışırkən*
*təkcə yazanları, yazılanları yox,*
*yazılırkən yanan şamları da xatırlayın,*
*yazanlar dünyaya daha çox öz həqiqətlərindən,*
*şamlar isə İlahi sevgidən, İlahi həqiqətdən danışıblar.*

*Dünya təkcə bir-birini sevməyən qələmlərdən,*
*bir-birinə nifrət edən dərdlərdən, qəmlərdən,*
*bir-birinin üstündən ya xətt, ya yol çəkən zamanlardan yox,*
*bir qönçə şam işığından da devrilir,*
*o anlar üzü heç gülməyəcəktək görünən adamlar*
*hər an yenidən açan mübarək şam gülünə,*
*mübarək şam çiçəyinə çevrilir.*

*Allahsızlığa dua edən dizlər min cürə,*
*Allaha dua edən dizlər bir cürə çökər,*
*Kamançalı dizlər isə çökməz, ancaq musiqiylə qatlanar,*
*sevən, dua edən dağlar,*
        *dənizlərtək qatlanıb qalxan o dizlərin,*

*o kamançaların sahillərindən Eşq*
*göylərin, göyüzü dənizlərinin sahillərinə aşar,*
*ordan da başqa dünyalara bütün zamanlar*
*ancaq, ancaq bizim dünyadakı xanım yerişlərindən,*
*yeridikcə eşqləşən, musiqiləşən xanım ayaqlarından,*
*eşqlə xışıldayan xanım donlarından,*
*hər an bahar açan xanım yarpaqlarından,*
*göyü də qanadlandıran xanım qanadlarından danışar onlar.*

## *İlahi gözəllik – gözəlliklə İlahi anların qovuşması, gözəlliyin bu dünyadan İlahi dünyaya da daşması*

*Xanımlar görünən gözəllikləriylə olduğutək
gözəlliyin canında gizlənən
görünməz, zərif diktatorluqlarıyla da çox anlar
can alarlar gizlicə,
onlar təkcə öz zərifliklərini yox,
hətta öz zəifliklərini də çevirib gücə
kişilərdən də güclü olarlar çox anlar gündüz, gecə.*

*Bu yolda qadınlarda İlahidən gələn nəsə var,
onlar kişilərdən fərqli hər nələri var hamısını,
hətta diktatorluqlarını da çiçəktək açar bütün anlar,
diktatorluğu da dünyaya gözəlliktək sevdirər onlar.*

*Tanrı yönəltmələrini də qadınlar
kişilərdən daha tez duyar, anlar,
həm də bəzi anlar özləri də bilmədən ruhi dünyalara,
ruhi aləmlərə girmiş kimi də olarlar onlar,
həm də duyarlar, elə bil orda Allahın biz duymayan,
ancaq hər an bizi duyan dünyaları, varlıqları var,
o anlar öz gözəlliklərini göyüzündən görürmüş,
bütün kainatdan duyurmuş kimi olanda,
ancaq, ancaq onda
gözəllik, sevgi sarıdan bir balaca rahat olar
heç zaman rahat olmayan xanımlar.*

***Səni o qədər, o qədər sevəcəyəm hər zaman, hər çağ,***
***əbədiyyətdən sonra da  hər zaman, hər çağ***
***şeir, sevgi qoxusu gələcək hər iki dünyadan ancaq***

*Səni  nə qədər çox sevirəmsə hər zaman,*
*o qədər də çox sevgi qoxusu duyuram dünyadan,*
*mən səni sevdikcə həm də duyuram:*
*Hətta çiçəklər, güllər açılanda,*
*sevindirəndə göyü, yeri,*
*açılma səsləri sənin ayaq səslərintək gəlir,*
*sənin ayaq səslərin,*
*yəni şeirlər şeiri – güllərin açılma,*
*şeirin ayaq səsləri.*

*Mən də o çiçəklərtək*
*səni o qədər, o qədər sevəcəyəm,*
*o çiçəklərtək elə açacağam,*
*mənim sevgimin ruhuna, tək*
*əbədiyyətdən sonra da hər an*
*hər iki dünyadan  da ancaq, ancaq, hər çağ*
*sənə yazdığım şeirlərin çiçək qoxusu,*
*sənə açdığım sevgitək*
*çiçəklərin açılış səsləri,*
*sevgimin qoxusu gələcək ancaq.*

## *Sevən, sevilən, sevdirən insanların ayaq səsləri*

*Sevən, sevdirən,*
*sevilən insanların ayaq səsləri*
*sevən, sevdirən,*
*sevilən çiçəklərin açması,*
*sevən, sevdirən,*
*sevilən duaların*
*uçması səsləritək.*

## *Sevgi necə qol-budaq atar bütün kainata*

*Hər şeyə əsəbləşən kəs,*
*bu dünya üçün deyinməyə dəyməz,*
*ömrün qurtarır, sən heç doyunca sevmədin,*
*çox azdı ömür, sevməyə tələs,*
*ölümdən də çox danışmayın,*
*biz heç dəqiq bilmirik, ölüm nədi,*
*güldü, çiçəkdi,*
*ya şirin, ya acı gerçəkdi.*

*Pis şeylərdən də çox danışmayın,*
*pisdən çox danışa-danışa*
*o adamın özündə də pis çıxır başa.*

*Sevgiyə qaçmaqdan başqa*
*körpə uşaq ayaqqabısıtək*
*mənim də vaxtım yox heç nəyə,*
*nə nifrət eləməyə, nə danışmağa boş-boş,*
*bu dünyada mənim işim təkdi, təkdi -*
*o da gecə-gündüz sevməkdi, sevməkdi.*

*Həm də tək burda yox, bütün kainatda da*
*görünən, görünməz hamını hamıya sevdirməkdi,*
*həm də duyuram hər bir sevgi*
*hər an kainata qol-budaq ata-ata*
*necə təsir edir insanlara, dağa, daşa,*
*necə təsir edir bütün kainata,*
*görünən, görünməz bütün əbədi ruhlara hətta.*

***Uçurumlartək sən də ən gözəl çiçəyi özündən uca aç, uca tut, uçurumlar uçurdantək ən uca uçuşu da öz canından uçurt, hərdən də ula, yürü əsl eşq ulartısıyçün darıxan göylərə doğru***

*Adamlar çox zaman araqdan, çaxırdan, çaydan,*
*siqaretdən, min cürə qəliz peşədən, əndişədən,*
*bəziləri də hətta narkotikdən, nəşədən keçir dünyaya,*
*mənsə bəy təhlükələrdən,*
*xan uçurumlardan eşqtək keçir,*
*o uçurumları, təhlükələri çəkir, içirəm.*

*Bu dünyada adamı ən yaxşı tanıyan da onlar,*
*keçdiyim təhlükələr, uçurumlar da bilir, bütün anlar*
*mən hamını özündən soruşmadan eşqə çevirən tək zalımam,*
*ancaq bilmirəm mәndən nədən belə doğmalıq duyur onlar,*
*deyəsən, bu zalım onlarçün həm də dəlilik əlifbasının*
*bütün hərfləriylə yeni dünya açır hər şeyi eşqə yoza-yoza,*
*şəlalərdə suların, adamların eşqtək hamıdan zalım uçmasını,*
*uçurum çiçəkləritək hamıdan zalım açmasını da*
*eşq əlifbasının ən zalım hərfləriylə yaza-yaza.*

*Sən də, sən də uçurumlartək ən eşqli çiçəyi,*
*ən eşqli sözü özündən uca aç, özündən uca tut,*
*uçurumlartək ən zalım eşqli sözü də, uçuşu da canından uçurt,*
*dağlar çiçək, göylər ulduz, şairlər söz açan, uçurdantək*
*sən də söz aç, söz uçurt, sözə dön, söztək hər an sevin, ağrı,*
*hərdən də ula, insanı həm də eşqlə ulamaqçün doğan*
*əsl eşq ulartısıyçün darıxan ulu göylərə doğru.*



**"Hocalı"**

***Əsl xanımların ayaq səsləri***
***çiçəklərin açması səsləritək,***
***onlar ayaq səsləriylə kişiləri də,***
***dünyanı da idarə edə-edə,***
***eyni anda özlərinin də idarə***
***olunmalarını istərlər həm də***

*Qadın ayaq səsləri nə deyər, nə istər?!*
*Mən ancaq deyə bilərəm, kişilər heç bir zaman*
*qadın ayaqlarının necə çiçəkləndiyini,*
*nə dediyini anlaya bilməyəcəklər axıracan,*
*bunu heç qadınlar özləri də*
*axıracan anlamazlar çox zaman.*

*Qadın ayaq səsləri nə deyər, nə istər?!*
*"Dünyanı kişilər idarə edər, kişiləri də qadınlar",*
*bu da yarımçıq sözdü, ay incəbel Badə,*
*əslində qadınlar çiçəklərin açması səslərıtək*
*eyni anda kişiləri də,dünyanı da idarə edə-edə*
*özləri də bilmədən özlərinin də*
*idarə olunmalarını istərlər həm də.*

*Qadın ayaq səsləri nə deyər, nə istər?*
*Bir cavab bütün cavabları üstələr:*
*Hər iki dünyanın ən eşqli musiqisini*
*Motsart, Bethoven barmaqları yox,*
*eşqli qadın ayaqları bəstələr.*

*Dünyada xanımlara ən uca sözü türk kişiləri deyiblər: yəni mənim "xan-ım, bəy-im". Türk qədər heç bir millət qadınları belə ucaltmayıb, elə indi də xanıma "xanım", yəni mənim "xan-ım"deyirik.*

## *Gəl bir də sevim səni yupyumru bir eşqilə*

*Sevir kimsə kimsəni*
*bir kimsənin üstünə,*
*gəl, mən də sevim səni*
*lap yepyeni,*
*yupyumru bir eşqilə*
*yenə sənin üstünə.*

*Gör, sevgi üstə sevgimi*
*eşq eşqdən baş alan kimi,*
*eşq eşqi daşıran kimi,*
*Allah da aşıran kimi*
*hər ləçəyi ləçəyin,*
*gülü gülün üstünə,*
*göyü göyün, ayı ayın,*
*günü günün üstünə.*

*Gör, quş quşa şığıyantək,*
*gül gülə sığınantək,*
*son nəğmə oxunantək*
*ilk nəğmənin üstünə.*

*Gör, ikiqat sevgidən,*
*eşqdən bu naşı da dəm,*
*gözünün yaşı da dəm,*
*ha içər, yenə də kəm*
*qəmi dəmin üstünə,*
*dəmi qəmin üstünə.*

## *Sevgidən dəli olmağa bu dünyada eşq azımış*

*Ay ürək, a baş, a bədən,*
*əl çəkin, əl çəkin məndən,*
*ancaq canım açanda,*
*canım uçanda bilirəm*
*siz varsınız,*
*bu göy, göyüzü deyilən*
*qəfəs sizdən yaxşıdı,*
*siz göydən də,*
*göyüzündən də darsınız.*

*Ancaq bu can açanda,*
*bu can uçanda bilirəm*
*nə qış qış, nə yaz yazımış,*
*sevgidən dəli olmağa*
*bu dünyada dəlilik də,*
*sevgi də, eşq də azımış.*

*Çıxıb gedirəm, gedirəm*
*bu göyüzünün altında*
*sevmədiyim bir tikan,*
*bir gül qoymaya-qoymaya,*
*gedirəm, Tanrım, gedirəm*
*daha eşqli bir dünyaya*
*eşqdən doymaya-doymaya.*

*Sevmək, sevmək, SEVMƏK həm Sultan,*
*həm də, həm də Sultan Kölətək!*

## ***Səni niyə belə sevdim?***

*Səni niyə belə sevdim,*
*belə istədim niyə,*
*canımdakı min tikana,*
*bir gülə istədim niyə?!*

*Eşqdə gizlətdim bu canı*
*görəmməyən varmı, hanı?!*
*həm gizlətdim, həm də hamı*
*bilə istədim niyə?*

*Min illərçün də Allahdan*
*gecə-gündüz, hər an, hər an*
*səni özümə həm sultan,*
*həm də, həm də*
*kölə istədim niyə?!*

*"Sözü ancaq lal dillərlə lal dillərdən alalım" silsiləsindən*

## *Biz də, biz də itək bir-birimizdə*

*Narım, gilənarım,*
*biz də, biz də*
*axaq itək bir-birimizdə,*
*axır, itir su suda,*
*torpaq torpaqda, ot otda,*
*göy göydə, bulut bulutda,*
*ləçəklər ləçəklərin,*
*güllər güllərin altda*
*öpüşlər öpüşlərin,*
*tellər tellərin altda.*

*Qolların quca çağında,*
*dillərin beçə çağında,*
*yanağında, dodağında*
*ballar balların üstdə,*
*ballar balların altda.*

*Bir min il də sarılalım,*
*bir min il də lal olalım,*
*sözü ancaq lal dillərlə*
*lal dillərdən alalım*
*dillər dillərin üstdə,*
*dillər dillərin altda.*

*Yer də göyün yarıdı,*
*eşqi, yağışı, qarıdı,*
*hər iki dünyada da*
*ancaq eşqə sarıdı*
*yollar yolların üstdə,*
*yollar yolların altda.*

## *Deyən, lap çox sevişdik*

*Bu qədər sevgimi olar?!*
*deyən, lap çox sevişdik,*
*bəsdi, ayrılaq  səninlə,*
*daha hərə özü olsun,*
*sıyrıl, sıyrılaq səninlə.*

*Min ildi bir olduğumuz,*
*dünyadan ayrıldığımız*
*bəsdi, bir sayıldığımız.*
*iki sayılaq səninlə.*

*Tanrımız göndərən kimi*
*bir can iki bədən kimi,*
*bir pis yuxu görən kimi*
*birdən ayılaq səninlə.*

*Ayılaq görək yuxudan*
*ayrıdı bu can o candan,*
*qaçıb, qucub qoxlaşan an*
*bir də bayılaq səninlə.*

*"Sən bağlayan göyün, yerin, pəncərənin" silsiləsindən*

### ***Sən bağlayan pəncərənin bir dön bəri bax, yeri var***

*Xan ceyranın qaçışında,*
*Ən şəhanə uçuşunda,*
*ya alnında, ya döşündə*
*bir ox yeri var, yeri var.*

*Qalmısan şahlıq atında,*
*göyün yeddinci qatında,*
*hər bəyaz telin altında*
*bir ah yeri var, yeri var.*

*Ən kimsəsiz küçə sənin,*
*küçə sənin, gecə mənim,*
*sən bağlayan pəncərənin*
*bir dön bəri bax, yeri var.*

## *Şahənşah, sultan öpüşlər, kraliça, kral dodaqlar*

*Neçə gün öncə Böyük Britaniyada toy-düyündü,
bütün dünya krallıq vəliəhdinin
toy mərasimindən danışırdı neçə gündü,
adi adamlar kral toydan danışa-danışa coşur,
coşduqca bir az da rəiyyətləşir,
həm də o an sanki özü-özünü aşır,
danışa-danışa elə bil bir az da krallaşırdı.
Heç şübhəsiz kral mərasiminin şah nöqtəsi –
gələcək kralla kraliçanın öpüşməsi,
kral, kraliça əmrləri verəcək dillərin, dodaqların
bütün dünyanın gözü önündə tapışması!
Dünya gördü, bütün adi adamlar kimi
öpüşürkən kralla kraliçanın da gözləri yumulu,
gözləri yummaq əmrini onlara Eşq vermiş, Eşq yapmış,
o an o əmrə tabe dodaqlar gözüyumulu bir-birini tapmış.
Krallıq qanunlarıyla kral, kraliça olmasalar da onlar,
bütün qanunlardan üstün Eşq qanunlarıyla
elə öpüşdükləri anlar
bütün dünyada eşqlə öpüşənlərin hamısıtək
eşqin gözləri yumuq kralı, kraliçası oldular onlar.
"Yaşasın gələcək kral, kraliça!" – deyir hamı,
mən də soruşuram: – "Niyə gələcək?
Eşqlə öpüşdükləri o mübarək, gözü yumuq anlar
öpüşməkəriylə artıq daha üstün kral, kraliçaydılar onlar!
Deyirəm, "Yaşasın bütün qaydalardan, qurallardan,
bütün şahlardan, krallardan da yuxarıda duran,
bir-birinə "Gözüyumulu məni tap, öp" – deyən,
bir-birini gözüyumulu tapan, öpən lal, bal dodaqlar,
şahənşah, sultan öpüşlər, kraliça, kral dodaqlar.*

## *Bu dünyadan sənin qoxun gəlir*

*Sevgi sözünü yazıram,*
*sevgi sözündən sənin qoxun gəlir,*
*Vətən sözünü yazıram,*
*Vətən sözündən sənin qoxun gəlir,*
*su yazıram, od yazıram, torpaq yazıram,*
*sudan da, oddan da,*
*torpaqdan da sənin qoxun gəlir,*
*mən bu dünyadan getmərəm,*
*bu dünyadan sənin qoxun gəlir.*

## *O – bir quş dimdiyində sevişən iki çəyirtkəydi*

*Qəmdən heç zaman qəmlənməyən*
*o adam hər an, hər an*
*"Xoşbəxt olun" – deyirdi hamıya,*
*"Xoşbəxt olun"- deyirdi,*
*xoşbəxtlik diləyirdi,*
*həm də baş əyirdi hamıya,*
*həm də Allah verən hər paya –*
*günəşə, aya, qara, yağışa, dənizə, çaya.*

*"Xoşbəxt olun" – deyirdi,*
*dönə-dönə baş əyirdi*
*elə ilk baxışdan*
*bir-birinə vurulan hər oğlana, hər qıza,*
*ilk baxışdan*
*bir-birini istəyən itə, pişiyə, qurda, quzuya.*

*O, gecə-gündüz, gündüz-gecə,*
*hamıya "Xoşbəxt olun" – deyirdi,*
*xoşbəxtlik diləyirdi,*
*heç zaman əyilməyən başını*
*ancaq xoşbəxtliyə əyirdi.*

*"Bu dünyaya ancaq sizə baş əyməkçün,*
*Xoşbəxt olun – deməkçün gəldim" –,*
*dedi o son günündə*
*göydə bir quş dimdiyində*
*tanış olub sevişən*
*iki körpə çəyirtkəyə,*
*iki körpə ruzuya.*




**"Qobustanlılar - 4"**

***Sevirsənsə, dahisən! Əslində sevənlər hamısı dahi, hamını hamıya sevdirənlərsə, dahilər dahisi***

*Mən başqa bir göyüzü görmüşəm,*
*orda kimsə kimisə sevmir tək,*
*həm də hamı hamını sevdirir,*
*hamı hamıyçün sevgi çöpləri yığır,*
*yığır, aparır, sevgi yuvası qurur,*
*həm də hamı o yuvanın yanında*
*tək ayağı üstdə yox, kirpikləri, gözləri,*
*hətta baxışları üstdə durur.*

*Gəlin biz də əvvəl dua edək Allaha*
*sevənlərin, sevdirənlərin o göyüzü adına,*
*hamının həm kirpiyi,*
*həm də baxışları, gözü üstdə,*
*həm də eşq közü üstdə durmasıyçün*
*Tanrımız bu göyüzünün altını da ya göndərsin,*
*ya da döndərsin o göyüzünün altına.*

## *Xumarlanan xurmalar*

*Günəşin nəfəsi bir az, bir az,*
*hərdən aşkara,*
*çox zaman da yarı gizlicə*
*dəyir onlara*
*həm nazlanır,*
*həm də yanır,*
*yarıçılpaq budaqlarda*
*xumarlanır xurmalar.*

*Hamısı bir yerdə,*
*bir taledə görünürkən,*
*əslində hər biri öz eşqinin*
*gücündən yalqız, tənha, tək,*
*həm də çılpaq olduqlarıyçün*
*həyadan titrək,*
*hələ heç bir barmaq nəfəsi nədi,*
*hətta heç bir yarpaq nəfəsi dəyməmiş*
*gözüyumulu, utancaq*
  *qız şamamalarıtək.*

**_Bu dünyada o nə eşq idi, o nə sevgiydi, hardan gəldi, hər iki dünyada bunu ancaq çiçəklər, güllər bildi_**

*O nə eşq idi bircəcə anda*
*hər iki dünyadan ucada açdı,*
*bir şanda – iki bal canda,*
*hamını hamıdan çox sevən,*
*heç vaxt "sevirəm" deməmiş*
*iki şam qocada açdı.*

*Ən qədim Eşqi də şamlar*
*həm də hər an təzə bilər,*
*o eşqin göz yaşını da*
*kirpiklər, gözlər incidər,*
*ən eşqli şamlar şamgüllə,*
*ən eşqli göylər şamgöylə silər.*

*Ta şamgül, qəmgül açma, Eşq,*
*qəm onlarla da gülmədi,*
*ancaq bildi, tək güllə yox,*
*şamla da, qəmlə də heç kim*
*mənim qədər sevmədi,*
*sənin qədər sevilmədi.*

## *Ram olunanlar, olunmazlar*

*Ən ram olunmaz kişi*
*hər an ram edə biləcəyi*
*beləcə özü də duymadan,*
*həm də onu ram edəcək qadını axtarır hər an,*
*əlbəttə, bu dünyada, hər küçədə, hər tində*
*elə qadın tapılmır,*
*qalır bu dünyanın uzantısı dünyalar,*
*elə o qadın da onuntək*
*hansı dünyadasa onu ram edəcək*
*ram olunmaz kişi həsrətində.*

***Ey Əbədiyyət, mən indi duyuram biz duyan əbədiyyət sən deyilmişsən, o əbədiyyət bir anmış ancaq***

*Mənsə səni*
*əbədi şeirə çevirmək istəyirdim*
*hər an, hər çağ, Əbədiyyət,*
*bəlkə də sənə gülməli gəldi bu,*
*çox anların səni yıxmaq istəyəndə*
*mən səni o anlardan qoruyurdum.*

*Hamı sənə qoca dünya desə də,*
*mən səni əbədi gənc bilirdim,*
*həm də duyurdum, yaman darıxırsan,*
*səni darıxmaqdan qurtarmağa*
*mən bacaran bircə şey vardı ancaq –*
*şeirə çevirmək səni.*

*Çünki mən səni daha çox*
*söz kimi duydum,*
*Əbədiyyət, hər zaman, hər çağ,*
*hər zaman, hər çağ səni əbədi sevgi şeirinə,*
*hər cür əbədiyyətlərdən də çox yaşayacaq*
*sevgi sözünə çevirmək istədim ancaq.*

***Bu şeir şairin həm ilk, həm də son fərmanı –***
***o üç sözdən başqa bütün dillərdə***
***bütün sözlərə qadağanın gəldi zamanı***

*Sevgidən başqa həvəs yox heç nəyə,*
*həvəsim ancaq hər an Vətənə, yerə, göyə*
*"mən səni sevirəm" deməyə,*
*bu dünyada hamını, hər şeyi*
*eşqgülə, eşqçiçəyə çevirməyə.*

*Bu dünyada – bu İlahi eşq, İlahi söz bağçasında*
*hər an yenidən doğulan üç gül var,*
*həm də o üç güllə yenidən doğulan üç söz. –*
*həm də o üç sözdən doğulan bircə dil var,*
*"mən səni sevirəm" dili,*
*elə decək də" mən səni sevirəm" gülünə dönəcək.*

*Tanrı o dili – o gülü açan andan,*
*hər an ancaq o üç sözçün doğulmaq,*
*o üç sözçün daha gözəl şəkil almaq,*
*hər an o üç sözün lalı,*
*hər an o üç sözün balı olmaq istədik ancaq.*

*Həm də hər an ha axtardıq,*
*ha axtardıq, ha aradıq,*
*dördük bu dünyada, artıq,*
*o üç sehrli, o üç eşqli*
*o üç dəli sözdən başqa*
*qalan bütün sözlər artıq.*

## ***Bu dünyada heç sevilməyənlər yox, sevildiyini bilməyənlər var ancaq***

*Heç sevilməyən, heç sevilməyəcək, unudulacaq*
*tək bir kimsə yox bu dünyada,*
*sevildiyini duymayanlar, bilməyənlər var ancaq.*

*Həm də illərdən bəri heç sevilməyəcəyini düşünənləri*
*elə  belə düşündükləriçün sevənlər olub hətta,*
*bilin, hər an kimsə sizi sevə-sevə, sizi düşünə-düşünə*
*sizə doğru yol gəlir, qarşınıza çıxır hər gün dönə-dönə.*

*Heç sevilmədiyini, sevilməyəcəyini düşünənlər,*
*Bəs sizi heç görmədən ancaq görürmüş kimi*
*gecə-gündüz hər an sizə doğru gələnlər?!*
*Sizi hər an göz önünə gətirib, gözləri gülənlər?!*

*Siz də, siz də "məni də axtarırlar" deməsəniz,*
*hər an onları düşünüb, gülümsəməsiniz,*
*görən anda sizi necə tanıyar günəş, ulduzlar, ay?*
*Deyin, gülün, gülümsəyin, hər an, hər dəm,*
*Lap dərsdəki uşaqlartək əlinizi göyə qaldırın:*
*- Siz məni axtarırsınız, axtardığınız mənəm!*

*Baxın, baxın Günəş də bulud dalından sizi arayır,*
*buludları gücla yaran Ay da, ulduzlar da sizi gəzir,*
*həm də sizi gəzənlərə sizin yerinizi göstərir onlar,*
*Siz də hər an onları görürmüştək gülümsəyin,*
*"məni axtarırlar, məni indicə tapacaqlar", deyin,*
*deyin, sizin yerinizi göstərənləri də sevindirin,*
*hər gecə yatanda da aya, ulduza, göyə deyin:*
*"aşiqləri bir-birinə göstərən  günəş, ay, ulduz,*
*bəsdi, yoruldunuz, əzizlərimiz, siz də gedin yatın,*
*ruhun ruhla, canın canla tapışdığı bir sabah,*
*lap elə bu sabah siz də aradığınızı taparsınız."*

***Tumurcuqlayıb qanad aça-aça, eşq aça-aça səndən şeir qoxusu, eşq qoxusu gəlir ancaq***

*Külək də səni sevir,*
*yoxsa saçını bu cür dalğalandırmaz,*
*səni dənizə, saçını dalğalara döndərməzdi.*

*Yağış da səni sevir,*
*yoxsa o hamını isladıb,*
*təkcə sənin saçında şeirə dönməzdi,*
*Bəlkə də xoş getməz Allaha,*
*Allahım, sevgidən gözəl,*
*bu dünyada başqa nə var daha?!*
*Həm də ömür o qədər qısa,*
*vaxt, zaman o qədər dar,*
*bu dünyada ancaq sevməyə çatar.*

*Mən də səni sevirəm,*
*həm də nə qədər çox sevirəmsə,*
*o qədər də eşq qoxusu keçir*
*göydən göyə, ulduzdan ulduza uça-uça,*
*göyləri eşq budaqlarıtək ata-ata,*
*ulduzları eşq çiçəkləritək aça-aça.*

## *Şeir – həm də Sözün ən çox sevdiyi, ən çox sevindiyi Göyüzü budağı*

*Bu dünyada gözəl hər nə varsa, hamısı şeir, şeir, şeir!*

*Kitablar bəndənin sevgisini Allaha, Allahın sevgisini bəndəyə çatdırmaqçün gecə-gündüz hər an açılıb göyə, kainata baxan çiçəklərtək hər an yenidən açılır, yenidən qapanır, onlardan hətta qapananda da sözün, sevginin, göyün, kainatın ətri gəlir.*

*Ruhum, kainatı keçərkən bütün kainatdan söz, şeir qoxusu gəldiyini duydunmu hər bir sözdən, şeirdən, kitabdan keçərkən kainat qoxusu duyduğuntək?!*

## *Söz və sevgi Allahın insana iki ən böyük hədiyyəsi*

***Hər sevgi, hər söz ayrıca bir şeir,***
***hər sevdirən şair bir imperator***

*Hər söz ayrıca bir şeir,*
*hər sevdirən şair bir imperator,*
*hər antişair, antişeir bir şər.*

*Mən bu dünyada*
*hamıdan çox sözü sevdim,*
*xətrinizə dəysə, məni qınamayın, şeirlər,*
*mənimçün şeirlə söz eynidi, birdi,*
*hər bir söz mənimçün ayrıca bir şeirdi.*

*Lap əli, qolu hamıdan güclü Amerikada da,*
*danışan ağzı, dili hamıdan çox Çində də,*
*sözləri ən rahat, ən gözəl biçimdə –*
*yana-yana can-cana düzmək,*
*min illik şərabtək ürək piyalələrə süzmək,*
*sonra tərifdən sərxoş bütün şahları,*

*hakimiyyətdən  sərxoş bütün hökumətləri devirmək,*
*bütün gözəl sözlərə yerüzündə də göyüzündəkitək*
*hamını hamıya sevdirən əbədi imperatorluq vermək.*

*Gəlin, gəlin, ruhun canı,*
*ruhun qanadı, qanı sözlər,*
*bilin, biz şairlər gəldik, getdik,*
*sizin hamınızı da ancaq biz*
*bu dünya deyilən ilk, son eşqə*
*əbədi gül, əbədi qul, əbədi imperator etdik.*

## *Ən böyük sevgi*

*Bu dünyada ən böyük sevgi*
*Tanrının dünyaya sevgisitək  tək –*
*Bu, elə sevmək, elə sevmək ki,*
*sevginlə həm də hamını*
*hamıya sevdirmək demək!*

## *Göz dili – Tanrı dili*

*Gün gələcək,*
*heç kim heç kimlə*
*heç bir dildə danışmayacaq,*
*gözlər danışacaq ancaq*
*dünyanın dildən qabaqkı dilində –*
*ən qədim göz dilində.*

*Əslində Allah baxmaqdan daha çox,*
*dilin deyib korladığı sözləri*
*daha gözəl deməkçün yaradıb gözləri.*

## *Çiçək kimi düşünə-düşünə insanın çiçəyə çevrilməsi*

*O heç bir vaxt bilməyəcəkdi*
*bu qədər yaxına gəlib Göyüzü niyə,*
*ancaq göyə baxmaqdan doymurdu,*
*həm də elə bil nəsə qoymurdu,*
*çox baxa bilmirdi göyə.*
*Nəsə başqa bir şey haqda*
*düşünməyi suç bilirdi,*
*həm də hey düşünürdü hər gün*
*göyüzündə yeni bir gültək,*
*eşqtək açılan bu göy hansı gülün?!*

*O bunları insan kimi*
*heç zaman bilməyəcəkdi,*
*çünki daha insantək yox,*
*çiçək kimi düşünürdü,*
*hər an, hər an yerüzünün, göyüzünün*
*ən gözəl çiçəyini, sözünü*
*açacaq şəklə düşürdü.*

### *Tək bizim bu tənha çiçək dünyamıza yox, tək, onun ekiz tayı kainatımıza da dua etmək gərək*

*Hər iki dünyada da*
*dua edənlər gözlərini yumub*
*Tanrıya tutar üzünü,*
*dua edərkən Tanrı yanında,*
*həm də göyüzündə duyar özünü,*
*o anlar onlara, həm də*
*bütün kainat kişilərinə xorla, ya tək-tək*
*bütün kainat xanımları önündə dua edəntək*
*tək bu dünyaya yox,*
*bizim bu kainatın ekiz tayı*
*başqa bir kainata da dua etmək gərək,*
*hər şeyi bu dünyada cüt yaradıb Tanrı,*
*dua edək, dua edək*
*hər ikisinə həm bir yerdə, həm də tək-tək.*



**"Üçüncü yüz yıl"**

## *Tanrı hər an bütün bilmədiklərimizi bir-bir çatdırır bizə*

*Əslində bütün insanlar, hətta ən küt saydığımız adamlar da ağızlarını açanda, min dəfə dediyini təkrarlayanda da, yeni nəsə deyirlər. Əsas hər bir insanın danışığında Tanrının dediyini duymaqdır.*

*Beləcə də Tanrı hamıyla, hamının diliylə hər an nəsə bilmədiyimizi, bir yenini çatdırır bizə. Sadəcə, həm də Tanrını Tanrı bizi dinləyəntək dinləmək gərək, duymaq gərək, ey Tanrı balaları.*

***Dünya yaranandan yaşlılarla***
***cocuqlar arasında dava-dalaş səsi –***
***əslində bu, tarixin ən qədim,***
***tarixdən də uzun müharibəsi***

*Bu tarix uşaqlar, coğrafiya uşaqlar,*
*gec-tez, bütün hakimiyyətləri,*
*bütün tarixləri, coğrafiyaları alacaqlar,*
*elə indi də əslində hər yerdə*
*bütün zamanlardakıtək əsl hakimiyyət onlarda.*

*Dünyanı cocuqlar ala bilməsə də ancaq*
*gec-tez cocuq arzular alacaq,*
*dünyada o anlar, o zamanlar,*
*əsl prezidentlər, əsl sultanlar, şahlar*
*onlar olacaq ancaq.*
*Beləcə, dünya yaranandan hər an*
*yaşlı ürəklərlə cocuq ürəklər arasında*
*gizli müharibə gedir tarixin hər əsrində,*
*cocuqları böyüklərə tabe etdirmək cəhdləri –*
*tarixin heç zaman bitməyəcək*
*tək dünya müharibəsi əslində*

## *Elə yarı ağıllı, yarı dəli tarixin taxtında da ancaq, ancaq, ancaq yarı ağıllı, yarı dəli biri oturacaq*

*Çox vaxt tək dəlilər yox,
elə ağıllılar da dəlilik edər,
hətta bəzən dəlilərdən də çox,
çünki dəlilik də ağıllılıq qədər həyatda
hər an hər bir insanın ruhunda, canında,
bəziləri dəliliklə uzun illər gənc qalar hətta.*

*Bir də ki, kim dəlilik eləməyib sevgisində,
hərdən nəsə dəlilik eləməsə,
heç xoşuna gəlməz sevgilisinin də.*

*İstəsən, tarixdən soruş, çox şərəfli dəliliklər,
çox şanlı dəli anlar da tarixdə bir gerçək,
o dəli anlar, kim daha çox ağıllıysa yox tək,
həm də ağıllı olduğu qədər də dəliysə ancaq,
tarixin dəli, hətta ən ağıllı dolaylarında da daha haqq.*

*Elə yarı ağıllı, yarı dəli hər bir ölkənin də,
yarı ağıllı, yarı dəli tarixində  də o çağ
o taxtda da o çağa bənzər,
yarı ağıllı, yarı dəli biri oturacaq,
o andan elə hamını da, elə tarixi də
tarixin dədə-baba örüşlərində
o yarı ağıllı, o yarı dəli otaracaq.*

## *Adamlar hamıdan əziz pulları sayır, pullar da ən əziz qulları – adamları*

*Adamların ən çox nə dərdi var?!*
*Kimi gül dərəntək dərd,*
*kimi də tikan dərəntək*
*adam dərdindən də sevinc dərir.*

*Çox pul dərmək eşqi də*
*çoxunu aşıb daşdırır,*
*hətta coşub deyirlər,*
*o eşqi, o pulları*
*ən qoca adama ver,*
*gör o qocanı necə cavanlaşdırır.*

*Deyirlər, bax, bax, pulları görən əllər də,*
*saymağı sevən barmaqlar da sevinir,*
*ancaq adamlar pulları saydıqca,*
*o pullar da pul sayan adamları elə bil,*
*onlardan da böyük ləzzətlə*
*ən əziz qullarıtək sayır bir-bir.*

## *Tanrım, əzabı qıymırsan heç bir fikrə, heç bir sözə*

*Tanrım, özün duydurdun bu sirri, –*
*hər alın yazısı bir Tanrı şeiri,*
*hər alın yazısı bir Tanrı şeiri.*

*Həm də duydurdun,*
*bəndələrə yazdırdığın sevincə*
*bəndədən də çox sevinirsən özün,*
*bilirəm, İlahi sevinci belə ola bilər ancaq –*
*sevindirdiyi bəndədən*
*daha çox sevinir Tanrı özü,*
*Duyuram, qazandığımız əzab da yenə*
*bizdən çox əzab verir Sənin özünə.*

*Həm də sözlərə əzab verəndə duyuram,*
*o an sözdən çox, əzab veririk Sənin özünə,*
*duyuram, sən tək insanlara yox,*
*əzabı qıymırsan, hətta heç bir fikrə, sözə,*
*həm də o fikirləri, sözləri*
*dünyanın ən gözəl, ən dadlı əzablarıyla*
*əzabsız yazdıra-yazdıra bizə.*

***Bu dünyadan başqa dünyaya keçən anda da boy sırası gedən qardaş dağlara görüş vaxtını ver min il sonraya***

*Səni gözləməkdə göyüzündə Vaxt,*
*"Vaxt" – decək canının əqrəblərinə,*
*canının qoluna, budağına bax,*
*qonşu çəpərini aşıb keçəntək*
*qonşu göyü aşan ayağına bax,*
*hər iki dünyada səni izləyən*
*bütün ulduzlara, göylərə, aya,*
*dünyadan dünyaya keçən anda da*
*boy sırası gedən qardaş dağlara*
*görüş vaxtını ver min boy sonraya.*

*Bax, bax, bax, dağ axır, bax, bax, düz axır,*
*yer axır, göy axır, sən də, sən də ax,*
*bütün kainattək durma bir an da,*
*ayağın altından sürüşkən, çılpaq*
*bir göy daşı kimi Yer qaçanda da,*
*son dam örtüyütək Göy düşəndə də,*
*lap yetmiş yetişib, yüz aşanda da*
*özünü özündən qabaqda gözlə,*
*bütün ulduzlara, günəşə, aya,*
*görüş vaxtını ver min göy sonraya.*

*Ayaqla düşünər min illər bəşər,*
*sevdiklərini də tapdayıb sevər,*
*sən də tapdalansan, lap aşağı bax,*
*hamı düşünəntək lap ucada yox,*
*lap ən aşağıda ən uca haqq da,*
*Anasu da orda, Anatorpaq da,*
*sutək, torpaqtək ol, anlarsan belə –*
*elə sən özünsən əbədiyyət də,*
*həyatın həmişə qabaqda hələ.*

## *Dünyanın ən böyük şənlik, ən böyük xoşbəxtlik anı*

*Dünyanın ən kədərli,*
*ən qəmli adamı*
*diz çöküb taleyinin bir küncündə*
*dünyanın ən xoşbəxt, ən şad,*
*ən şən şeirini yazır,*
*əslində bu an elə həqiqətən də*
*onun  ürəyi, canı –*
*bütün kədərlərdən, qəmlərdən yuxarı,*
*bu dünyada həqiqətin ən böyük xoşbəxtlik,*
*ən böyük şənlik anı.*

***Min bir ümidi öz-özünü edam edən, ümid qəbiristanlığına dönən adam***

*Hər bir acizliyin canından*
*onun heç zaman yaxın qoymadığı*
*min bir igidlik acıq eləyib gedər,*
*gedər həm də o can olduğu hər yerdən,*
*elə gedər, elə gedər*
*min bir ümidi də intihar edən*
*ümid qəbristanlığına dönər*
*o adam, o bədən.*

*Tanrım, kömək elə bu kainata da*
*Ümid qəbristanlığına dönməkdə*
*yeni bir kainat bəndən!*

***Allah hamını adam özü istədiyi xoşbəxtlikdən daha böyük xoşbəxtlik üçün yaradır***

*Hamı gültək Allahın ovcunda açır,*
*göyüzütək Allahın ovcunda uçur.*

*Beləcə, beləcə,*
*Allah hamını olduğundan daha gözəl görünmək,*
*danışa bildiyindən daha ağıllı danışmaq,*
*sevə bildiyindən daha çox sevmək,*
*uça biləcəyindən daha çox uçmaq,*
*aça biləcəyindən daha çox açmaq,*
*həm də xoşbəxt ola biləcəyindən*
*daha çox xoşbəxt olmaq üçün yaradır.*

***Odər sənə o qədər şeir çiçəyi açacaq, eşq açacaq,***
***hər an təzəcə açmış şeir qoxusu, söz qoxusu,***
***eşq qoxusu gələcək hər iki dünyadan ancaq***

*Bu şəhərdən hərdən sevgi qoxusu gəlir,*
*hərdən də ayrılıq,*
*bir kimsə bilməsə də,*
*bu şəhərə aşiq küləklər bilir bunu,*
*bunu bildikləriyçün də çox anlar*
*daha çox sevgi  həyəcanından əsir onlar.*

*Ancaq eşqdən dalğalanan göyüzü də,*
*göyüzündə dalğalana-dalğalana*
*dünyadakı bütün sözləri ən sonu*
*Allah sözünə çevirən dualar da*
*hamıdan yaxşı bilirlər bunu.*

*O anlar həm də bilirlər onlar,*
*bir divanə o qədər şeir açacaq, eşq açacaq,*
*hər an təzəcə açmış şeir qoxusu,*
*təzəcə açmış eşq qoxusu gələcək,*
*hətta qiyamət günündən sonra da*
*hər iki dünyadan ancaq.*

## *Hamı sevindikcə Allah sevindiyindən ağlayır*

*Allah istəyir tək o yox,*
*həm də bütün varlıqlar hər an ancaq*
*dünyanı sevgiylə dindirsinlər –*
*beləcə hər an Allahı da, sevgini də sevindirsinlər.*
*Beləcə hər qapı, pəncərə açıldıqca,*
*Can deyən dillər, dillərdəki ballar sevinir,*
*sevgiyə qaçan bal ayaqlar açıldıqca,*
*cığırlar, yollar sevinir,*
*bal adamlar açıldıqca,*
*qanad açan canlar, qollar sevinir,*
*bal qollar, qanadlar, qucaqlar açıldıqca,*
*qucaqlaşan göylər sevinir.*

*Ən ağır ahlar ürəkdən,*
*ən ağır göz yaşları gözlərdən qopan an*
*ən qəmli, ən sevimli varlıq da –*
*Allah da hamının göz yaşlarını öpür bir-bir,*
*bütün göz yaşlarının da üzü gülür.*

*Allah ancaq o bircəcə an, bircəcə an,*
*qəlbinin pəncərələrini dünyaya bağlayır,*
*o an hamı sevindikcə,*
*hamı hamını hamıya sevdirdikcə*
*Allah sevindiyindən ağlayır.*

## *Bu dünya – ən gülməli, ən yeməli, ən sevməli sual*

***Dünyanın ilk Sözünü o, çoxdan demiş yerə, göyə:***
***Bu dünyada ancaq sual var, cavab yox heç nəyə***

*"Hər bir adamın tək-tənhalığı həm özünə,*
*həm də dünyaya gülməkçün",*
*deyib tək-tənha öz-özünə*
*həm də üzü göyüzünə gülən adam,*
*deyəsən, dünya yenə*
*ən çox da dərdləriylə gülməli gəlir sənə,*
*hətta bu dünyatək tənha bu şair də*
*canındakı qələmlə, canındakı qəmlə də gülməli yenə.*

*Bütün gülməlilərdən həm də lap aşağıdasa,*
*dünyanın ən gülməli şairi,*
*hər gün canındakı gülməli yeni bir dərdə –*
*bir gülməli sual tapa bilmirdi heç bir yerdə,*
*soruşanda da deyirdi,*
*bu dünyada heç bir suala cavab yox,*
*sual var ancaq.*

*Həm də bütün suallar da cavab verməkçün yox,*
*gülməkçün ancaq:*
*ağlayanlar, siz də gəlin bütün suallara gülək bir yerdə,*
*elə birinci də*
*dünya deyilən bu ən gülməli, ən yeməli suala,*
*bu ən gülməli, ən yeməli sevincə,*
*bu ən gülməli, ən yeməli,*
*eşqlə, sevgiylə ən çəkməli dərdə.*

## *Böyük Göyüzünün bükümləri arasında hər an varkən, həm də hər an yox oluram*

*Rus işğalı dövründə özləri, canları, ruhları göyüzündə dalğalanıb sonralar dalğalanacaq bayrağımıza göy açanlara*

*Mən min illərin eşq göylərinə qalxırkən,*
*göyün eşq dağlarının ən sıldırımlı yoxuşlarına*
*ən rahat enişlərtək axırkən,*
*o sıldırımları, uçurumları da qanadlandırıb*
*uçuşlarına qardaş uçuşlarıtək baxırkən,*
*yetmiş il göyüzümüzə həsrət bayrağımızın*
*ancaq onu sevənlərə görünən göyüzünü*
*hər an daha çox bizimki etdiyi zamanlarda,*
*hər iki dünyanı Allahın ikiqat sevgisi,*
*Allahın iç-içə iki qucağıtək duyduğum anlarda*
*mən də o göyüzünə yıxılıram,*
*onun görünməyən bükümləri arasında*
*o bayrağın ruhutək hər an varkən,*
*həm də hər an yox oluram.*

## *Göyüzü sahillərində min illər qəmli qalmış sözlər*

***Şair ruhu həm göyüzü, həm də İlahi söz sahillərində min illər qəmli qalmış sözləri də sevdirməyə, sevindirməyə çalışır. Əslində şeir – sözlərin ən çox xoşbəxt olduqları, sevindikləri yerdir, daha doğrusu, yergöydür.***

*Mən uşaqlıqda sözlərin çoxunun adamlar kimi çox qəmli, fikirli olduqlarını duyurdum. Gecə-gündüz onları qəmdən xilas eləmək haqqında düşünürdüm. Elə bilirdim sözləri qəmdən xilas eləmək həm də dərdli, qəmli ürəkləri, adamları, torpaqları, suları qəmdən xilas eləməyə səbəb olacaq. Əslində, həqiqətən də elədir.*
*İndi hərdən düşünürəm, heç bir uşaq həqiqəti elə-belə yaranmır, həmişə nəsə bir İlahi həqiqətin işarəsi olur.*
*Sonralar sözləri qəmdən xilas eləməyin ən gözəl yolunun həm də onları şeirə çevirib şeirin ruhuyla sevindirmək olduğunu da anladım. Çünki şeir – təklikdən, tənhalıqdan, həssas olmayan ifadə etmədən əzab şəkən sözlərin ən gözəl qurtuluşu, ən eşqli şəkildə Tanrıya doğru uçuşudur. Həm də şeir sözlərin ən çox xoşbəxt olduğu yerdir, daha doğrusu, yergöydür.*

*Tale elə gətirdi ki, mən, bəlkə, özümdən xəbərsiz də bu dünyadan İlahiyə doğru yol ararkən bütün Tanrı bəndələritək özümün də sözlərin, duyğuların gəlib keçdiyi kiçicik bir yol olduğumu anladım. Anladım, əsl şairlər, yazıçıların hətta eşqdən, sevgidən başqa söz bilməyən, duymayan aşiqlərin özləri əslində əbədiyyətə, Tanrıya yol arayan sözlərin əbədiyyət yoluna, Tanrı yoluna çevrilirlər – əbədiyyətə, Tanrıya doğru gedən sözlər ən xoşbəxt, ən eşqli keçidlərini o eşqli ürəklərdən salırlar.*
*Əbədiyyətə axan eşqlərə sonsuz ürəklərdə sonsuz sahillər!*

## *Ağaclar, dağlar, düzlər, dənizlər də yorulur adamlardan*

*Hər səhər, axşam*
*bu şəhərin ağrıyan tikanları, kolları,*
*gülləri başına o qədər fırlanmışam,*
*daha dinmirlər, deyən, daha ağrımırlar,*
*ya da məni görməkdən beziblər,*
*ancaq sağ olsunlar yenə,*
*neçə illər bir söz demədən dözüblər mənə.*

*Adamlar eyni mənzərədən yorulduğutək*
*kollar, ağaclar,cığırlar, hətta bütöv mənzərələr,*
*dənizlər, göylər də yorulur eyni adamlardan,*
*təzədən görüb sevinməyə zaman gərək.*

*Hardasa başqa ağaclar, kollar, sular da*
*yorulublar hər gün gördükləri üzdən, gözdən,*
*ora getsəm, hətta mənim üzümü, gözümü*
*min il qabaqkı üz – göz kimi yox,*
*təp-təzə üz-göztək qarşılayacaq, sevinəcək onlar,*
*bir də, geri qayıdanda köhnə dost kollar, ağaclar*
*"can, can" deyib, məni qucaqlayıb ananacan,*
*yenə təzədən doğma, əziz tikanlarıyla,*
*dünyadan böyük qucaqlarıyla*
*əlimi, qolumu, üzümü, gözümü cıranacan.*

***Hamını ötmək istəyən ürək,***
***hər gün özün özünü ötməsən,***
***dostum, hamı səni ötəcək***

*Həm də hər an duyacaqsan, hamını sevsən də,*
*hamını ötmək istəyirsən, elə sevgidə də,*
*bil, sən tək deyilsən, hamı hamını ötmək istəyir,*
*hamını ötməkçün də*
*hər an, hər an özün özünü ötməlisən,*
*həm də hər an gərək duyasan,*
*özün özündən, öz gücündən daldasan.*

*Bəlkə sənə xoş gəlir hamıdan dalda qalmaq,*
*hamının başının arxasını,*
*keçəlini, kürəyini, kimin kimi ötməyini,*
*ətəyini öpməyini görmək sənə daha xoş gəlir?!*
*Bu cür sən lap ən ucası hamının paxırını açan,*
*Hamının paxılı ola bilərsən ancaq.*

*Heç kimin paxıllığını çəkmək istəmirsənsə,*
*durma, durma, hər gün ağlınla ağlını,*
*getdiyin yolunla yolunu öt,*
*ötməsən, duyacaqsan hər an,*
*tək bu dünyadan yox,*
*hər iki dünyadan da daldasan.*

*Sən ancaq, ancaq  hər iki dünyanı ötəndə*
*duyacaqcan, hamıdan güclüsən, itisən,*
*duyacaqsan, hətta duranda da hamını ötürsən,*
*hamı azdır, hər an zamanı da öt, dayandır, durdur,*
*min illər sonra da səni soruşacaqlar:*
*Doğrudanmı, zamanı, dünyanı  ötən,*
*dayandıran o dəli hələ də durur?!*

## *Allahımızın hər an ancaq, ancaq dahilər eşidən səsi – onun ilkin mərhələtək hamını dahiyə çevirmək istəməsi*

*Allah elə-belə əsər-adam yaratmır,*
*kim şeirdi, kim roman, kim təmsil,*
*kim romans, serenada,*
*mən gizli dahilik görürəm hamıda,*
*qısaca desək ya da,*
*hansı andasa dahiliyindən xəbərsiz hamı –*
*Hamı Allahın bir anlıq dahi Anı!*
*O Anı olmayan yoxdu bu dünyada!*

*Əslində bu dünyada dahi adamlar yox,*
*dahi anlar olub hər zaman, hər çağ,*
*dahilər o dahi anları,*
*İlahi anları üzə çıxaranlar, duyanlar,*
*əbədiyyətə çevirənlər ancaq!*

*Əsl dahilərə həm də bütün dünyanı*
*özünə çevirməyə çalışanlar demək gərək, –*
*dahilərsiz darıxan Allahımız,*
*hətta Allahsız dahiləri də bağışlayıb*
*onların hər dahi anı*
*özüylə həmsöhbətə çevirdiyitək.*

## *Özləri də bilmədən o bəbəyə, onun baxdığı göyə bənzəməyə çalışır gecə-gündüz bütün dahilər*

*Hələ danışmır o bəbə,*
*o ancaq Allahla danışır gözləriylə,*
*gözünü zilləyib baxır elə hey,*
*baxır hərdən də bizə, bizim dünyaya,*
*çox vaxt da biz bilmədiyimiz*
*başqa dünyaya, başqa göyə,*
*ancaq hər an bir daha, bir daha*
*ona baxan Allaha.*

*Biz bilən, o hələ biz bildiyimizin*
*heç birini bilmir,*
*ancaq baxa bilir o qoçaq,*
*bütün körpələrtək o da*
*göz yaşlarının heç birini də incitmədən,*
*onları bir-bir öpməli-öpməli,*
*yeməli-yeməli ağlaya bilir ancaq.*

*Göyə də hamıdan çox baxır O,*
*elə göy də hamıdan çox Ona baxır,*
*hələ göy kimi dahilər dahisi O,*
*lap ən dəqiqi, ən düzü,*
*adi adam anlaya bilməyəcəyi qədər*
*özlərindən xəbərsiz*
*o körpəyə bənzəməyə çalışır*
*bütün dünyalardakı bütün dahilər.*

## *Ruh*

*Ömrüm boyu mən bir neçə dəfə huşumu itirmişəm, bəlkə də, ölmüşəm. O anlar bədənimdən çıxan ruhum bir az yuxarıdan məni yıxılı görüb. Sonra hər dəfə bilmirəm nə vaxt ayılmışam, ruh bədənimə necə qayıdıb. Amma ruhumun bədənimdən çıxmağı və yuxarıdan bədənimə baxmağı hər an gözümün qabağındadı.*

*Bilmirəm başqa adamlarda da bu olub, yoxsa yox. Bəlkə hər adamda olur. Bəlkə də, Allah insanın bu vəziyyətini ruhun varlığını, ölməzliyini insana anlatmaqçün edir. Hər halda mən Allaha və ruhun ölməzliyinə inanıram. Bəlkə də, bütün kainat əslində ruhlarımızın kainatıdır. Hər bir halda bunları yazmaq mənim Allah qarşısında borcumdur. Hər bir ruh bədəndən daha çox Allaha yaxındır, ruh daha çox şey duyur və dünya, Allah haqqında daha çox bilir.*

***Allah "Ol!" demiş, kainat olmuş,***
***beləcə Söz kainatın əsası!***

*Ona görə də hər bir kainat balası ana dilindən qabaq kainatın "Ol" dilini duyur. Kainatın dilində danışır, ana dilində danışmağa başladıqda kainatın dilini yavaş-yavaş unudur. Ancaq tam yox. Yoxsa Allah kainatı elə-belə qurmaz, heç olmasa ən istedadlı, gözəl insanları, canlıları elə-belə ölümlü, tez yaddan çıxan, çıxardılan, əbədi yox olan yaradardımı? Əlbəttə, burda nəsə daha böyük, daha gözəl bir İlahi sirr var.*
*Biz sevdiyimiz insanları niyə tez unuduruq? Bu elə həmin İlahi sirrin kiçicik bir hissəsidir. Allah bu qədər sevgini verirsə, onlar beləcə asanlıqla unudula bilməz. İlahinin varlığı tamam başqa şeylər deyir. Yaradıcı adamların hər sözün üstdə əsməsi də elə İlahinin yaratdıqları üstündə sevgiylə əsməsinə ancaq kiçicik bir işarədir.*

*İlahidən bizə duyub düşünməmizçün çox işarələr, yönəltmələr, istiqamətləndirmələr gəlir. İlahi bizi hər an yaratdığı kainat kimi daha dərin, daha geniş görmək istəyir və bu istiqamətlərdə yönəldir. O, bizim dərin qatlarımızı eynən kainatın dərin qatlarına bənzər, bala kainat kimi yaradır. Beləcə, əslində, biz özümüzdən daha dərin, daha uca, daha çox kürəviyik. Biz hər an özümüz özümüzü dağıtdıqca, Allah bizi öz əlimizlə yenidən daha gözəl qurmağa çalışır. Allah bizi hər an yenidən necə qurur, Allahı nə qədər duyuruqsa, bunu da o qədər hiss edirik.*

## *Tək bir dərəsiz, dağsız da Vətən yarım vətən demək*

*İllərdi Qarabağ sözünə, həm də dopdoğmaca*
*Vətənimizi qoruyan*
*dopdoğmaca əsgərlərimizə, əsgərlərimizin*
*canındakı muğama,*
*tara hamımızdan çox baş çəkən Aqil Abbasa*

*Sən hələ sağsan, hələ sağsan, bəylər bəyi a Tar,*
*mən elə bilirdim Sən də o zaman*
*Şuşada həlak olmusan?!*
*Deyirlər, bizimkilər çəkiləndən sonra*
*Şuşanı qorumağa qalxan onlarla tar*
*hamısı orada döyüşüb həlak olublar,*
*düşmən hələ də qorxuyla yollara baxır,*
*həm də onlar bizim qayıtmağımızdan çox,*
*Tarın qayıtmağından qorxur.*

*Sən də, sən də hələ sağsan, sevgililər sevgilisi,*
*aşiqlər aşiqi, dəlilər dəlisi saz?*
*Mən elə bilirdim, sən də Şuşada şəhid olmusan,*
*səni döyüşlərdə neçə yerdə şəhid olan,*
*bütün şəhid ruhlarımıztək elə vurulan an*
*yenidən qalxıb döyüşə atılan görüblər,*
*qardaşım saz, hər an, hər zaman*
*yenidən qılınctək sıyrıl, eşqtək şahlan.*

*Qoyunun ağı da, qarası da dövlətlərimizin adı!*
*Lağla bir-birimizə qoyun deyib sevindiririk düşməni, yadı.*
*Beləcə, tək Qarabağsız yox, bir dərəsiz, dağsız da*
*Vətən yarım vətən demək,*
*əsgərləri yarım əsgər, generalları yarım general!*

*Ey əlli milyonun göy, qırmızı, yaşıl qanı bayraq,*
*hər an göyünə, qırmızına, yaşılına yaraşan*
*bayraqlar bayrağı marşal əsgər doğ bizə,*
*qanadlan, tək göydə yox, həm də qanımızda uç,*
*uç, uç, damarlarımızda bütöv Azərbaycan doğ,*
*elə o tay, bu tay, Xəzər qarışıq*
*Azərbaycan – Xəzərbəycan doğ.*

## *Fatehlər doğmağa aslan, aslanların dodağından öpməyə kişi qalıncan*

*Bölünməyin, yurtdaşlarım,*
*Bir yurd olun, bir yurdlaşın,*
*Bir dərd olun, bir dərdləşin,*
*mələməyin, bozqurdlaşın,*
*göydə bu yurdun göz yaşı,*
*yerdə savaşı qalıncan.*

*Qoç quzusu da qurd əmən*
*bu yurd ular zaman-zaman,*
*bu yurd mələməz bircə an*
*ilk yurd yeri göy, asiman*
*son qurd uçuşu qalıncan.*

*Əli yetməsə heç nəyə,*
*bir anda sıçrayar göyə*
*qılınc kimi endirməyə*
*aydan sıyrılan ay daşı,*
*göydən göy daşı qalıncan.*

*Enib özünü öyəcək,*
*düşmənə "Dev ol!" deyəcək,*
*olcaq, devi də dovşantək*
*qovub ovlayıb yeyəcək*
*bircəcə dişi qalıncan.*

*Bu Anaçöl – Anaçiçək:*
*"Atlan, qanatlan, Türk", – decək,*
*göydən Allah da enəcək,*
*fatehlər doğmağa aslan,*
*aslanların dodağından*
*öpməyə kişi qalıncan.*

## *Qəhrəmanlıq – Tanrının bir anlıq qəlbi*

*Qəhrəmanlıq şeirlərini*
*Bəndələrə badə şairlər,*
*Qəhrəman şeirləriysə,*
*Allaha əbədi canlar,*
*yerə göy atlı,*
*göy qanadlı qılınclar,*
*xan, sultan, əmir bayraqlar,*
*göyə günəş dabanlar,*
*günəş ayaqlar yazar.*

## *Vətən, hər iki dünyada da səni sevənlər sənin qəlbin*

*Ölümsüzlük şahzadəsi Salatın Əsgərovaya – Qılıncgülə, Qılıncçiçəyə Gül və Qılınc duası*

*Öz torpağının üstündə*
*rahatca gəzəmməyən kəs,*
*o torpağın altında da*
*rahatca yata bilməz.*

*Duyuram, duyuram, Tanrım,*
*elə Salatın balan da*
*bəndə qəbrindən yox,*
*bütün şəhid qəlbləritək*
*Sənin qəlbindən qalxır.*

*Yağı suyumuzu boğan,*
*torpağımızı doğrayan,*
*göyümüzə baxan anlar,*
*qılıncların görsün deyə*
*qılınclar baxan göyə*
*sıçrayır, qalxır onlar.*

*Duyuram, duyuram, Tanrım,*
*yurdun ən ağır anında*
*qəhrəmanlıqlar canında*
*rahat olmur Salatın da*
*heç Sənin də yanında.*

*Həm də görürəm, Tanrım,*
*... Salatın göyə qalxan an,*
*bütün Tanrı mələkləri də*
*tezcə uçurlar, qalxırlar*
*Salatın qalxan göyə –*
*onun yaralı tellərindən,*
*əllərindən öpməyə.*

*Ölümsüzlük duası*

## *Ölümsüzlük gəlməz, gedilər*

*Gözün göz yaşından sərxoş,*
*Canın qəmdən!*
*Ağlama, dur!*
*Əsl göz yaşı ağlanmır,*
*əsl göz yaşı udulur!*

*İgidlik – İlahi uçuş!*
*Həm göz yaşı, həm də gülüş!*
*İkisi birdən dadılar.*
*Ölümsüzlük səni dilər!*
*Ölüm hər adama gələr,*
*Ölümsüzlük gəlməz, gedilər.*

***Qəhrəman Türk Şeirinə, Qəhrəman Türk dilinə – Türk dininə***

*Onlar bir can, bir bədən, bir ruh, bir bədən,*
*hamımıza, hətta vətənimizə də Vətən.*

*Vətən – həm də Vətənini də, özlərini də ölümsüz*
*edənlərin ruhları*
*hər an başımız üstdə əbədi can kimi dalğalanırsa Vətən!*

***Hər bir söz Tanrı sözütək göydən gəlir –***
***Tanrı ucalığından,***
***sən də sözü hər an özündən ucaya qaldır, insan***

## *Atalar sözü, ya qəhrəman Analar sözü*

*Dilimizdə "Atalar sözü" çox,*
*ancaq ən qəribəsi,*
*əsas söz öyrədən analardı,*
*bircəcə analar sözü yox.*

*Heç şübhəsiz,*
*xanım, xatun, banu*
*ömürlərinin hər anı*
*kişilərini özlərindən də ucaya qaldırmaqçün*
*analar düşünüb bunu.*
*Özlərini qurban vermək*
*analarımızın hər anı, hər günü,*
*hətta bizə öyrətdikləri*
*"Atalar Sözü" adında da*
*analar qurban verib özünü,*
*əslində sözlərimizin çoxu*
*əsl kişi sözünün düzü,*
*özlərini Atalara qurban verən*
*qəhrəman Analar sözü.*

## *Vətən Allahın ətəyitək*

*Boş-boş suallar verirlər:*
*Hardan başlanır Vətən?*
*Əbədiyyəttək Vətən də*
*nə başlanar, nə qurtarar,*
*O hər zaman, hər an var.*

*O hər zaman, hər an var,*
*onun halı əbədiyyətin halı,*
*çünki bir gün başlanan*
*bir gün də qurtarmalı.*

*Əbədiyyətin gülü kimi*
*o, ancaq eşq donunda,*
*Tanrıtək də nə əvvəli,*
*nə sonu var onun da.*

*Böyüyü, balacası da yox vətənin,*
*min yol fırlan, dolan, gəz –*
*ən balaca saydığın Vətən də*
*Tanrı ətəyitək bitməz, tükənməz.*

## *Qəhrəman*

*Düşmən dəli olmuşdu*
*onun qəhrəmanlığından,*
*qolları bağlı olsa da bircə an da artıq*
*sağ görmək istəmirdilər onu,*
*duyurdu düşmən*
*hər an mümkün olmayan*
*nəsə edə bilər qəhrəman,*
*ona əzab verməyə də qorxurdular hətta,*
*qorxurdular ona İlahi güc verə bilər,*
*hətta əzab da.*

*Odur ki, dərhal güllələdilər onu,*
*güllə dəydikcə*
*bədəninin hər yerində*
*qızılgül açan gördülər onu,*
*güllələdilər yenə,*
*ancaq qan yox, gül açırdı bədəni gül üstünə,*
*gülü Allah qoyurdu onun üstünə,*
*beləcə Allah gəlmişdi onun son gününə,*
*həm də gəlmişdi daha yaxından görsün*
*heyrətlənmiş, qorxmuş düşmən*
*necə diz çökür güllələnirkən*
*gül açan adamın önündə,*
*dizi necə qatlanır ölümün də.*

***Şair, səni elə hey qırılan iplərdən,***
***heç qırılmayan laylalardan toxuyuram***

*Hərdən elə bilirəm,*
*mən şeir yazmıram,*
*özüm-özümü –*
*öz ruhi bədənimi, üz-gözümü toxuyuram,*
*elə toxuya-toxuya da*
*dünyadan mənə axmış*
*torpağı, suyu, göyü*
*nəğməyə çevirib oxuyuram.*

*Əslində dünya boyda hanasında*
*Allah hər an bizi toxuyur,*
*Derir, ilmə vurur hər kəlməyə, hər sözə,*
*həm də hər an səsindən sevgi duyulan*
*çox-çox doğma bir səslə*
*layla deyir, nəğmə oxuyur bizə.*

*Tanrım, bağışla, deyən, qırıldım yenə,*
*qırıldım, amma yenə layla deyirsən mənə,*
*bildim, bildim, bağışla,Tanrım,*
*sən hey layla deyirsən niyə,*
*qırılanda laylandan yapışaq deyə.*

*– Çoxdandı səністək ip əyirmirdim,*
*səni əyirə-əyirə hey oxuyuram,*
*səni hey qırılan iplərdən,*
*heç zaman qırılmayan laylalardan toxuyuram.*

## *Hamı hamının həm əvvəli, həm də, həm də axırı*

*Adam Allah adamıysa,*
*Allah adamıtək yıxılırsa, axırsa hara,*
*o an Allah yanında*
*hər iki dünyanın da bir yerdə ortası ora.*

*Axdı bir adam da iki dünyanın ortasına,*
*Bu dünyaya yıxılan çoxudu,*
*ancaq çoxdandı, bəlkə də, yoxdandı*
*yıxılıb axan yoxudu iki dünyanın ortasına.*
*Hamını hamıdan çox sevirdi, sevdirirdi o,*
*həm də bir kimsə duymadan dua edirdi hamıya,*
*həm də tək insana yox, göyə, dağa, düzə, çaya,*
*ən sevimli duaydı elə bu dünya da ona,*
*hərdən bir az dəli, hərdən də bir az gülməli dua.*

*O anlar bir kimsə bilmədi,*
*Allah o adamı kim saydı, nə saydı,*
*bilmədilər o yıxılan yer tək bu dünyanın yox,*
*o anlar hər iki dünyanın bir yerdə ortasıydı,*
*Onu iki dünyanın ortasına yıxmaq, axıtmaq,*
*iki dünyanı bir adamla beləcə birləşdirmək yenə,*
*iki dünyanı hər an bir görən Allahçün hər şey idi,*
*bir dünyanı min yerə bölən bəndəyçün yenə heç nə.*

*Dünyasa min illər əvvəlkitək yenə*
*yıxılmaların, qalxınmaların axarıydı,*
*heç kim heç kimi bəyənməsə də,*
*ancaq hamı hamının əvvəli, həm də axırıydı.*

***Hamı mənə gülərkən mən dua edirəm hamıya tək-tək***
***Allahın ayağı altında hər an çiçək açan şeirlərtək***

*Mən harda*
*əl-ələ tutub gedən iki gənc görürəm,*
*elə o an da orda*
*onları qorusunlar deyə yeridikləri yerə,*
*uçduqları göyə dua edirəm.*

*Bəzən hətta onlarçün mən*
*iki-üç dəqiqədənbir diz çökürəm küçədə,*
*hamıya dua etməyimə, diz çökməyimə*
*dizimlə öpdüyüm yer də,*
*alnımı sürtüb öpdüyüm göy də sevinir,*
*ancaq çox vaxt mənə gülənlər də olur,*
*lap küçənin, hətta duanın ortasında*
*hamı mənə gülərkən dönə-dönə*
*onları sevindirə bildiyimçün*
*hamıya bir daha dua edirəm yenə,*
*ancaq bu azdır deyirəm yenə,*
*diz çöküb küçənin ortasında*
*gülümsəyirik duayla bir-birimizə,*
*o anlar duyuram Allah da gülümsəyir bizə.*

*O dualar da məni çox istəyir,*
*hara gedirəmsə, onlar da uçur ora,*
*göyüzündə də ən uca eşqtək həm tək-tək,*
*həm də Allahın ayağı altında*
*hər an yeni çiçək açan, göy açan şeirlərtək.*

## *Ana kainat hər an təzə ulduz açantək*

*Ey kainat balaları, bala kainatlar,*
*siz də, siz də*
*Allahın şeir misralarıtək ancaq eşqlə uçun,*
*ağaclar çiçək,*
*göyüzü sevgi,*
*ana kainat hər an təzə ulduz açantək*
  *təzə ulduz, təzə kainat açın.*

## *Sən məni tanıyırdın, Əbədiyyət*

*Ey Əbədiyyət, Əbədiyyət,*
*sən məni görmüşdün,*
*sən məni tanıyırdın.*

*Sən məni tanıyırdın,*
*çox anların səni yıxmaq istəyəndə*
*mən səni öz anlarımla*
*o anlardan qoruyurdum.*

*Sən məni tanıyırdın,*
*Deyirsən, sən yenə bir an da dayanmadan*
*ötüb keçirsən dünyadan,*
*ancaq əbədiyyəti göstərir əqrəblərin,*
*səninçün yoxdu zaman,*
*əbədiyyət, məni də götür yenə,*
*yenə gərək olaram sənə.*

## *Son mələyin yuxusuyuq*

*Biz çoxdan,*
*lap çoxdan*
*ömrümüzün bir yerindən*
*yoxuq bu yerüzündə,*
*Yoxuq! Yuxuyuq!*

*Ömrümüzün bir yeri nədi?!*
*Boş sözdü! Ömrümüz də*
*olmayıb heç vaxt*
*hələ doğulmamışdan da qabaq,*
*bir kişiyə,*
*bir qadına*
*oğul olmamışdan da qabaq*
*Yoxuduq! Yuxuyduq!*

*Dünyada bir zamanlar adamlar yox,*
*ancaq mələklər varmış,*
*Biz indi*
*son mələyin gördüyü*
*qəflətən ayılacağı yuxuyuq!*
*Hələlik yoxuq, yoxuq!*
*Yuxuyuq!*

### ***Sən Allahçün ola bildiyin ən ağrılı anında da gülə bildiyin qədərsən***

*Mən tanıdığım Allahlı dünyanın*
*həzin qızı Elmira Yəhyaqızına*

*Nəsildən nəslə keçən*
*min illik dərbədər dərtdən,*
*yadigar qəmdən də keçsən,*
*heç bir zaman ruhdan düşmə,*
*düşünmə ki, sən bir heçsən.*

*Səni eşitməsə heç kəs,*
*döz o kütləvi karlığa,*
*döz o kütləvi korluğa,*
*sən hər an açan bir çiçək,*
*səni Allah yaradıbsa,*
*bil, sən ən böyük varlığa –*
*Allaha lazımsan demək.*

*Hər gələn səsdən, sözdən,*
*hər an Allahı duy, dinlə,*
*ancaq onda bilərsən,*
*hər an səni duya-duya.*

*Allah danışır səninlə,*
*bilərsən, sən heç deyilsən,*
*həm də nə qəm, nə kədərsən,*
*Allahı duyub gəldiyin,*
*Allahçün ola bildiyin,*
*ən ağır anında da*
*gülə bildiyin qədərsən.*

## *Dünyanı hər an dərk edən adam hər zaman susur əbədiyyəttək*

*Əvvəllər çoxları kimi mən də elə bilirdim ki, hər şey haqqında fikir deyə bilərəm. İndi isə anlayıram dünyanı və onun haqqında bilgiləri tam qazıb, qazıb dərk edəndə insan ancaq əbədiyyəttək susur.*

*Ən böyük Sözü də sükut deyir.*
*Əbədiyyəttək susmağın da mübarək, canım!*
*Danışdıqlarım üçün üzr istəməyinin də zamanı gəldi, Əbədiyyət!*

***Çiçək açantək dua açıb Allahdan hamının hamını göy kimi sevdirməsini, göy kimi sevindirməsini, hamıya çiçək açan göy kimi sevməsini diləyən kitab***

*Siz də, siz də fikir verin, adamlar dua edərkən necə sadə olmağa çalışır, dua açdıqları yerin ortasında yox, Allahın onları daha sadə, Allahlı görə biləcəyi bir küncə necə çəkilir, beləcə də bütün yeri, göyü, kainatı Allaha saxlamış kimi olurlar. Şeir yazanda elə şairlər də elə olur.*
*O mübarək anlar onlar həm də Allahın onlara sonsuz səxavətini də duymuş kimi olurlar. Bəndələri dua edən, dua açan, şairləri şeir açan anlar Allah da onun hər baxışıyla yeni ulduzlar açan kainatın mərkəzinə çevrilən bir kuncə çəkilər, qalan bütün yeri, göyü, kainatı dua edənlərə, dualara, dua şeirlərə verər.*
*O anlar hər iki dünya – ruhi, cismi dünya, bir yerdə İlahinin sonsuz eşqlə ucaltdığı sonsuz sevgi məbədinə çevrilər, bütün yaradılanlara gələn, hər an çiçək açantək eşq açan duaların ətriylə dolar.*

*Elə kainat özü – Tanrıdan bizə çiçəklərin açması səsləritək əbədi sevgi pıçıltısı, sevgi sözü.*

## *Bu dünyada cani yox, özünü də tam anlamayan, çox zaman tam açılmayan insanlar var ancaq*

*Bu dünyada pis insan yox,*
*ən qatı caninin də nəysə gözəl cəhəti var,*
*sadəcə onu oyatmaq gərək,*
*ancaq Allahın sevgiylə yaratdığı*
*o cəhəti nə özü duyur,*
*nə də başqa insanlar.*
*Ən gözəl cəhəti açılmadan*
*dünyadan gedir çox insan,*
*beləcə, bu dünyada cani yox,*
*heç özü də özünü anlamayan,*
*açılmayan insanlar var ancaq.*

## *Əbədiyyət də təkrar olunur*

*Sən də təkrar olunursan, əbədiyyət,*
*Biz duyduğumuz əbədiyyətlər*
*əsl İlahi Əbədiyyətinin şəkilləritək*
*min illərlə təkrar olunur,*
*min illərlə təkrar olunur beləcə həyat,*
*Təkrar olunmaz isə*
*biz duyan yox, Tanrı duyan Əbədiyyət.*

## *Eşqdən tikanı da gül açan, qan açan, yeni can açan,  göy açan varaqlar*

*Böyüklər bezdirir səni,*
*sən ancaq uşaqlara bax,*
*uşaqlar da bezdirsələr,*
*onda göyə, lap elə*
*göydən də uzaqlara bax.*

*Bayraqlara da çox baxma,*
*göylərdə, ruhlar arasında*
*çoxu çox ruhsuz görünür,*
*çox dövlət özü yerdə,*
*bayrağı göydə sürünür.*
*Sən bayraq deyəndə ancaq,*
*canı hər an eşq açan gültək*
*eşq açan bayraqlara bax.*

*Əlini hər yerdən üzəndə,*
*o dünyadan da bezəndə,*
*göyləri aç varaq-varaq,*
*eşqdən bir-birinə yapışan*
*göyləri açma ancaq,*
*Eşqi qoruyan tikan,*
*tikanı qoruyan qan açan,*
*ulduz açan, ay açan,*
*goy açan varaqlara bax.*

## *Ulduzlar deyir: hər insan öz zamanının saat əqrəbi*

*Hər bir insanın*
*öz zamanı, öz saatı var canında,*
*ulduzlarsa deyir mənə: Tanrıyçün hər insan –*
*öz zamanının saat əqrəbi hər an,*
*dünya da sıra-sıra, qat-qat*
*adamların sayı qədər zamanı Allaha göstərən,*
*o qədər də əqrəbi olan bir saat.*

*Tanrı baxır, çaşbaş saat əqrəbləritək*
*çox adam irəli, geri qaçıb,*
*hey deyinir, mələyir, hətta hürür arabir,*
*hərə öz bildiyitək öz vaxtını göstərir Allaha,*
*Allah da ancaq Böyük Vaxtın içində*
*hər adamın əsl vaxtını görür.*

*Böyük insanlar zamanın üstündə, altında*
*hər biri bir məğrur əqrəbtək fırlanar,*
*bir gün də Allahın əbədiyyət saatında da*
*fırlandıqlarını anlarlar onlar,*
*bunu anlayınca fırlanan bütün kainatlartək*
*onlar ancaq Allahı duyar, anlar,*
*göyüzündə diz çöküb bütün baba kainatlara*
*balaca dizləriylə dua edər bu balaca, körpə kainatlar.*

## *İçkinin ayağının altı*

*Əslində bütün əsl insanlar da,*
*bütün əsl içkilər də şahanə!*
*Hərdən içki adamdan güclü olur,*
*hərdən də adam içkidən,*
*ancaq yaxşı olar, elə içəsən ki,*
*içkinin ayağı altda qalmayasan,*
*canındakı ən şahanə insanı da,*
*ən şahanə içkini də*
*taxtından salmayasan.*

## *Qoy oyuncaqlar özləri söyləsinlər*

*Qoy uşaq oyuncaqları özləri söyləsinlər*
*"Bütün uşaqlar şah olmalı" – deyilən anlar*
*niyə gülümsəyirlər onlar.*

*Biz hamımız bir yerdə şahıq,*
*biz istəmirik tək-tək şah olmaq,*
*həm də biz anlamırıq, niyə böyüklər hamısı*
*təkcə şah olmaq istəyirlər ancaq.*

*Nazirlər, prezidentlər yox,*
*qoy oyuncaqlar, uşaqlar özləri söyləsinlər,*
*güllər, çiçəklər pıçıldadıqlarıtək*
*pıçıldasınlar hər şeyi bir daha, bir daha*
*hamını uşaq sayan,*
*hamıyla uşaqtək oynayan*
*hamıyla uşaqlaşan Allaha.*

## *Gəlin yalanları gerçəklərdən də gözəl eləyək*

*Gəlin, bir-birimizə*
*ən gözəl yalanlardan da*
*daha gözəl yalanlar deyək,*
*həm də bir-birimizə*
*o ən gözəl yalanları*
*gerçəklərdən də gözəl eləyək.*

*Gözəl yalan yalan deyil,*
*həm də nə qəm, nə qüssə, nə kədər,*
*hətta həqiqətdən də daha üstün,*
*deyək, hamını ucaldaq*
*heç zaman ucalmadığı qədər.*

*Sonra ancaq, ancaq,*
*o ucalıqlardan düşənləri daşlayaq,*
*maşallah, nə çox xoşbəxt daş yığdınız*
*"Allahın ayağı dəyən daşlardı" – deyə-deyə,*
*indi gərək o daşlardan pillələr hörək*
*hər an "Allah", "Allah" deyən*
*budaqlarında göy pillələri yetişdirən hər göyə.*

## *Tarix də darıxır eyniliklərdən*

*Ən sıx duman da, çən də*
*yerdən göyə keçməkçün*
*ən şux dağa doğru yüyürür,*
*şux dağları aşdıqca*
*duman da, çən də*
*lap elə zaman da böyüyür.*

*Ən sıx dərd də, qəm də çəntək, dumantək,*
*lap elə zamantək insana gəlib,*
*insana çəkilsə də,*
*çəkilən dəniz dalğalarından zamanın yeri*
*qayalıqlarda qalantək*
*böyük dərdlərin, ağrıların şırımları,*
*böyük zamanların dağıntıları, uçurumları,*
*min illərlə xalqların,həm də, həm də*
*tək-tək adamların ruhunda qalır.*

*Onun dalınca da yeni zaman gəlir,*
*o zamanın insanı da yenə*
*köhnə zamanın canlarda yuva saldığı, oyduğu oyuqları*
*baba vaxt kimi bir az doğma bilir,*
*bir az da yad özünə.*

*Dünya tarixi də can tarixitək*
*darıxır eynilikdən,*
*bir tarix qabağına çıxan*
*ilk uçurumdan dönər,*
*bir tarix də o tarixin*
*yeri, göyü, uçurumu istəyəntək*
*aşar keçər,  aşar keçər,*
*kainat boyda uçurumlardan da hər an.*

***Sən necə baxırsan Allahın hədiyyəsinə, Allah da hər zaman eləcə baxır sənə***

*Allahın hədiyyəsitək dalğalanan adam,*
*bilirəm, duymusan*
*can  hər bir insana Allahın hədiyyəsitək verilir,*
*doğuldun, canı aldın hədiyyətək Allahdan,*
*day durma, yeri,*
*həm də o canı  tək can kimi yox,*
*Allahın amanatı, hədiyyəsitək qoru,*
*bil,  sənin canını*
*Allah şəxsən hədiyyə edib sənə,*
*duy, düşün dönə-dönə,*
*bil, bundan sonra sən necə baxacaqsan*
*Allahın amanatına, hədiyyəsinə,*
*Allah da eləcə baxacaq sənə.*

## *Bütün gözəl işləri Allah başlayır*

*Bütün gözəl işləri Allah başlayır əslində,*
*bəndə ancaq onu davam etdirir,*
*bunu az-az bəndələr duyur ancaq,*
*həmişə Allaha qarşı çıxanlar yenə*
*Allahın başladığı bütün işlərdə də*
*qarşı çıxırlar ona.*

*Bu qara-quralar, ala bulalar bir gün də*
*hardasa şərin taxtını alırlar,*
*sadəcə dünya boyda səbrli Allahın*
*səbr taxtında da*
*dünya boyda vaxtını alırlar.*

## *Ömrümüz hər an Allahın baxdığı milyardlarla kinodan biri*

*Kinolara yarımçıq baxıram, başdan bir azca,*
*sonra söndürürəm televizoru,*
*Allahım, bu kinoçular da*
*çəkdikləri kinolarda nə sevə bilirlər, nə də sevdirə,*
*hər şeyi yarımçıq qoyub qaçırlar asan tərəfə,*
*Kainatın bir küncünə qısılantək*
*mən də qısılıb otağımın bir küncünə*
*Allah bilir, hər gün neçə dəfə öz ürəyimdə*
*yönəldirəm dünyanı daha gözəl  bir tərəfə.*
*Bu işdə nəsə bir qəribə darıxma,*
*həm də nəsə İlahi bir qüssə, qəm var,*
*həm də bir balaca maraq, əyləncə,*
*ancaq elə bil hər an duyuram*
*başım üstdə, ya yanımda kimsə var,*
*hərdən başımı qaldırıb göyə, yuxarılara,*
*ya da yaxınlara – başım üstünə gülümsəmək istəyirəm,*
*həm də bilirəm Allah çoxdan yorulub,*
*bezib insan təşəkküründən, ona edilən dualardan,*
*elə mənim dualarımdan da bezib,*
*ancaq hansısa sözümə görəsə qəfil məni qoyur*

*dünyanın ən güclü vəzirinə qarşı.*
*Duyuram onunçün maraqlıdı vəzirlər vəzirinə*
*lovğalar lovğası bir şair nə edəcək,*
*Allahım, sən verən taledən razıyam,*
*ancaq niyə vəzirə qarşı,*
*mən şaha qarşı istəyirəm, şahla vuruşmaq daha maraqlı,*
*vəzirlər ya çox yaltaq, ya da çox hiyləgər olurlar,*
*mənimçün çox maraqsız fiqurdu onlar,*
*hər gün ağıllı görkəm alıb boş-boş danışır,*
*belə-belə, qanunu, qanunsuzluğu, yaltaqlığı idarə edirlər,*
*piyadalara gəldikdə onlar həm bir sürüdürlər,*
*həm də hiyləgərdirlər bir-birindən.*

*Əslində bütün bunları ömürlərimiz edir,*
*Allah ömürlərimizin bir azının şahmatını qurub*
*öz umudumuza buraxır qalan gedişləri,*
*sonra biz kinoya baxdığımıztək*
*oturub hamımızın həyatına – kinosuna baxır,*
*hərdən öləndən sonra da gəlir kiminsə kinosunun səsi,*
*yəqin Allaha ölümündən sonra*
*diriykən olduğundan daha maraqlı gəlir o bəndəsi,*
*hərdənbir başqa şəkildə də gətirir dünyaya onu.*
*Beləcə, dünya adlı bu nəhəng kino-teatr yaranandan*
*min illər, milyon illər üzü bəri*
*hər insan ömrü Allahın eyni anda baxdığı*
*milyardlarla kinodan biri.*

***Bu dünyada ən çox kəşf olunan İnsandır.***
***Hər bir insan hər bir insanı hər bir an yenidən kəşf edir***

*Tək bu yerüzünün yox,*
*bütün kainatın balaları, bala kainatlar!*
*Allah hər bir varlığı nəyisə hamıdan daha yaxşı edə biləcəyinə, dünyanı, kainatı daha da gözəlləşdirəcəyinə görə yaradır.*
*Bilin, bütün böyük həqiqətlər insana böyük sevgilərtək doğma!*

## *Allah və insan haqda nəğmə – dua*

*Allah hər bir insanı onun nəyisə hamıdan daha yaxşı edə biləcəyi üçün, dünyanı daha da gözəlləşdirəcəyi üçün, beşgünlük yox, əbədiyyətçün yaradır. Hər bir insan göyüzünün sevgisindən, canından göyüzütək əbədi yaradılır.*

*Ömür də insana ancaq Allahın ona verdiklərini özündə duymaq, kəşf etmək, inkişaf elətdirməkçün verilir. Allah ancaq bunları etdikdə yaratdıqlarından razı qalır.*
*Bəs siz özünüz özünüzü kəşf etmisiniz? Heç nə bacarmayanlar nə bacardıqlarını bilməyən adamlardı, hətta ən bacarıqsız adam da nəyisə bu dünyada hamıdan yaxşı bacara bilər. Bunu sadəcə özü bilmir. Çünki Tanrı heç kimi elə-belə yaratmır. Allah hamını nəyisə hamıdan daha yaxşı edə biləcək şəkildə, qeyri-adi yaradır.*

*İlahi yaratdığı şəkildə öz-özünüzü görün, Allahın yaradılışı, əsəri olduğunuzu duyun. Ömür də insana ancaq özündə Allahın ona verdiklərini duymaq, kəşf etməkçün verilir. Bilin, siz Allah yaratdığıtək çox ürəkli, ağıllı, gözəlsiniz! Hər şeyə sevginizlə, ruhunuzla çatdıqca, özünüz özünüzdə yeni gözəl, güclü nəsə hiss edəcəksiniz.*

*Bax bu, əsl sizsiniz, Allahın istədiyi əsl sizsiniz. O andan Siz Allahı da sevindirəcəksiniz. Bilin, siz nəsə gözəl bir iş görəndə, o an Allah sizdən daha çox sevinir.*

*Hər an, hər an özünüzü kəşf edin, Allah sizi yaratdığı, istədiyi şəkildə kəşf edin, beləcə, sizi yaradan Allahımızı da hər an sevindirin, ey kainat balaları, bala kainatlar!*

## *Hər iki dünya üçün, Tanrı üçün qəmsiz ən təzə şeirim*

*Şeirlərim də, elə mən özüm də*
*illərlə boydan balacalaşır,*
*bütün balacalaşma rekordlarını qırırıq,*
*beləcə-beləcə hər gün, hər gecə*
*daha çox ata göyüzündən*
*ana torpağa yaxınlaşırıq,*
*bir gün də bu bəndə öz şeirləriylə göylə,*
*bədəniylə də yerlə bir olacaq,*
*o son an ruhunu göylər alacaq,*
*yerdə də adamların xəbərləri olmadan*
*şeirləri bir şeir ləçəyinə bükəcəklər onu,*
*onu qucaqlayan qara torpaq*
*hər iki dünya üçün*
*onun ən uca göyü, ən uca yurd yeri,*
*həm də hər iki dünya üçün, Tanrı üçün*
*qəmsiz ilk Tanrı şeiri olacaq.*

***Xoş gəldin, yeni doğulmuş cocuq göyüzü,***
***xoş gəldin, yeni doğulmuş cocuq yerüzü***

*Yarandıqlarıtək,*
*əvvəl göyü uçuq adamlar*
*yox olur tək-tək,*
*sonra göyü uçuq toplumlar tək-tək,*
*sonra göyü uçuq dövlətlər tək-tək,*
*sonra göyü də, özü də uçuq xalqlar tək-tək,*
*sonra belə-belə yeni bir yerüzünə*
*hamilə olur yeni bir göyüzü,*
*Bu kainata siz də xoş gəldiniz,*
*yeni doğulmuş daha bir cocuq göyüzü,*
*yeni doğulmuş daha bir cocuq yerüzü.*

## *Əbədiyyətlər Əbədiyyətinə ilk Əlvida, Canvida, Ruhvida*

*Ey böyük Əbədiyyət,*
*hey-hərəkətdə olan*
*ey əbədi, böyük Sükut,*
*tək-tük adamlartək*
*mən də elə bilirdim*
*bu dünyada ən son dostun*
*mən olacağam tək.*

*Əlvida, sonsuz yolunda*
*sənə yaxşı yol, Əbədiyyət, vəfasız Dost,*
*özün bilirsən, sənə vəfasız deyirəm niyə,*
*axı sən mənə hələ cocuqkən söz vermişdin –*
*mənimlə başqa bir dünyaya getməyə,*
*ordan da daha gözəl başqa bir dünyaya,*
*daha gözəl başqa bir göyə,*
*indi deyirsən, heç olmasa "Əlvida" – de,*
*deyirsən, heç kəs indiyə qədər*
*"Əlvida"deməyib sənə,*
*Qəribədir, niyə deməyiblər,*
*mən ilk "Əlvida" – deyənin olacağam,*
*təki sən dünyanı sonsuzluğacan qoru.*
*Həm ruhumla, canımla*
*həm də kainatdakı bu bircə anımla deyirəm:*
*Əlvida, Canvida, Ruhvida, əbədiyyətlər Əbədiyyəti!*

***Ya sənin Allaha sualın var yenə,***
***ya Allahın çox sadə cavabı sənə***

*Gördün bərk ağrıyır,*
*titrəyir ürəyin, canın,*
*uşaqlara bax, uşaqlara,*
*uşaqlar da kömək etmirsə,*
*uzaqlara bax, uzaqlara,*
*təzə əbədiyyəttək hər an sənə baxan*
*əsl əbədiyyətdən də uzaqlara.*
*Yenə də keçmirsə ağrılar,*
*canında ağrılardan açan çiçəklərə, yarpaqlara,*
*çiçəklərdən, yarpaqlardan əbədiyyəttək*
*hər an təzə nəsə pıçıldayan*
*çiçəktək, yarpaqtək açılan dodaqlara bax, dodaqlara.*

*Yenə keçmirsə ağrılar,*
*canının da qalmayıbsa tabı*
*sənin Allaha çox qəliz sualın var yenə,*
*ona da Allahın çox sadə cavabı:*
*Ağrılarını ruhi bulaq elə, qoy axsınlar*
*səninçün yaranmış ruhi dənizlərə, ruhi göylərə,*
*ruhi göylərin də, dənizlərin də axdığı ruhi varaqlara.*

## *Şairin şeiri, yoxsa şeirin şairi*

*Deyir, deyir,*
*hamı əbədiyyət kimi!*
*Hər bir adam kimlərisə, nələrisə,*
*necə, nə vaxtsa,*
   *ya topa-topa, ya da bir-bir*
      *daha çox xilas,*
*hərdənbir də məhv etdiyini*
*bilməyən xəyali varlıqlardan biri –*
*hətta, hətta Allahın daha bir qəmli şeiri.*

## *Bir daha özü bu dünyadan, ruhu da ruhi dünyadan hər an qabağa qaçan bir adama – bir ruha*

*Hər an sənə baxıb, sənin canında*
*Allahın saatı qaçar qabağa,*
*o göstərən zaman, o tələsən an*
*hamıya səhv olar, tək səninçün düz,*
*o saat dalınca qaçarsan sən də,*
*bütün göyüzütək, lap elə bəlkə*
*Allahın özütək gecəbəgündüz.*

*Belə-belə, illərlə ötüşərsiniz,*
*sən onu keçəndə, o səndən güc alar,*
*sıçrayar daha da qabağa qaçar,*
*adamlar dünənlə boğuşub qalar,*
*səninsə saatın, səninsə canın*
*sabahdan sonrakı sabaha qaçar.*

*Ancaq hər an, hər an hər məhlə, hər tin*
*hamı səni tutub geri dartarkən*
*hamıdan qabaqda olmaq çox çətin,*
*həm də bu dünya canında varkən*
*canından qabaqda olmaq kədərli,*
*canında nəsə kəm elə bil hər an.*

*Get-gedə hamıdan, həm də özündən,*
*həm də bu dünyadan uzaqlaşırsan,*
*həm də hər an tək, tənha, yalqızsan,*
*ya şimal, ya cənub qütbündəkidək*
*tənhalıq qütbündə, təklik qütbündə*
*əbədi məğrur, əbədi bumbuzsan.*

*Sən uzaqlaşdıqca sənin dalınca*
*adamlar qışqırar: o saat casus,*
*ya ingilislərdən, ya ərəblərdən,*

*niyə belə səssiz, qəmli gedirlər,*
*gözümüz su içmir o əqrəblərdən,*
*o bizim zamanı göstərmir heç vaxt,*
*o zaman kimindi, kimin malıdı,*
*biz dayanıb durub danışan anda*
*zaman niyə gedir, o durmalıdı.*

*Sənsə, ey saatım, sənsə, ey canım,*
*bundan sonra da yorulma, durma,*
*bircəcə an da, bircəcə an da*
*bu günü göstərmə, uç, qaç qabağa.*

*Lap elə bir gün, ən gül anımda*
*qəflətən yıxılsam, qalxa bilməsəm,*
*baxma, keç üstümdən, uç, qaç sabaha,*
*ruhum, sən də durma, çıx, uç canımdan,*
*candan cıxan anda, dartınan anda,*
*ruhtək ağrısan da , uçmaq ləzzətli,*
*çıx, çıx canımdan,*
*çıx dart bu dünyanı daha cürətli.*

*Dünyada çox şeyin öz ləzzəti var,*
*ancaq hər an, hər an yeni bir eşqə*
*bu boyda dünyanı yer, göy qarışıq*
*dartıb aparmağın ləzzəti başqa.*

*Dünyanı dartdıqca duyarsan həm də,*
*bir zamanlar səni söyüb döyənlər*
*ruhun qalxan ana – o sonsuz ana,*
*sonsuz ruh yoluna baxıb deyirlər:*
*İlahi, bu yolun necə gözəldir!*
*Görərsən hamı öz azmış canını*
*sənin o yaralı, yorğun ruhuna,*
*ancaq həmişə şən, məğrur ruhuna*
*sənin yox canına baxıb düzəldir.*

## *Tanrı ətəyinə aşan yolda əbədiyyət də körpə*

*Tanrı ətəyinə aşan yolda*
*mən min, milyon illər axan,*
*Tanrı ətəyinə aşan dağ gördüm.*
*– A dağ, a dağ, sən nə gördün bu dünyada?*
*– Mən min, milyon illər dediyin*
*o bir Anı gördüm ancaq,*
*başqa heç nə gəlmir yada, gəlmir yada.*

*Mən milyon illər burula-burula axan,*
*axa-axa göyə baxıb dua edən su gördüm.*
*– Ay su, ay su, sən nə gördün bu dünyada?*
*– Mən son göyüzünü də aşdım,*
*son göyüzünün o üzündə də yenə o Anı,*
*o Amin içində də*
*Allaha doğru uçan milyon-milyon duanı gördüm.*

*– Salam, Əbədiyyət! Ay dədə,*
*bəs sən nə gördün bu dünyada?*
*– Dədə nədi?! Bu dünyada hamı körpə!*
*Hamıdan uca saydığın göyüzü də,*
*ən qoca dənizlər, dağlar da körpə, bəbə!*
*Əbədiyyət dediyiniz körpə bir An var ancaq,*
*o an heç vaxt, heç zaman çatmayacaq*
*nə yerə, nə göyə*
*"Allahı gördüm", – deməyə.*

## *Hər on adamından yüzü gülsün, yüzü gülsün, bu eşq hesabını icad edənin də üzü gülsün*

*Azərbaycan, gülüm,*
*hər iki dünyada da*
*hara getsəm görüm*
*hamının gözü gülür,*
*danışanda dili, sözü,*
*cibi, əli, ayağı, burnu, ağzı,*
*yıxılanda dirsəyi, dizi gülür,*
*həyətində ağacı, otu,*
*ocağında tüstüsü, odu,*
*xörəyində itinin, pişiyinin də payı,*
*suyu, əti,*
*həyətində sevişən siçanı, pişiyi, iti,*
*başı üstündə sevən göyü, ayı, ulduzu,*
*göyü altında sevinən dağı, düzü, dənizi,*
*ən son anda doğma torpaqla qapanan üzü,*
*doğma barmaqlarla qapanan gözü gülür.*

*Azərbəycan, bəy canım ol, xan canım ol,*
*ol, hər baxanda görüm,*
*hər on adamından biri yox,*
*hər on adamından yüzü gülür,*
*bütün  bunlara baxıb*
*bu Eşq hesabını*
*icad edənin də üzü gülür.*

## *Yanan sözlər də, yanan şamlar da şam şairi seçəndə*

*Şair nə zaman Şam Şair olur?*
*O vaxt artıq şair sözləri, şamları yox,*
*Şamlar da,*
*sözlər də şairi sevir, seçir,*
*şairlə bir nəfəs alır,*
*şair Şam olur,  Şam şair,*
*həm də, həm də o anlar*
*hər sevinən sözlə bir-bir,*
*təkcə Allah şairi, şamı yox,*
*şair də, şam da Allahı sevindirir.*

*Başqa bir göyüzü altında ...*

***Bağışla məni, Allahın qarı, bağışla, Allahın şeiri,***
***sən də bağışla məni, canımın nuru – Kədəri***

*Yenə Allahın ağappaq qarı,*
*Allahın ağappaq sözü,*
*Allahın ağappaq şeiri yağır yerə,*
*o şeir hərdən baxır yazdığım şeirə,*
*hərdən gülümsəyir, hərdən də mənə:*
*"yağ, yağ, qara buludum mənim," deyir yenə.*

*Allah elə gözəl yağdırır,*
*dünyanı elə gözəl ağardır,*
*elə gözəl yazır,*
*mənsə yaza-yaza aram-aram*
*ağappaq dünyanı qaraldıram –*
*hərflər şeirin ayaq izləritək düşür qara,*
*izlər xoşuma gəlmir yenə,*
*mən də baxıb, baxıb, şeiri cırıb atıram yerə.*

*Bağışla, Allahın qarı, bağışla, Allahın şeiri,*
*sən də bağışla, şeiri yazdıran Allahın nuru – Kədər,*
*deyən, mən yağa, yaza bilmirəm*
*hətta ən körpə bir qar dənəsinin göyüzündən*
*iməkləyə-iməkləyə, həzin-həzin, eşqlə enməsi qədər.*

## *Ürəyini quşlar dənləyən qoca*

*Bu duman hardansa azıb,*
*gəlib mənə sığınıb,*
*yazığın dağın gəzirəm,*
*bu qar xoşuma gəlmir,*
*sinəsindən öpməyə*
*bu qardan ağın gəzirəm.*

*Canımdakı bu qoca*
*hara gedir qaça-qaça?!*
*Bu uşaq hamıdan qoca,*
*xəbəri yox qaçdıqca*
*qanada dönür qolu,*
*həm də, həm də xəbəri yox*
*ürəyi sınıq sevgiylə*
*ovcu sınıq göylə dolu.*

*Toxunuram sınıqlara,*
*sınıqlar quşlara dönür,*
*ürəyim bir ovuc dənə,*
*quşlar ürəyimə qonur –*
*ürəyimi dənləməyə.*

*Ay uşaq dəymə, dəymə,*
*qoy dənləsinlər, ay uşaq,*
*bax, duman baxır, sən də bax,*
*bu qoca indi uçacaq,*
*ürəyin quşlar dənləyir,*
*ürəyi quşlarla dolu,*
*gözləri göyüzüylə,*
*göyü uçuşlarla dolu.*

***Təbriklər, eşqlər hər iki dünyaya***
***bu dəlidən də can qurtarırlar deyə***

*Təbriklər, bu yerüzündə*
*əvvəlki kimiyəm yenə –*
*nə mən kiməsə gərəyəm,*
*nə də bir kimsə mənə,*

*Sizə də, sizə də təbriklər!*
*Dünya təklik yarışında,*
*ön sıralarda durursuz,*
*canım, təbrik! Gözüm, təbrik!*
*Yavaş-yavaş danışmağı,*
*sözləri də unudursuz,*
*Dilim, təbrik! Sözüm, təbrik!*

*Gələn, ancaq eşqsənsə gəl,*
*lap eşq dolu dərdlə, qəmlə,*
*bil, eşqdən başqa heç nəyə,*
*bu canda yer yox bir damla.*

*O nə bu dünyaya gərək,*
*nə də onu sevməyəcək*
*ölümə, ya ondan o taya,*
*bu dəli candan bir şeirlə*
*can qurtarırlar deyə*
*təbriklər hər iki dünyaya!*

***Biz – öyünməyi sevən qanadlar, ürəklər,***
***Göyü göydə saxlayan ruhi çiyinlər, kürəklər***

*Biz – sonsuzluqları daha da məğrur edən,*
*ən uca göyü də daha da ucaldan,*
*göyü göydə saxlayan*
*ruhdan çiyinlər, kürəklər,*
*ən gülməli, ən sevməli dəlilər,*
*ən öyüngən, ən çılğın ürəklər*
*heç vaxt qalxa bilməyəcəyik*
*qalxmaq istədiyimiz yerlərə qədər.*

*Siz də, siz də, İldırımım,*
*Şimşəyim, gülümsəyin, bilin, heç vaxt,*
*Bütün sonsuzluqlara çata bilməsək də,*
*bizdən sonra gələnlərə bizdən yadigar ancaq,*
*yeni sonsuzluqlara sıçramaqdan ləzzətli*
*başqa heç nə qalmayacaq.*

*Qalxın, qalxaq, sonsuzluqlar,*
*qalxın, qalxaq daha uca bir çağa –*
*qəlbimiz, ruhumuzla göylərdən də ucada uçmağa,*
*heç mələk qanadı da dəyməmiş,*
*biz qalxdıqca bizdən ruhlanıb qalxacaq*
*daha uca sonsuzluqlara ayaq açmağa.*

*Ruhdan düşməyə heç vaxtımız da olmayacaq,*
*çatmaq istədiyimiz sonsuzluqların hamısına*
*çata bilməsək də*
*elə hey qalxacağıq ancaq,*
*biz qalxdıqca qalxmadığımız sonsuzluqlar*
*bizi qalxdığımız sonsuzluqlara qısqanacaq.*

### *İlahi, Tanrım, Sənə dua edə-edə eyni anda həm qaçır, həm ağlayır, həm də gülürəm*

*Bir daha günaydın, göyaydın,*
*İlahi, Tanrım, Allahım,*
*göyüzündə qaça-qaça ayaqyalın*
*hər an Sənə sarı gəlirəm,*
*heç bir söz demədən*
*əllərimlə, ayaqlarımla,*
*bütün bədənimlə sənə dua edə-edə*
*eyni anda həm dua edir, həm qaçır,*
*həm ağlayır, həm də gülürəm.*

## *Həyat olacaqmı ölümdən qabaq*

*Uçurumdan qorxmuram,*
*bilirəm, uçurumdan sonra*
*həm də uçmaq var.*

*Ölümdən də qorxmuram,*
*çünki bilirəm,*
*ölümdən sonra da*
*sevgi, həyat olacaq.*

*Ancaq bilmirəm, Allahım,*
*əsl ölümdən utanmayan,*
*əsl həyat olacaqmı*
*sevgili ölümdən qabaq?!*

***İlahi yolda hər an hər iki dünyayla ötüşən sonsuz sayda əbədiyyətlər, anlar var***

*Nolar, siz də, siz də ən iti xəyaldan da iti*
*bəy atları çox yormayın, əbədiyyətlər, anlar,*
*hələ qarşıda hər iki dünyada,*
*o atlarla ötüşən*
*sonsuz sayda əbədiyyətlər, anlar var,*
*siz əbədiyyətdən, əbədi andan baxın*
*ötüşdükləri o əbədiyyətləri, o anları da*
*baxın görün elə bu eşqlə, elə bu ruhla*
*necə ötüb keçəcəklər onlar.*

## *Hamı eynidi deyəndə biz Allahı incidirik*

*Bu dünyada hamı eynidi deyəndə
Allahı incidirik o an,
çünki Tanrı elə yaradıb ki, adamları,
nəyləsə fərqlənir hamı hamıdan.*

*Adamları tək-tək, bütöv, hətta yarı,
bircə-bircə sevgiylə yaradan Tanrı
öz-özünü təkrar eləməz heç bir zaman,
Allahın hərdən
çox qəm çəkən insanları yaratmaqda
məqsədi həm İlahi haqdı,
həm də hamının eyni olmadığını
hamıya xatırlatmaqdı.*

*Həqiqətən də
bütün insanlar eyni olsaydı,
çox darıxdırıcı olardı dünya,
elə insanlarçün də, elə Allahçün də.*

*Bu dünya yenə dardı mənə də,
ruhum, dur gedək hər iki dünyadan,
bəlkə də, mininci, milyonuncu dəfə,
bəlkə də, "sonuncu dəfə" yenə də.*

*Avropanı da yüz illər qabaqlayaraq bizim bu bəy dilimiz,*
*xan dilimiz göyüzü Eşqinin, şeirinin çox sevdiyi dilimiz yenə*
*elə bu yazını da şeirə bənzər, eşqə bənzər yazdırdı mənə*

***Xanlar xanı xanımlar, bəylər bəyi bəyimlər,***
***siz öyrədən dildə şeir kimi bütün deyimlər***

*Çox xanlarımız çox zaman xanlıqlarını unutmuş*
*xanımlarını özlərindən daha üstün tutmuş,*
*onlara "xan-ım" demiş, beləcə xanın xanı alınıb,*
*eləcə də bəylər "bəy-im" demiş, yəni bəyin bəyi,*
*xan öz xanımını, bəy öz bəyimini beləcə,*
*İlahidən gələn xanım, bəyim sözləriylə*
*özlərindən də, xanlıqdan, bəylikdən də tutmuş uca.*

*Qadını bu qədər ucaltma, uca tutma*
*heç bir dildə, dində yox,*
*xanım sözü də, bəyim sözü də hər bir anda*
*xanlar xanı, bəylər bəyitək bütün qadınlarımızın canında*
*varlığını, ucalığını göstərmiş, gözlətmiş,*
*həm də analarımız bizə öyrətdikləri dildə də*
*dünyadan da uca tutduqları xanım, bəyim ucalıqlarını*
*öyrətdikləri hər bir sözdə də əbədiyyəttək gizlətmiş.*

*O nə sözdü, könlünü, gülünü, ətrini hansı canda açdı?*

***Yazıdan Söz ətri gəlmirsə eşq ətritək***
***qələm o kağızı, o Sözü incidib demək***

*Ağır anlarında hər bir canlıya yazığım gəlir,*
*ən çox da Sözə,*
*ən çox da  Sözü incidən ürəklə yazılan sözə.*

*Qələm, kağız, siz Allah, məni bağışlayın,*
*o anlar yazığım gəlir həm sizə,*
*həm də sözə axan sevincə, qəmə.*

*Yazdığım an elə bil çox zaman*
*sözün, qələmin də qanı axantək canı axır,*
*bu, hər halda mənim də bir yazantək*
*həm də sözə zülm eləməyimdən doğur.*

*Qələm də deyir: bilin, yazanda qələm ağrıyırsa,*
*o anda yazdığınız sevinc, qəm ağrıyırsa,*
*həm də yazıdan Eşq ətri, Söz ətri gəlmirsə,*
*demək əzab vermisiniz Eşqə, Ətrə, Sözə,*
*hətta yazdığınız hər dağa, düzə, çaya, dənizə,*
*sevincə, dərdə, qəmə, aha,*
*sözü, Allahı nə qədər incitsəniz də,*
*yenə də sizi Sözə sevdirən Allaha.*

***Xəstələrə yox, xəstəliklərə, həm də, həm də həkimlərə şair məsləhəti***

*Əziz, sevgili xəstəliklər, nə tapmısınız*
*yiyəsi də bəyənməyən bu bədəndən, bu candan,*
*gəlin öpüm sizi, bir də baxmayın bura,*
*bilirəm, hamıya, lap ən ağır xəstəliyə də,*
*sevgiylə yanaşsan, çıxıb gedər uzaqlara.*

*Siz də, siz də, əziz xəstəliklər, sevinəcəksiniz,*
*canı sevinən insanların canında sağalacaqsınız,*
*suları sevinə-sevinə axan çaylara,*
*işıqları sevinə-sevinə axan günəşə, aya,*
*buludları  sevinə-sevinə axan göylərə,*
*göyləri sevinə-sevinə axan Sözə baxsanız.*

*Hər kəsin sözü, səsi gözəldi özünə,*
*qəm, kədər sizə toxunanda,*
*lap elə sizi təzədən toxuyanda sevinin,*
*şən nəğmələr oxuyun öz-özünüzə,*
*bir də görərsiz, dağ, düz, dərə də qoşulub sizə,*
*hətta əbədiyyət də də siz oxuyan şən nəğmələri oxuyur.*

*O an, sizinlə nəğmələr oxuyan yaxınlara, uzaqlara,*
*ömründə ilk dəfə sevinən dərdlərə, dərmanlara baxın,*
*baxın ömründə ilk dəfə əlləri yuxarı sevinən,*
*əlləri yuxarı sizi sevən qadağalara, yasaqlara.*

*Bir şeir iki şəkildə bir-birini üstələdi,*
*əslində bunu sözlər özləri belə istədi*

## *O ruh ən gözəl yalan – ən gözəl gerçək*

*O şam hər an, hər zaman*
*ancaq Eşq üçün gül açan –*
*bütün gül şamlardan da*
*daha Eşqli, daha gül şam.*

*Həm də bütün gül ruhlardan da*
*daha gözəl, daha qanadlı,*
*daha çiçək yanan bir can.*

*O ruh, o can həm xəyala,*
*həm də gerçəyə qurban,*
*xəyallar içində ən gözəl gerçək,*
*gerçəklər içində ən gözəl yalan.*

## *O ruh ən gözəl yalan – həm də ən gözəl gerçək*

*O şam hər an, hər zaman*
*ancaq Eşq üçün gül açan –*
*bütün gül şamlardan da*
*daha Eşqli, daha gül şam.*

*Həm də bütün gül ruhlardan da*
*hər an daha gözəl, daha qanadlı,*
*daha çiçək yanan bir ruh, bir can.*

*O ruh, o can hər an həm xəyala,*
*həm də gerçəyə qurban,*
*həm də, həm də hər an*
*xəyallar içində ən gözəl gerçək,*
*gerçəklər içində ən gözəl yalan.*

## *“Dünyanın ən xoşbəxt televizoru” filmi*

*Televizoru bağlayıb, söndürüb*
*sönmüş ekrana baxıram*
*Tanrı mələkləri*
*bir zamanlar var olub sönən dünyalara,*
*sönən həyatlara baxantək.*

*Sönmüş ekrandan*
*sönmüş dünyalardan,*
*sönmüş həyatlardan*
*əbədiyyətə qonşu*
*poeziya adlı məhlədə,*
*zamanın külü altındakı köz kimi*
*bir də söz olma,*
*ümid işartısı duyulur hələ də.*

*Ay paxıl, ay zalım,*
*hamıdan pis, hamıdan xəsis televizor,*
*dünyanın ən xoşbəxt adamını*
*sən yenə göstərmədin mənə,*
*ancaq mən səndən səxavətliyəm,*
*sən məndə baxacaqsan*
*“Dünyanın ən xoşbəxt televizoru” filminə.*

## ***Hamını ancaq çiçək görmək, çiçəklər çiçəyi olmaq demək***

*Fərid Hüseynə*

*Bütün çiçəklər duyurlar:*
*onları hamıdan çox kim sevir,*
*kim sevə bilər,*
*hamıdan çox*
          *kimin əlində sevinə bilərlər,*
*həm də, həm də*
   *kimi necə sevindirə bilərlər,*
*həm də, həm də, həm də*
*bilirlər hər gün hamını sevmək,*
*hamını hamıya sevdirmək –*
*hamını çiçəyə döndərmək*
*hamını ancaq çiçək görmək demək,*
*həm də, həm də ürəklər ürəyi,*
                  *çiçəklər çiçəyi olmaq demək.*

## *Göyüzündən – Tanrının ayağı altından nursu içməyə, nurdən dənləməyə*

*Tanrıdan uzaqlaşdıqca insanlar*
*qanadsızlaşır, qəddarlaşır onlar,*
*qəddarlaşır onların*
*yerişi, yolu, izi də,*
*çəkilib insanlardan*
*göyüzünün o üzünə*
*qəm çəkir Tanrı özü də.*

*O hansı göyüzüdü?!*
*Dünya boyda qəmi çəkən*
*o göz kimin gözüdü,*
*bizi qəm uçqunundan,*
*qəm selindən qorumaqcün*
*hər an çəkib qəmi yorur?!*
*Dünya çoxdan yıxılardı,*
*Dünya ancaq belə durur,*
*Tanrı bir gözüylə bizə,*
*bir gözüylə  qəmə baxır,*
*dünya qəmi şam yanantək*
*Tanrının qəlbində yanıb*
*eşqtək qəlbimizə axır.*

*Ora haradı, hara?!*
*Ancaq Tanrı üzlü ruhlar*
*Bilib uçurlar ora,*
*Orda qonub göyüzünə,*
*Qulaq söykəyib göyə*
*Göyüzündən Allahın*
*ayaq səsin dinləməyə,*
*ovcundan nursu içməyə,*
*ayaqları altından*
*nurdən dənləməyə.*

## *Mən bu dünyaya canımdan sizə can kəsməyə gəlmişəm*

*Getmə, qayıt, qayıt, dön,*
*təzədən çıx, təzədən doğ, günəş,*
*tək göyüzündə, dan yerində yox,*
*hamının canında, ruhunda doğ,*
*qəm çəkənlərin qəmində,*
*ah çəkənlərin ahında doğ.*

*Get, get, göyüzü,*
*sən də get təzədən doğul,*
*təzə ay, ulduz doğ,*
*ancaq bu dəfə*
*hamını eşqə, hamını Tanrıya,*
*eşqin, Tanrının əbədiliyinə inandır.*

*Göyüzündən eşq gətirən işıq,*
*mən də, mən də sizdənəm,*
*sizi qarşılamağa,*
*sizə çevrilməyə, sizdən olmağa,*
*sizintək axmağa, sizintək əsməyə gəlmişəm.*
*gün işığıyla, ay, ulduz işığıyla*
*canımı bölməyə,*
*canımdan sizə can kəsməyə gəlmişəm.*

## *Mən şeir yazmıram, şeir, ürək, eşq dövlətini qururam*

*Tanrımız şeir kimi,*
*eşq kimi qurub dünyanı,*
*havanı, suyu, yeri, göyü,*
*biz bildiyimiz,*
*bilmədiyimiz hər yanı, hər şeyi.*

*Elə bilirsiz, mən ancaq şeir yazıram,*
*əslində aram-aram,*
*dünyanın ən gözəl dövlətini –*
*bütün sözləri,*
*nöqtə, vergülü İnsana, Allaha aşiq*
*şeir, ürək, eşq dövlətini qururam.*

*Həm də mənim də sözüm var yerə, göyə:*
*dünyanın ən gözəl dövlətitək*
*mənim ruhi ürək, şeir, eşq dövlətimi də*
*qəbul edin yerdəki yox,*
*göydəki BMT-yə.*

***Yıxılan ən uzaq dünyaları da uşaqlar***
***Tanrıtək göydə tutmağı öyrənirlər***

*Bütün suallara cavab:*

***Hər bir adam Allahın əzizi, Allahın sevimli bəndəsi***

*Hər bir adam bu dünyada*
*Allahın bir başqa nəsə düşünmə,*
*nəsə etmə həvəsi,*
*bizə yeni nəsə çatdıran*
*bir başqa səsi,*
*ona görə də hər bir təzə adam*
*Allahın nəsə təzə bir fikri olduğuyçün*
*Allahın əzizi,*
*Allahın sevimli bəndəsi.*

*Hər bir insançün də*
*bütün adamları həm bir yerdə,*
*həm də hər birini ayrıca, tək-tək*
*anlamağa çalışmaq,*
*Allahı daha çox duymağa, anlamağa*
*cəhd etmək, çalışmaq demək.*

## *Yer qazanlar, gor qazanlar, göy qazanlar*

*Canım, hamı haranısa ya qazır, ya yazır, ya da pozur,*
*acgözlər həm yazır, həm qazır, həm də pozur,*
*çoxları qazmağa elə öz atasının, anasının,*
*ya da yaxınlarının cibindən,*
*çox zaman da cibinin dibindən başlayır,*
*dibdə də bir şey tapmayanda*
*onların qəlbini qazır,*
*qəlbdən də bir şey çıxmayanda*
*hər gün bir az, bir az onların səbrini,*
*ən sonda qəbrini qazır.*

*Şairlərsə elə hey göyü qazır,*
*qaza-qaza göydən təzə işıq, nur,*
*təzə söz axtarır, şeir qazır, yazır,*
*bir şey tapmayanda da göyü vərəqləyir,*
*o göydən yuxarıkı göyü qazır.*

*Əsl yer qazanlar yerin ağrısını alır,*
*quluncunu qırır, torpağını dadır,*
*yerdən ev dikəldir, yol uzadır,*
*göz dincəldir, göz aldadır.*

*Əsl göy qazanlarsa işığı, qaranlığı təmizləyir,*
*yerdən qalxan sözləri əyir,*
*onları göyçün təzədən düzəldir, döyür,*
*həm də bütün gözəllikləri ürəyiylə,*
*gözləriylə görür, dadır.*

*Yerdə də, göydə də əbədiyyət adına*
*hamı dünyanın əyrisini, düzünü aldadır,*
*hər bir şair də şeir yazan anda bir az əbədiyyəti,*
*bir az da əbədiyyət adına özü-özünü aldadır.*

## *Doğma, gözəl səfehlik*

*Gözəllik – həm gözəl ağıl,*
*həm də, həm də hərdənbir*
*hamıya xoş gələn, gözəl görünən*
*bir az da, lap bir azca da*
*doğma səfehlik tələb edir elə bil,*
*o gözəllik, o doğmalıq,*
*hətta o səfehliyi də gözəlləşdirir.*

*Bir şeir iki şəkildə*

***Uşaq olduqlarını unutmuş uşaqlar***

*Mənim xoşum gəlir*
*böyüklər hər iki dünyanı aşıb,*
*uşaqlar kimi əl-ələ tutuşub,*
*bir az uşaqlaşıb,*
*yaşlarından uzaqlaşıb gedəndə.*

*Əslində bu dünyada hamı uşaqdı,*
*böyüklər sadəcə bir az böyümüş uşaqlar,*
*balacalar balaca uşaqlar,*
*dünya ağacını silkələsək,*
*böyüklü kiçikli by dünyaya dırmaşmış hamı –*
*göydən uşaqtək ətəyi ulduz dolu töküləcək.*

*Ən gözəli isə böyüklər əl-ələ gedəndə, gələndə*
*balacalar onların əl-ələ tutuşmağını*
*bir-birinə göstərib öz gələcəklərinə güləndə.*
*Böyüklər də onların gülməyini duyub gulür,*
*ancaq uşaqlığa çox dözə bilmir,*
*tez çəkərlər əllərini,*
*ax, qorxaq yaşlılar, uşaqlar bunu etməzdilər,*
*heç anlamazdılar da, nəyə gülürsünüz siz.*

*Böyüklər əslində bir az qorxaq uşaqlar!*
*Bir-birinizin əlini buraxmayın, böyüklər,*
*bu sizin ən gözəl şəkliniz,*
*baxın, baxın, hətta göydən mələklər də çəkir şəklinizi,*
*sizinləyəm, ay yekəqarın kişi, ay gombul qadın –*
*hər an gülün, gülümsəyin göyüzünə ancaq,*
*bax elə bu an həyatınızda ən gözəl*
*şəklinizi çəkir mələklər,*
*o şəkliniz həyatınızda ən gülməli,*
*ən yeməli şəkliniz olacaq.*

*Bir şeir iki şəkildə*

## ***Böyüklər əslində daha çox oyuncaq sındırmış uşaqlar özləri də Taleyin ovcunda sındırılmış oyuncaqlar***

*Əslində çox da fərqi yox*
*böyüklərlə uşaqlar arasında,*
*yaşlıların çoxu sadəcə*
*yaşları uşaqlıq yaşını ötmüş uşaqlar.*

*Fikir verin, özünü böyüklər böyüyü sayanlar,*
*bir vəzifədən çıxan kimi*
*oyuncağı əllərindən alınmış uşağa dönürlər,*
*əsəbi, hirsli, kinli olurlar,*
*hətta bəzən oyuncağı alınmış uşaqlar*
*onlardan daha səbrli, daha təmkinli olurlar,*
*həm də bəzən lap uşaqdan da betər*
*hamıya şikayət etməyə hazır olurlar onlar.*

*Yaşlı adamlar əslində hamısı sadəcə*
*daha çox dünya,*
*daha böyük oyuncaqlar görmüş,*
*daha böyük oyuncaqlar,*
*dünyalar sındırmış uşaqlar,*
*həm də talenin əlində də*
*özləri də daha böyük oyuncaqlar.*

## *Şeir yazmaq*

*Hərdən Vaqif Bayatlı üçün şeir yazmaq –*
*tək  bircə arzu, istək –*
*canını hər an*
*şeir istəyən canından*
*xilas etmək, xilas etmək!*

***Dünya – hər zaman, hər an ancaq, əbədi İlahi Yol olmuş, yol olacaq***

*Həmişə umudla dol,*
*bu çox azdır,*
*hər an, hər zaman umuda yol,*
*həm də hər an umuda da umud verən ol.*
*Bir gün də duyacaqsan*
*hər zaman sənə ən çox gül dua açan,*
*hər an xəyalən duyduğun,*
*ancaq heç vaxt üzünü görmədiyin*
*bir ürək var, bir ürək, bir can.*

*Beləcə, bir gün sən də duyacaqsan,*
*hər cür çıxılmazdan da çıxmağa*
*hamını xilas edən əbədi İlahi yol var,*
*Tanrını duyduğun anlar*
*o yol, hər an həm ayağın altında olar,*
*həm də başın üstündə,*
*görünməz, ancaq duyular.*

## *Xəbərimiz yox*

*Heç birimizin xəbəri yox –*
*biz gördüyümüzdən*
*daha çox görürük,*
*eşitdiyimizdən*
*daha çox eşidirik,*
*danışdığımızdan*
*daha çox danışır,*
*istədiyimizdən*
*daha çox istəyirik,*
*ancaq ən pisi*
*itirdiyimizdən*
*daha çox itirir,*
*yaşadığımızdan*
*daha az yaşayır*
*öldüyümüzdən daha çox ölürük.*

## *Min il öncə göyüzünün o üzünün divarına yazılmış şeir*

*Çoxuduq,*
*Azadlıq istədik,*
*Azadlıq nəğmələri oxuduq.*

*Ancaq hələ də bu həbsxanada*
*elə bilirlər, biz dustağıq,*
*elə bilirlər,*
*azadlığı da həbs ediblər,*
*daha heç kəs azadlıq istəməyəcək,*
*beləcə azadlıq da bizimlə dustaq,*
*xəbərləri yox ancaq,*
*biz canımızda çoxdan azad etmişik azadlığı,*
*bizim canımız qədər azad deyil*
*bu dünyanın heç bir insanı, heç bir azadlığı*
*hətta heç bir düzü, dərəsi, dağı,*
*həm də biz,*
*həqiqətən də, əbədi dustağıq,*
*ancaq bu həbsxananın yox,*
*əbədi azadlığın dustağı.*

***Dahilər dahisi kimi yaradır bütün insanları Tanrı, onu ən çox sevindirən də yaratdıqlarının yaratdıqları***

*Allah bütün insanları dahi kimi yaradır. Bəlkə də, onunçün ən maraqlısı da insanların öz dahiliyini kəşf etməsi. Onlar bunu necə edəcəklər? Bu, İlahi üçün çox maraqlı.*

*Onlarınsa ancaq tək-tükü bunu edə bilir. Əksi olsaydı, bütün insanlar dahi olardı. Görün onların dahisi necə olardı onda?! Ancaq heç kim Allahın onda yaratdığı dahini sonacan görə, qoruya bilmir, hətta dahi saydıqlarımız da.*

*Mən hiss edirəm ki, İlahi hər an çox istəyir yaratdıqları yaradıcılıqda hətta ondan güclü olsunlar. Bu, əbədi İlahi istəyidir, İlahi marağıdır. O hər an insanı, bəşəriyyəti gücləndirməyə, nədəsə, hətta özündən də güclü etməyə çalışır. Həm də çox istəyir ki, bunu o yox, insanlar özləri etsinlər. Çünki İlahi ən çox yaratdıqlarının yaratdıqlarına sevinir.*

*Elə dünyanı da bununçün yaradıb.*
*İlahini və əbədiyyəti sevindirənlərə daha çox sevindirmələr!*

## *İlahiylə danışmağa son hazırlıqlar*

*Adamlar yaşlaşdıqca,*
*qulaq yoldaşları yox olduqca,*
*daha çox tənhalaşdıqca,*
*daha çox, həm də daha bərkdən,*
*daha çox öz-özləriylə danışırlar,*
*axırda ancaq özü-özləriylə,*
*Həm də elə bil Allahla danışanlar da var,*
*onlarda bu, həm İlahini dərk etməyə,*
*həm də İlahiylə danışmağa son cəhdlər,*
*həm də yerdən göyə son hazırlıqlar.*

### *Şair şeirini hərdən atmırsa zir-zibil atılan yerə, atın o şairin özünü ora, yazığınız gəlsin Şeirə*

*Dünya, ayağa dur,*
*təzə adam doğulur,*
*ağrıyla bələnmiş sevinc,*
*ağrıyla bələnmiş sevgi,*
*qışqıra-qışqıra bəşər doğulur,*
*həm də gör nə təşər doğulur.*

*Dünya, o adamçün bir daha,*
*bir daha ayağa dur,*
*indi də o adamdan şair,*
*o şairdən şeir doğulur,*
*sözlər yarı dovşan, yarı kirpi,*
*yarı meymun, yarı tülkü,*
*yarı şir doğulur.*

*Bir şair ki, nə dovşantək,*
*nə kirpitək, nə tülkütək,*
*nə aslantək çöllərdə*
*göyüzünü üstünə örtüb yatmayıb,*
*şeirlərini özü topa tutub*
*yandırmayıb, zibilliyə atmayıb,*
*o şairin özünü*
*atın zibil yeşiyinə,*
*o, şair yox, şər doğulub.*



**"Mevlevi Dede"**

## *Hərdən elə bilirəm, ölüm yaratdıqlarıyla kiçicik bir Allah zarafatı, Allah zarafatı*

*Hərdən elə bilirəm, ölüm yaratdıqlarıyla*
*kiçicik bir Allah zarafatı,*
*getmiş dostlar gülə-gülə*
*qalxacaqlar bir gün,*
*lap elə bu saat, indi:*
*Hə, nə düşünürdüz,*
*elə bilirdiz, həqiqətən ölmüşük,*
*bu bir zarafat idi.*

*Ölənlər – dostlarını ən çox sevənlər,*
*ölmüş dostlara doğru ən çox tələsən,*
*onları ən çox sevən xanımlar, bəylərmiş,*
*ölüm də onları sevə-sevə dənlərmiş,*
*onlar dostları ən çox ağlatdıqlarıtək,*
*həm də, həm də*
*sonda qalxıb da ən çox sevindirənlərmiş.*

## *Sevgi gülü, eşq gülü kimi güllə*

*Məni yekə bir quş bilən,*
*həm də məndən dostluq diləyən*
*bir sərçəcik deyir mənə:*
*Dimdiyin nə qəribə!*
*Deyir: "Dimdiyini dəyiş,*
*dimdiyində dənin olum,*
*sənlə uçum, sənin olum".*

*Güllədən çox quş var göydə,*
*quşdan çox güllə var yerdə,*
*nə çox quş olmaq istəyən,*
*özünü ox, güllə sayan,*
*həm də gülləni yem bilib*
*göydə gülləyə şığıyan!*

*Məni quş saymır güllələr,*
*hamısı da keçir yandan*
*lap ən axırda bir quşun*
*dimdiyindən düşən dəntək*
*bir damla qan düşür məndən,*
*Qışqırıram: Urra! Qan!*
*Mən də quşam! Əlin, qolun*
*yorulmasın məni vuran!*

*Ancaq sərçə küsüb gedir:*
*Quş olmağına quş olmusan,*
*amma acgöz quş olmusan,*
*mənə atılan gülləyə*
*məndən qabaq tuş olmusan.*
*O güllətək açdı səndə,*
*ancaq ilk sevgi gülütək*
*dəycək açacaqdı məndə.*

## *Min illər boyu*

*Hər iki dünyanın şama bənzər tək şairi, bütün dünya dillərini, şamlarını və şeirini sevgisiylə daha da sevdirən, sevən ürəklərdən dünyanın ən böyük şair titulunu – Şam Şair adını almış Füzuli şeirləriylə sübut etdi ki, Peyğəmbərimizin adını o, bir şeir peyğəmbəri kimi təsadüfi daşımır.*

*Dünyada Türk dilinə paxıllığı olmayan hər bir dilçi bilir:*

*Türk dili dünyada yeganə dildir ki, bu dilin səslənişində ahəng (musiqi) qanunu var, hərdən onun musiqisini pozan isə başqa dillərdən Türk dilinə qonaq gəlmiş sözlərdir.*

*Dilimizi sevməyənlər min illər boyu Türk dilinin gözəlliyini min cür hiyləgərliklə pərdələmək, etiraf etməmək, öz dillərini türklərin, türk ruhunun hesabına gücləndirmək üçün başqa dilləri bizə sırımağa, beləcə də Türkün gücünü azaltmağa çalışıblar. Ancaq Füzuli Tanrı şeiri elçisi kimi Tanrının əsl poetik həqiqətini bizə çatdırdı, ərəb, fars və türk dillərində yazdı və dünyaya da çatdırdı ki, bir Türk ərəb, fars dillərində də o dil yiyələrindən daha poetik yaza bilər, Ərəb və fars dillərində şeirləriylə isə fars və ərəb dillərini onları heç bir zaman sevinə bilmədikləri qədər sevinən edib, onları da türk şeirinə yaxın göylərə qaldırdı. FüzuliTürk o dil yiyələrinin edə bilmədiklərini, əsl Türk səxavətiylə ərəblər və farslarçün etdi. Türk dilində yazan heç bir ərəb, fars şairisə nə qədər cəhd etsə də, Füzuli şeirlərinin heç həndəvərinə də çata bilmədi.*

*Beləliklə, Füzuli təkcə dünyanın ən böyük şairi olmadı, həm də hər iki dünyanın min illər davam edən Türk dili qısqanclığını da, dillər tarixini, bütün poeziya zirvələrini də fəthiylə xoşbəxt etdi, çünki onları yeni aydınlıqlara qaldırdı.*

## *Kitabları ancaq oxumaqçün yox, həm də, həm də doğmalıqdan sevinmələrini görməkçün alıram*

*Kitabları ancaq oxumaqçün yox,*
*onların çiçəklərtək doğmaca,*
*göylərtək səssizcə nəfəs almalarını,*
*yerdə də səssizcə axmalarını,*
*hətta ömründə heç bir kitab oxumayanlara da*
*kitablardakı sevgilərdən də*
                *böyük sevgilərlə baxmalarını,*
*insanlarla ilahi doğmalıqdan sevinmələrini,*
*gülümsəmələrini görməkçün gətirirəm evə.*

*Ancaq hər dəfə gecə işığı söndürüb yatanda,*
*bütün körpələrtək qaranlıqda qəmlənir, ağlayır, susur,*
*hətta, deyəsən, bir az da məndən küsür kitablar,*
*hər səhər onların könlünü alıram bir təhər,*
*mən ən yaxşı şeirlərimi o anda –*
*məndən küsmüş kitabların*
               *könlünü alanda yazmışam.*

*Adam olmayan adamdan,*
         *qəm olmayan qəmdən incidim,*
*ancaq kitab olamyan kitabdan heç bir zaman,*
*mən hər kitabda mənadan qabaq doğma sözlərin*
*əyri-üyrü, ancaq doğma duruşunu, nəfəsini duyuram,*
*mənim canımda da eləcə bir-birinin yanında,*
*bir-birindən doğma durur, nəfəs alır o sözlər, o canlar,*
*o sözlər, canlar başqa şəkildə duranda,*
*mən zalımın yox, başqa zalım dünyaların,*
                *başqa zalımların olurlar onlar.*

## *Mənə doğma şəkildə duran hərflər*

*Kitabları daha çox oxumaqçün yox,*
*evin bir küncündə*
*onların varlığını, nəfəs almalarını*
*duymaqçün alıram,*
*onların arasında çoxlu dost, qardaş kitablar var,*
*lap elə dünyadakı adamlar kimi*
*çoxunda mən dost görürəm,*
*ancaq dünyadan fərqli*
*düşmən kitab olmur heç vaxt,*
*hər kitabdan heç olmasa*
*hansısa hərflərin yan-yana*
*doğma duruşunu duyursan,*
*çünki sənin dilində*
*bir-birinin yanında*
*ancaq sənə doğma şəkildə durur o hərflər,*
*başqa şəkillərdə duranda*
*başqa dilin doğmaları olurlar onlar.*

## *Özündən daha ağıllı, daha güclü*

*Hər an, hər zaman*
*günahını,  suçunu duya,*
*hətta üzr istəyə bilirsənsə,*
*demək özündən də güclüsən hər an,*
*ağılsız anlarını da hiss edirsənsə,*
*deməli, həm də*
*özündən daha ağıllısan.*

## *Sonsuz ucalış*

*Qızlar, qadınlar,*
*xanımlar, xatınlar,*
*ürəklərin göyüzündə*
*ən uca kişidən də*
*ucasınız hər biriniz,*
*cünki Allahın ürəyində də*
*hamıdan ucadadı*
*kişilərdən daha ürəkli, eşqli yeriniz,*
*ancaq bilin, siz ucaltdıqca ucalırsınız,*
*sevdikcə, sevdirdikcə sevilirsiniz*
*Allah hərdən kişiləri də ucaldır,*
*Siz də, siz də Allaha baxın,*
*kişiləri də ucaldın,*
*bilin, hər an kişisini ucaltdıqca*
*kişisinin ürəyində, başı üstündə,*
*belində, kürəyində,*
*həm də Allahın yanında*
*hər an kişisini ucaltdığı qədər*
*ucalır hər bir qadın da.*

## *Kim təptəzə kəndirlə, kim də çox kasıb dolanır*

*Kim hər gün ölə-ölə,*
*kim özün asıb dolanır,*
*kim təptəzə kəndirlə,*
*kim də lap kasıb dolanır.*

*Kəndirini ətirləyib,*
*boynunu da ütüləyib,*
*kətilini itələyib,*
*anayurtdan, anadərtdən*
*ayağın üzüb dolanır.*

*Kəmənd görsəniz, kəsməyin,*
*"O həm ov, həm ovçu" – deyin,*
*ilk ovudu ovçu bəyin –*
*öz boynuna kəmənd atıb,*
*ömrünü kəsib dolanır.*

*Qoca kimi qocalmayıb,*
*gənc kimi də gənc olmayıb,*
*yerdə bir gün dinc olmayıb,*
*şükür, kef çəkir indi –*
*daha bəyənmir yeri,*
*göydə gəzib dolanır.*

## *Allahın ətəyinə gedən ən parlaq, ağappaq haqq yolu*

*Afrika –*
*Allahın parlaq gözlərdən,*
*Qara, parlaq başlardan düzdüyü,*
*ancaq Allah bilir*
*haradan hara yolu,*
*bəlkə də, demək olar –*
*göyü aşıb*
*Allahın ətəyinə gedən dünyanın*
*ən parlaq, ağappaq haqq yolu.*

## *Allahın hər an təzələdiyi, hər an ucaltdığı Eşq*

*Allahın sevgiylə yaratdığı*
*hər bir varlığın ruhu, canı*
*hər an Allaha doğru ucaldır onu,*
*həm də o ruh, o can Allahçün*
*İlahi Eşqin yaratdığı Əbədiyyətin*
*daha bir bitməz sonu.*

## *Göyüzündə Tanrının ayaq səsləri çiçəklərin açması səsləritək*

*Tanrım, adam, heyvan, ağac, quş da,*
*hətta hamıdan az danışan daş da*
*duyuram hər an səssizcə "Tanrım" – deyir,*
*hamı hər an səndən*
*canının salamatlığını istəyir,*
*mən də bütün kainat dəlisitək*
*hər an, gecə, gündüz*
*göyü, kainatı dinləyirəm,*
*bu boyda kainatı saxlamaqçün*
*adi bir  əzabkeşintək zaman-zaman*
*bu aciz gülməli canımla*
*sənə kömək etməyə çalışıram hər an.*

*Tanrım, gecə-gündüz gəzdiyin*
*göyüzünün ulduz çəmənliklərini,*
*hər an yeni bir Tanrı çiçəyi açan çiçəkliklərini*
*hər an sağ elə, salamat elə,*
*bütün dünyanı həm də hər an*
*öz qucağıntək hamıya doğma, rahat elə.*

*Qoy dərtdən, qəmdən bişmiş ruhlar,*
*Hətta ruhdan düşmüş ruhlar,*
*hər an baxışıb bir-birinin gözlərini yoxlasınlar,*
*sənin min illər uzaqlardan*
*hər an yaxınlaşan addım səslərini,*
*addım səslərinin çiçək qoxusunu*
*əbədi eşqin səsi, qoxusutək*
*min illər öncəsindən dinləsinlər, qoxlasınlar.*

## *Hər bir qəlb də kainat kimi olmalı*

*Hər bir qəlb də kainat kimi olmalı –*
*işıq dolu, nur dolu, ulduz dolu,*
*İlahinur, İlahiüz, İlahisöz dolu,*
*həm də kainat kimi*
*hər bir qəlb də qəlp olmamalı.*

## *Gülümsəyən doğma üz*

*Dünyanın çox bənzətmələri var,*
*ən yaxşısı məncə,*
*dünya güzgü kimidir,*
*hər an ona gülümsəsəniz,*
*elə o da o anda sizintək*
*ən doğma üzlə sizə gülümsəyəcək.*

***Qəmli çiçək üzlərdə illərlə yumrulanıb***
***hər an Allaha baxan***
***göyüzündən də uzun kirpikli,***
***göy çiçəyi qoxulu göz yaşı***

*Gözlərini çiçək açantək açan gözəl üz,*
*mən səni yenidən sevməkçün hər an, hər çağ,*
*sevdim, həm də hər an yenidən unutdum ancaq,*
*sən də, sən də hər an məni*
*yenidən sev, yenidən unut,*
*həm də hər an yenidən sev*
*hər an yenidən unutcaq.*
*Bu dünyada nə çox sevən var, sevilən var,*
*həm də ən çox sevənlər ən çox unudulanlar,*
*həm də dünya elə tez keçir,*
*hətta heç unudulmazlar da unudulur,*
*mənsə sevdim bütün sevib unudulanları,*
*həm də tək insanı yox,*
*sevib unudulan çölü, göyü, dənizi, dağı, daşı,*
*hamısının gözündə də səni gördüyümtək,*
*qəmli çiçək üzlərdə illərlə yumrulanıb,*
*hər an gülümsəyib Allaha baxan,*
*hər an daha gözəl çiçəklər açan*
*göyüzündən də uzun kirpikli,*
*çiçək qoxulu göz yaşı.*

## *Hansınız tez gəlsəniz*

*yatağa girirəm,*
*tir-tir əsirəm,*
*narım, gilənarım, səni,*
*deyəsən, bir az da ölümü gözləyirəm,*
*hansınız tez gəlsəniz,*
*daha çox sevgi göstərsəniz,*
*onunla gedəcəyəm.*

## *Tibb elmi deyir: düşünən ürək yox, ancaq, ancaq beyin, əziz tibb elmi, ürək də düşünür, əl, ayaq, üz, göz də, bütün can, candakı, ruhdakı dağ, düz, göy, hətta söz də*

*Hər adamın canında, ruhunda dağı, düzü,*
*hətta okeanı, dənizi, göyüzü də var,*
*bizimkilərin canında ən çox Araz, Kür, Xəzər*
*onların üçü də*
*hər adamımızla bir deyər, bir gülər,*
*hətta bizimtək lağlağı eləyər, ağrıyar, gəzər,*
*bunu mən deyirəm,siz də deyin,*
*tibb elmisə də deyir yenə:*
*düşünən ürək yox, ancaq beyin,*
*mən də deyirəm yenə tibb elminə:*
*əziz tibb elmi, tək beyin deyil, ürək də,*
*əl, ayaq, bel, kürək də düşünür,*
*həm də hər insan canındakı*
*dağ, düz, göy, dəniz düşünür,*
*həm də kimin ürəyi, canı nə qədər gözəlsə,*
*beyni də, bədəni də, çayı, dənizi də*
*o qədər gözəl düşünür,*
*həm də tək adam özü yox,*
*daha çox qəlbindəki gözəllik,*
*qəlbindəki çirkinlik, qəzəb, kin düşünür,*
*kinli, qəzəbli adamların ruhu da yenə*
*bu dünyadan gedəndə gül göyə yox,*
*düşür göyün, kainatın*
*düşən kimi də yox olan kinli ruh zibilliyinə.*

## *Əbədiyyətdən əbədiyyətə*

*Bir an da dayanmadan, durmadan,*
*Allah düzən sırayla*
*nizamla addımlayır qarışqalar,*
*siz öldürməsəniz,*
*işləməkdən heç ölməyə də*
*vaxtları yoxdu onların,*
*həm də hər cür ağır yükə*
*çox rahatca dözür qarışqalar,*
*əbədiyyəti əbədiyyətə daşıdıqlarıyçün*
*onları əbədiyyətdən əbədiyyətə düzür Allah.*

## *Əbədi yaşayıb əbədiyyəti yaşadanlar*

*Vətən uğrunda ölmürlər,*
*tək düşməni yox,*
*ölümü də dibsiz uçurumtək keçir,*
*əbədiyyətə aşırlar,*
*həm də onlar hər biri*
*əbədiyyətə təzə can verib,*
*əbədiyyəti də cavanlaşdırır,*
*əbədiyyət onları yox,*
*onlar əbədiyyəti də əbədi yaşadırlar.*

## *O, əbədiyyətdən də böyük*

*Siz deyən, yazan boyda deyil Azərbaycan,*
*O, əbədiyyətdən də,*
*zamandan da böyük bir An –*
*Vətən bitmir heç bir zaman,*
*dövlətin sərhədləri olur,*
*Vətənin sərhədləri yox,*
*kainatın sonunacan uzanır Vətən.*

*Dünyada hər şey tükənər,*
*hər şey sona yetən,*
*təkcə Vətən bitməz,*
*onu ölçməyə də*
*dünyanın bütün insanlarının*
*addımları da, ölçüləri də yetməz.*

## *Adamın çəlləyə, əlin qartala döndüyü an*

*Həm bir yerdə, həm də tək-tək*
*hər bir söz, hər bir kəlmə –*
*hər biri bir ayrı nəğmə,*
*duyub oxuyan gərək.*

*Anı gəldi, zamanı gəldi,*
*hər bir söz, hər bir kəlmə*
*hər biri bir ayrı ilmə,*
*xalısını, xalçasını*
*derib toxuyan gərək.*

*Ağzına yiyə durmayan*
*"Bir sözdü, dedim", – deyən an*
*o ağıza şığıyan,*
*onu çəllək deşiyitək*
*tezcə tıxıyan gərək.*

## *Tanrım, ləzzətlə gülə bilmirlərsə, heç olmasa, barı, ləzzətlə ağlaya bilən elə adamları*

*On beşimdə mənə əl eləyən buludlara atlanmaqçün*
*burnu burnumda olan buluda oxuyurdum hər gün:*
*Mənim də burnumdan tut,*
*məni də qaldır göyə, burnu ala-bula bulud,*
*elə qalxcaq da göydə ən ucada məni unut, məni unut,*
*ən ucada unudulan eşq həm də hər an*
*hər yerdən unudulmaztək görünən tək umud, tək umud.*

*Bir gün bir çiçək göyü uçdu qondu mənə,*
*elə qonan kimi də məni qaldırdı o çiçəyin göyüzünə,*

*Mən o göyüzündə sevincdən, ürəkdən,*
*qayıdanda yerüzündə gerçəkdən ağlayırdım,*
*əsl ağlamağın da ləzzətini onda bilmişəm ancaq,*
*İndi deyirəm, İlahi, bu dünyada hər an, hər çağ*
*ləzzətlə gülə bilmirlərsə, heç olmasa, barı,*
*ləzzətlə ağlaya bilən elə adamları.*

*Ancaq Tanrım, nədən bizə verdiyin*
*bu uca ruha, bu uca eşqə*
*verdiyin bu göy, bu kainat*
*bu qədər kiçik, bu qədər balaca,*
*üzü göyə ləzzətlə, eşqlə bir balaca ağlamağa*
*yağa bilməyən buludların ən qocası bu buludlu qoca.*

## *Bütün böyük həqiqətlər hər biri tək-tək həm də, həm də böyük yalan demək*

*Kainatın o baş-bu başına var-gəl etsək,*
*dərindən düşünsək,*
*bütün böyük həqiqətlər*
*həm bir yerdə, həm də tək-tək,*
*hər biri hər an böyük həqiqət,*
*həm də, həm də hər an böyük yalan demək,*
*həm də böyük həqiqətlər,*
*həm də böyük yalanlar olmasa,*
*onların ləzzəti də qaçar tək-tək.*

## *Ağrıdan qorxma, ağrıyla ruh təzələnir, insan təzələnir, can təzələnir*

*Bir can durmadan ağrıdı,*
*hər an sızladı, ağladı,*
*bil, canın ağrıması*
*o canda nəsə elədiyin bir qələtdi,*
*həm də o canda artıq nədənsə*
*xilas olmağa bir fürsətdi,*
*bacarsan belə ağrıları*
*öz canından çözələ,*
*ruhun köhnə paltarıtək at getsin,*
*çalış tezcə canını təzələ.*

*Əslində ağrı yoxdu,*
*canın bədənlə*
*hərdənbir məzələnməyi,*
*həm də sapı qaçan paltartək*
*canın bədəndən*
*bala-bala çözələnməyi var ancaq.*

*Hərdən can ağrıdıqca,*
*ağarmasın bətnin, bənizin,*
*can dediyin elə əsl candı –*
*xanım yerişiylə, həzin-həzin çözələnir,*
*qorxma, bu həmişə son deyil,*
*can ağrısıyla həm də ruh təzələnir,*
*insan təzələnir, can təzələnir.*

***İki minarə arasından əzanı dinləyə-dinləyə, gözlərində yaşlar görünən göyləri göydə diz çöküb əbədi görünməz göylərə yola salar quşlar***

*Şəhərin bir yerindən, zaman-zaman*
*günəş yatmağa gedir iki minarə arasından,*
*gedir, yarı yorğun, yuxulu yarı,*
*o getdikcə əzan səsi qalxır*
*arabir bizə də baxan əbədiyyətə sarı.*

*Əbədiyyət tərəflərdə –*
*Göyüzünün o ən ulduzlu ətəyində,*
*adamdan çox ruhi quşlar yaşayır,*
*yerə, göyə, hətta sözə də quşlar baxır orda,*
*orda quşlar da qalxır əzan qalxan anlar,*
*o anlar əzanı qalxa-qalxa, uça-uça*
*Allaha daha yaxın göydə dinləməyə çalışır onlar,*

*Bəzi anlar əzanın bir yerində,*
*elə bil göyüzündə uçmurlar, dururlar onlar,*
*hətta əzanda Allahın adı gələn yerləri*
*ən qəlbi göyüzündə, diz üstdə dinləyirlər elə bil,*
*əzanı dinləyə-dinləyə sonrakı anlar*
*əzanın hər bir səsini, sözünü həm özlərinin,*
*həm də səslərin, sözlərin gözlərində yaşlar*
*görünən göyləri görünməz göylərə yola salırlar onlar.*

## *O ahın, o silahın əlində o anda açılar o adam*

*Cibində silahı,*
*ürəyində ahı olan kəs*
*o ahın, o silahın varlığını hər an duyar,*
*ancaq hər bir insanın*
*öz dünəni, bu günü, sabahı,*
*həm də özündən asılı olmayan anları var,*
*o anlarda o adam kiməsə, harasa*
*tuşlaya, çəkə bilər o ahı, o silahı.*

*Bir gün də o ah, o silah ikisi də birdən*
*çəkər o adamı, tuşlayar sabaha,*
*ikisinin də əlində birdən açılar o adam,*
*açılcaq da yerə yıxılar o silah,*
*o adamın canından*
*göyə, Allaha doğru uçar,*
*göyüzünə yıxılar o ah.*

## *Yeni dünyayçün təzələnmək*

*Bir yerin ağrıdı,*
*ağrıdı, ağrısın da,*
*qorxma heç zaman,*
*ağrı çox, canın təkdi,*
*ağrının da işi peşəsi*
*adamla məzələnmək,*
*bir az ağrıdıb, qorxudub,*
*canı çözələməkdi.*

*Ölümdən də qorxma,*
*ölüm ancaq, ancaq*
*daha doğma bir dünyaya uçmaq,*
*bədəninlə yerüzünü,*
*ruhunla göyüzünü qucmaq,*
*sevginlə hər iki dünyanı bəzəmək,*
*ruhunla, canınla,*
*hər iki dünyanı təzələməkdi.*

## *Ana və əziz bəlasının əziz balası*

*Ana hətta ən ağır dərddən də, qəmdən də*
*keşikçi, qoruyucu düzəldər balasına,*
*balasını qorumaqçün ana*
*hətta onun bəlasını da əzizlər,*
*əzizləyə-əzizləyə balasını elə sevdirər,*
*elə sevdirər bəlasına,*
*doğma sevgiyə çevrilər doğma bəla da,*
*doğma bəla daha heç vaxt batmaz o balaya,*
*əksinə, qoruyar onu,*
*bəla qoruyandan sonra kimsə bata bilməz o balaya*
*hətta bu dünyanın ən güclüsü, ən ası da,*
*çünki hər an o balanın keşiyində anası da,*
*o bala üçün hər an Allaha dua edən,*
*onu anasından da çox əzizləyən, qoruyan bəlası da.*

***Çiçəyə çevrilə bilmirsinizsə, bunu da gözəl tale bilin – ən gözəl çiçəyi qoruyan ən gözəl tikana çevrilin***

*Hər bir qız tez-tez duyur –*
*onu çiçək kimi yaradıb Tanrı,*
*ona görə o da*
*hər an çiçək kimi açılır*
*üzü Tanrıya sarı.*

*Sizsə, oğlanlar,*
*canları hər an çiçək qoxuyan,*
*çiçəyi qoruyan*
*igid tikana çevrilin,*
*çiçək qoruyan tikanlar*
*çiçəklərdən də ətirli olur*
*çiçəklərdən də çox sevən anlar.*

## *Göyüzünün onun ayağı altına gəlməyi*

*Ruhlar ucaldı getdi,*
*gözlər yaşa oxşadı,*
*hamı qocaldı getdi,*
*təkcə o qocalmadı,*
*yaşadı, quşa oxşadı.*

*O heç zaman uçmadı,*
*qanadlarıyla yeridi,*
*qanadlı yeriyən görüb*
*anaların qucağında*
*hönkürən daşlar,*
*ağlayan quşlar kiridi.*

*O, göyə baxmadan nəsə*
*göylər haqda oxuyurdu,*
*həm də hər gün hər göy üçün*
*daha gözəl, daha təzə*
*göyqurşağı toxuyurdu.*
*Bir gün gördü, toxuduğu*
*göyqurşağı deyil, nəsə*
*bu dünyada hər şeydən*
*daha gözəl, daha təzə,*
*həm elə bil görünür*
*həm də görünmür gözə.*
*O indi ağlayırdı,*
*O oxumurdu daha,*
*həm də, həm də bilmirdi*
*göz yaşlarının səsi*
*çoxdan çatıbdı Allaha,*
*həm də bilmirdi,*
*Tanrı*
*Tanrıqurşağı deyibdi*
*toxuduğunun adına,*
*o qurtarcaq, bir göyüzü*
*enib gələcək göylərdən*
*onun ayağı altına.*

## *Hamı...*

*Allah hərdən adamlara bir az da tanrılıq verib,*
*hamını olduğundan daha gözəl görünmək,*
*danışa bildiyindən daha ağıllı danışmaq,*
*sevə bildiyindən daha çox sevmək,*
*həm də xoşbəxt ola biləcəyindən*
*daha çox xoşbəxt olmaq üçün yaradır.*

## *Böyüklük böyüklüyü tanıyır, kiçiklik kiçikliyi, xanım xanımı, bəy bəyi, söz sözü, şeir şeiri*

*Bu dünyada elə görən kimi*
*böyüklük böyüklüyü tanıyır,*
*kiçiklik də kiçikliyi,*
*elə Söz də Sözü,*
*Şeir də Şeiri.*

*Böyüklük böyüklüyü tapdıqca,*
*dünya daha da böyüyür,*
*ən aşılmaz ucalıqlar da aşılır,*
*kiçiklik kiçikliyi tapdıqca, dünya kiçilir,*
*hər yerə ancaq əyilərək,*
*qısılaraq keçilir.*

*Söz sözü,*
*şeir şeiri tapan anda*
*söz də, şeir də deyir:*
*hər an hər şey*
*yerin balası kiçikliklərlə kiçilir,*
*göyün balası böyüklüklərlə böyüyür.*

***Bu dünyada hər bir insan, hər bir ölkə, xalq, haqq, ruhunda oyanacaq hər bir dəli ana hər an oyaq.***

*Kim deyəcəksə, məndə dəli anlar yox, demək onda daha çox,*
*dəlilik bu dünyada kimdə açıq,*
*kimdə də gizli də olsa da, amma*
*bir az az, bir az çox hamıda var,*
*həm də gizlicə hamıya doğma,*
*o hərdən çox duyulmasa da,*
*həmişə hər bir insanın,*
*hətta hər bir ölkənin, dövlətin, xalqın,*
*hər bir canın heç olmasa, bir azca dəliliyi var,*
*hətta o ölkə tarixinin dəli anları da.*

*Ancaq dəli bənzəməz dəliyə – hərənin ayrı bir dəliliyi,*
*böyük dövlətlərin böyük, kiçik dövlətlərin kiçik,*
*şahın şah, nökərin nökər, şairin şair dəliliyi,*
*hətta ən məşhur qəhrəmanımız –*
*Koroğlu da dəli deyirdi igidlərimizə,*
*qələt eləyir başqa xalqlar: dəlilik hamıdan doğma bizə,*

*Çox dövlətin tarixində çox dəli anlar bir gerçək.*
*O dəli anlar, kim daha çox ağıllıysa yox tək,*
*həm də ağıllı olduğu qədər də dəliysə daha haqq,*

*o yarı dəli, yarı ağıllı tarixdə, taxtda da ancaq,*
*o tarixə bənzər yarı ağıllı, yarı dəli biri oturacaq.*

*Beləcə, ölkəmiz ağıllılıqda da, elə dəlilkdə də*
*dünyada ən zəngin bəlkə –*
*Koroğludan üzü bəri hətta*
*dəliliklə fəxr edən tək ölkə.*

## *Yaşamaq çox kiçik hərflərlə*

*Bəzən hər yerdə idarə edənlər sözünü*
*çox kiçik hərflərlə yazmaq,*
*hərdən də hətta bu sözü*
*qışqırmaqdan da uca susmaq istəyirəm.*
*Ancaq sözü necə susmaq olar?!*
*Həm də görürəm bunu yazarkən,*
*bütün sözlər qəmli-qəmli baxırlar mənə -*
*dostumuzun beyni dəbərib yenə.*

*Məni bağışlayın, sözlər,dostlar,*
*Sizi çox incitdim ömrüm boyu,*
*əslində, adam özünü öldürməkdən yazanda da,*
*hətta özünü asanda da tək özünü asmır,*
*özünün həm hökm verəni,həm tamaşaçısı,*
*həm cəlladı, həm də qurbanı olur,*
*həm də hətta ölümü düşünərkən sözlərə əzab verir,*
*ancaq özünü asıb, özünə ölüm fərmanı vermək,*
*həm də özünün cəlladı olub günaha batmaq,*
*üstəlik də sözlərə də əzab vermək,*

*həm də kimlərinsə hökmüylə asılıb*
*hökm verənləri də, asanları da cəllad eləmək,*
*günaha batırmaq hamısı zor, hətta günah,*
*elə ona görə də özünü öldürməyin*
*bircə əbədi yolu qalır bundan belə:*
*yaşamaq hələ,*
*yaşamaq çox kiçik hərflərlə.*

***Bu dünyada hamıdan çox pullar, həm də yollar bilir bunu:
pulu olan pulunun qulu, pulu olmayan pulsuzluğunun***

*Bu dünyada hamıdan çox pullar,
həm də pula aparan yollar bilir:
pulu olan pulunun qulu,
pulu olmayan pulsuzluğunun.*

*Çox adamı çox vaxt çılpaq görən pullar
həm də hamıdan çox bilirlər
pullu qulların yeridiyi hər yerdən,
hətta yerişlərindən də pul xışıltısı,
həm də pullara da çox xoş gələn
qul xışıltısı eşidilir hərdən.*

*Pulsuz dahi dərdlərin yerişisə,
bir az da qəmli  əbədiyyətin yerişitək,
həm də kainatlararası ən uca qəmin,
ən uca fikrin hələ kəşf olunmamış
daha gözəl bir kainata yürüşütək.*

## *Göyüzü də, dəniz də, dağ da, duman da, hətta dünya tarixi də darıxır eyniliklərdən*

*Ən sıx duman da, çən də*
*hər dəfə daha gözəl, daha şux geyinib*
*yerdən göyə keçməkçün*
*ən şax dağa doğru yüyürür,*
*həm də ən ucaları aşdıqca elə bil*
*duman da, çən də, elə zaman da böyüyür.*

*Ən ağır dərd də, qəm də ən sıx dumantək,*
*zamantək insana gəlib, insana çəkilsə də,*
*çəkilən dalğalardan zaman qayalarda qalantək*
*böyük dərdlərin şırımları dünyanı, insanı alır,*
*böyük zamanların dağıntıları, uçurumları,*
*min illərlə xalqların, həm də Allaha yaxın*
*tək-tək böyük adamların ruhunda qalır.*

*Onun dalınca da yeni zaman gəlir,*
*gələn zamanın insanı köhnə zamanın canlarda*
*oyduğu oyuqları doldura-doldura, dönə-dönə,*
*onları Baba Vaxt kimi bir az doğma bilir,*
*bir az da yad özünə.*

*Dünya tarixi də darıxır eyniliklərdən,*
*dünya qaynadıqca qaynıyır o da,*
*qaynayan çox canda eyni anda gedir*
*qaynayan su kimi özü özünü, öz tarixini aşma –*
*həm doğmalara yadlaşma,*
*həm də yadlarla doğmalaşma.*

## *Əslində biz hər birimiz*

*Əslində biz hər birimiz,*
*həm ölümüz, həm dirimiz,*
*hər iki dünyamızdan*
*illər, əsrlər keçdikcə*
*çox şeyi bilmədən bilmiş,*
*anlamadan anlamış,*
*ağlamadan ağlamış,*
*gülmədən gülmüş,*
*yaşamadan yaşamış,*
*ölmədən ölmüş kimiyik.*

***Heç bir zaman fəth olunmayan zirvə, heç bir zaman fəth olunmayan dərinlik***

*Şeir yazıram,*
*aram-aram qalxıram sözə,*
*enirəm sözə aram-aram,*
*hərdən elə bilirəm,*
*heç kimin qalxmadığı, enmədiyi qədər*
*çox qalxmışam, enmişəm,*
*elə bil, bir az lovğalanıram, hətta,*
*daha fəth etməyə bu dünyada*
*söz qalmadığını duyurmuş kimi oluram,*
*o an ancaq ölümü də fəth edən Sözə baş əyirəm,*
*ancaq elə o an da*
*əbədi Sözün tək zirvəsinin yox, dibinin də hətta*
*heç zaman fəth olunmayacaq,*
*əbədiyyən fəth olunmamış qaldığını duyuram.*

## *Zamanın, zaman qırığının şeiri*

*İlahi dünyası heç bir anda bitmədiyitək*
*İlahidən gələn*
*əbədiyyət şeirləri də heç bir zaman bitməz,*
*o şeirlər də əbədiyyəttək*
*hər an yeni, hər an diridi,*
*şeir bitirsə əgər,*
*o artıq əbədiyyətin yox,*
*heç ədəbiyyatın da yox,*
*ən yaxşı halda*
*balaca bir zaman qırığının şeiridi.*

## *Hər an təzələnən əbədiyyətə uçuş*

*Hər an yeni gözəlliklər yaratmağı sevən Tanrı da*
*Gözəl insanların canında*
*hər an təzələnən öz gözəlliyini duyar,*
*duyduqca da hər gözəllikdə bir Tanrı gözəlliyi,*
*Tanrı çiçəyini açar,*
*duyduqca, açdıqca da*
*gözəlliklərə hər an İlahilik qatılar,*
*hər an təzələnən,*
*çiçəktək açılan qanadlarıyla,*
*o insanlar daha təzə gözəllikləriylə,*
*hər an daha yeni,*
*daha təzə çiçəkləriylə*
*hər an təzələnən əbədiyyətə uçar.*

## *Göyüzünü, bütün kainatı hörənlər –*
## *hörgü yerinə canlarını,*
## *palçıq yerinə qanlarını,*
## *göy yerinə eşqlərini qoyanlar*

*Əbədiyyətə, hətta hər bir ana*
*canlarından can verən canlar,*
*hər iki dünyanı qurarlar,*
*hər iki dünyaya yaraşıq*
*əbədi canı qurarlar.*

*Onlar hər an Allahın*
*görünməyən əllərini*
*hər yerdə duyub görərlər,*
*o əllərlə birgə onlar*
*lap elə göyüzündə də*
*hamını hamıya sevdirən*
*Tanrı Eşqini hörərlər.*

*Eşqli daş çatmayan anlar*
*ora eşqli başlarını,*
*palçıq çatmayan anlar*
*palçıq yerinə qanlarını,*
*yaranan cansız görünsə,*
*eşqlərini verər onlar.*

*Durmadan əbədi Eşqtək*
*göyü eşqdən hörə-hörə*
*kainatın başı üstdən*
*bir-birinə baxar onlar,*
*həm də bütün kainata*
*gülümsəyən üzləriylə*
*gün yerinə, ay yerinə,*
*göy yerinə qalxar onlar.*

## *Hər bir uşaq həm hamıdan dünyanı öyrənir, həm də hamıya dünyanı sevməyi öyrədir*

### *Yıxılarkən özündən başqa hamıya dua çiçəkləyən körpə*

*Mən bütün bunlardan sonra anladım, İlahi, şeir, kitab, söz yoxumuş, yerüzündən göyüzünə min bir yana, hamısı da Sənə doğru sonsuz yollar, sonsuz uçuşlar, sonsuz sevgilər varmış ancaq.*

*Həm də anladım, qanad açmağa, səs oxumağa, söz yazmağa, insanın özüyçün duası Allaha mane olur. Həm də insan özü duymadan kainatın qıraqsız qırağında, göyüzünün yıxılan, axan bir yerindən heç vaxt görmədiyi bir qəribə körpə varlıq hər an dönə-dönə dua edir hər bir varlığa ... Həm də o sevgili körpə elə bilir dua edən Allah özüdür, o isə ancaq duanın hər insançün hər an bir ayrıca oxunduğunu duyur və buna sevinir. O körpə əbədi kainatın əbədi körpəliyi, hamımızın körpəliyidir, həm də Tanrının Şeiri.*

*Yıxılarkən o körpətək özündən başqa hamıya dua açıb sevinənlər, bütün dünyanın üstündə duaları göyüzünə bənzər, çiçəktək açılanlar, Sizinçün sonsuz göyüzünə sonsuz yollar, sonsuz uçuşlar, sonsuz sevgilər, sonsuz Tanrı Şeirləri.*

## *Mən Sizi hər iki dünyanı da aşıb gələn ətrinizdən tanıyıram*

*Tanrımızın yaratdıqları,*
*mən sizi təkcə Tanrının əsəritək sevmirəm,*
*həm də ruhum bir az, bir az*
*bu dünyadan qalxdıqca,*
*hər iki dünyada da*
*hər an sizə doğru gəlirəm,*
*məndən ötrü darıxan, məni gözləyən*
*hər iki dünyadakı ruhlar, sözlərçün ölürəm.*

*Əslində mən hərdən*
*heç bilmirəm, hansı dünyadayam,*
*deyəsən, həm orda, həm də burdayam,*
*həm də bilmirəm daha hardayam,*
*mən sizi hər an yavaş-yavaş, aram-aram*
*hər iki dünyadan da qoxlamaqdan,*
*hər iki dünyanı da aşıb gələn*
*iki dünyanın ətri qarışıq*
*ətrinizdən tanıyıram.*

## *Qarışqalar*

*Milyardlarla adam...*
*hamının başı üstündə,*
*heç kimin görmədiyi,*
*ancaq hamını,*
*hətta milyardlarla qarışqanı*
*bir-bir görən Allah var.*

*Həm də dünyanın hər yerində*
*Allahlıq iddiasında olan,*
*heç Allahı da tanımayan*
*milyonlarla adam var,*
*həm də onlara qarşı yanan*
*Allahın ağzı dualı*
*minlərlə cəsur şamı var,*
*həm də, həm də*
*hər yerdə adamların ayaqları altında,*
*hətta ayaq altda qalanda da*
*Tanrı yazan sıranı pozmadan*
*dünyanı aşmağa gedən qarışqalar.*

*Allahın səbrinin çox səbəbi var,*
*Allah həm də ona görə səbrlidir:*
*hər an əlində hamıdan səbrli*
*hər iki dünyanı da aşmağa gedən*
*qarışqalardan təsbehi var.*

## *Göyüzündə öz-özünə gülən ulduz, deyən dünya yenə harda olduğunu bilmədiyinçün gülməli gəlir sənə*

*Göyüzündən Baxan*
*həm də yenə hər an*
*elə yanımızda durub baxırdı bizə,*
*onun göyüzündə hamı*
*sonsuz dünyanın sonsuz axarı,*
*həm də hamı özü özündən aşağı,*
*həm də özü özündən yuxarı.*

*Bütün sözlərdən lap aşağıdasa,*
*dünyanın dahi olmayan sonuncu şairi*
*həm də dərddən gülən ən sonuncu şeiri,*
*həm də hər gün canındakı gülməli yeni bir  dərdə -*
*hər gün özünə cavab verib*
*o cavaba sual tapa bilmirdi, heç bir yerdə,*
*adını soruşanda da deyirdi:*
*deyirlər, mən oyam,*
*deyirlər, deyəsən, mən başqa dünyadanam,*

*deyəsən, həm də bu dünyadayam,*
*bəziləri deyir, mən yoxam,*
*bəziləri də deyir, çoxam,*
*belə çıxır, yoxluq elə çoxluq demək.*

*Göydə tək-tənha öz-özünə gülən ulduz,*
*deyən,  dünya yenə –*
*harda olduğunu bilmədiyinçün*
*bir az da şairanə gülməli gəlir sənə.*

***Sən dəqiq bilərsən, ey böyük əbədiyyət,***
***nədən bölməyə belə həvəsli bu millət?!***

*Nədən, nədən, ey böyük əbədiyyət,*
*bölməyə bir belə böyük həvəsli*
*bu balaca millət?*
*Nədən elə hey bölür o?!*
*Başqa millətlər dünyanı bölürkən*
*özü-özünü bölür O,*
*bölür bölgə-bölgə, kənd-kənd,*
*məhlə-məhlə,*
*yenə ürəyi soyumur,*
*bölür ev-ev, çəpər-çəpər,*
*hin-hin, tövlə-tövlə.*

*Bölməyə*
   *yaman həvəslidir bu millət,*
*bu millət elə hey bölür,*
*elə hey bölür,*
*– Daley, daley, ədə, balam,*
   *bu millət də belə ölür.*

## *Şeytan hər bir insanın canında onun ekiz tayı*

*Yenə də elə bil şeytan*
*bu dünyaya qaytarmaq istəyir məni,*
*elə bil deyir, ay dəli,*
*elə bilirsən mən özbaşınayam?*
*Mən nə eləyirəmsə,*
*mənə də Allah deyir,*
*deyirəm, gör nə bicliklə*
*ələ alır məni şeytan,*
*guya ki, onunla*
*Allah yoxlamaq istəyir bizi,*
*şeytan əslində hər an*
*hər bir insanın canındadı,*
*hər bir insanın ekiz tayı,*
*bu dünyaya tamah salıb*
*istədiyi, yediyi,*
*kimimizin ton-ton,*
*kimimizin qram-qram payı,*
*bu dünyadan qopardığı,*
*sevinə-sevinə qəbir evinin göyüzünə*
*dimdiyində apardığı haram payı.*

## *Ölüm də kömək eləmədi ölməyə*

*Ölmək istədim, ölümə dedim:*
*Dostum, gəl kömək elə ölməyə,*
*Ölüm də gəlmək istəmədi,*
*dedi: vəziyyətini yaxşı bilirəm,*
*həm də biz siz istəyəndə yox,*
*özümüz istəyəndə gəlirik,*
*hərdən öldürməkdənsə,*
*gözlətməyin ləzzəti daha çox,*
*hamını istədiyi anda öldürsəm ancaq,*
*ləzzəti mən yox, ölənlər alacaq.*

## *Dünyadan düşdüklərindən xəbərləri olmayanlar*

*Çox bəndə də çox zaman*
*düşər bu dünyadan,*
*heç nəyi veclərinə almadan,*
*ancaq elə bilərlər yenə fırlanırlar,*
*bu dünyadan çoxdan düşdüklərindən*
*heç xəbərləri də olmadan.*

*Bəzi məzəli canlar, ruhlar hərdən*
*ləzzət eləyər Allaha da hətta,*
*elə ona görə də Allah*
*uzun illər onları da*
*bu cürə ləzzət toxumutək*
*ömürlərindən daha çox saxlar həyatda.*

***Bu, özünə heyranlıq, bu özündən demə əsrində insan sayı qədər də özünə heyran var əslində***

*Adamların, demək olar, çoxu çox zaman*
*bir an aslan, bir an tülkü, bir an ceyran,*
*bir an gözü tox,*
*bir an sulağ – hər şeyə ağzının suyu axan,*
*bu aslan, tülkü, ceyran qarışığı adam –*
*bu aslantülküceyran*
*çox zaman özü özünə, danışdığı sözünə,*
*yeriyəndə yerişinə, duranda duruşuna,*
*güləndə gülüşünə,*
*hətta söyüş söyəndə öz söyüşünə,*
*ağlayanda öz ağlamağına heyran.*

*Bu özünə heyranlıq,*
*bu özündən demə əsrində,*
*göydə ulduzların sayı qədər də*
*yerdə özünə heyran –*
*aslantülküceyran var əslində.*

## *O insan ağlı, bu da it ağlı və ya, ey insanlar, itlər deyəntək hər hürməyin bir hikməti var*

*İt ömrü insan ömründən*
*çox-çox sürətli, həm də çox-çox həzin,*
*küçədə, çöldə, yolda*
*bir-birinə rast gələn iki it,*
*dərhal öz aralarında*
*hər şeyi araşdırırlar,*
*haralısan, kimsən, nəçisən,*
*evlisən, ərdəsən,*
*bir-birini bircə kərə görməklə, hürməklə,*
*hürüb bir-birinin günahını, suçunu,*
*canını, gücünü yoxlamaqla,*
*ən sonda canın sevgisini qoxlamaqla,*
*sonra tezcə dostlaşmaqla,*
*bircə anda min cür istəklə,*
*hətta sevmək, sevişməklə,*
*insanların günlərlə, aylarla,*
*illərlə keçdiyi yolu*
*itlər bir neçə dəqiqə içində*
*bir-birini qoxlayıb, oxuyub gəlib gedirlər,*
*razılaşmadıqları anlarıysa,*
*bir-birini görməklə,*
*"boş şeydi, ay oğlan, ay qız" – mənasında*
*insanların illərlə həll edə bilmədiklərini*
*bir-iki ağız  hürməklə həll edirlər.*

***Mən səni əbədi şeirə çevirmək istəyirdim hər çağ,***
***Əbədiyyət, indi duyuram biz duyan  Əbədiyyət də,***
***elə bu kainat da bir anmış ancaq***

*Mən səni görmüşdüm, Əbədiyyət,*
*mən səni hər an duyurdum,*
*bəlkə də sənə gülməli gəldi bu,*
*çox anların səni yıxmaq istəyəndə*
*mən səni o anlardan qoruyurdum.*

*Sən də məni tanıyırdın,*
*ancaq mən səni belə tanımırdım,Əbədiyyət,*
*hamı sənə qoca dünya desə də,*
*mən səni əbədi gənc bilirdim,*
*həm də duyurdum, sən də darıxırsan,*
*mən bacaran bircə şey vardı ancaq –*
*səni darıxmaqdan qurtarmağa,*
*şeirə çevirmək sənin səsini,*
*heç olmasa eşidilə, oxuna biləsən,*
*həm də dünya beləcə duya bilsin səni.*

*Səni belə tanımırdım, Əbədiyyət,*
*mən səni duyurdum hər an,*
*səni tanıyandan hər zaman, hər çağ,*
*səni şeirə çevirmək istəyirdim ancaq.*

*Mən səni görmüşdüm,*
*sən məni tanıyırdın, Əbədiyyət,*

## *İşıq, nur, günəş, eşq toxumları*

*Böyük insanlar*
*bu dünyanın hər yerinə*
*torpağa, suya, göyə*
*işıq, nur yaydığıtək*
*torpağın altına da*
*işıq verər, nur verər deyə*
*bu dünyadan sonra onlar*
*nə sarkafaqda saxlanmalı,*
*nə də atılmamalı*
*buddistlərin ocağına,*
*verilməlidi analar anası,*
*qara torpağın qucağına*
*torpaq ananın*
*ən böyük sərvəti, varıtək,*
*Allahın torpağa səpdiyi*
*işıq, nur, günəş,*
*eşq toxumlarıtək.*

***Qışda çılpaq xanım ağaclara baxmayın, utanır onlar, baharda baxarsınız, gözləyin yarpaqlasınlar***

*Donlarının ətəyini qatlayıb,*
*bu balaca arxı*
*keçmək istəyən xanım ağacların*
*çılpaq bədənlərinə, baldırlarına baxmayın,*
*duyuram utanır onlar,*
*qoy yarpaqlasınlar, donlarını açsınlar sonra,*
*həm də elə insanlartək*
*paltarlarıyla daha gözəl görünür ağaclar da.*

*Ay uzun ağac, gözəlliyə vurulub,*
*göyün də, gözəlliyin də xoşuna gəlməkçün*
*göydən də uzun olmaq istəyirsən?*
*Kökü də əzələtək qalxan ağaclara bax,*
*yer, göy, kainat, ruh oyunlarıyçün*
*o ağaclar da hamısı qalxır, can atır*
*ən çox güclü olduqları, sevdikləri göyə sarı,*
*bircə an bax, o sevgi səni də qaldıracaq*
*sənin özündən də, göyüzündən də,*
*hər iki dünyadan da yuxarı o bircəcə ana,*
*hətta ruhların mələklərlə oynadığı*
*əbədi yer, göy, kainat ruh oyunlarından da o yana.*

***Yetmişinizdə, səksəninizdə də sevirsinizsə, demək şahanə insansınız, sevməyənlərin də hamısından cavansınız***

*Sevginin ayaq səsləri*
*çiçəklərin açması,*
*açılarkən ləçəklərin qanadtək açılması,*
*çiçəklərin uçması səsləritək.*

*Ey təklər, tənhalar, yalqızlar,*
*Siz də, siz də ləçəklərin açılması,*
*çiçəklərin açması səslərini eşidin,*
*siz də sevginin ayaq səslərini,*
*qanad səslərini çiçəktək qoxlayın,*
*o səslər, o çiçəklər qoxusunda*
*bir-birinizi axtarın, yoxlayın,*
*bilin, elə  tənhatək də siz bir-birinizə*
*ən doğma ürək, cansınız,*
*sevirsinizsə, elə səksəninizdə də,*
*lap yüz yaşınızda da*
*bu dünyada sevməyənlərin*
*hamısından cavansınız.*

## *Sevgilərin ən çox tumurcuqlayanı, ən çox çiçək, kəpənək açanı*

*Ürəyim, canım şəkər!*
*Təşəkkürlər!*
*Dilim də gəlmir xəstəlik deyim sənə,*
*xəstəliksənsə, niyə*
*belə şirin ad qoyublar sənə,*
*canım, ürəyim, sən tək xəstəliksən*
*hələ qonaq gəlməmisən mənə,*
*bədənimi bəyənmədiyinçün bəlkə,*
*bəlkə, çox arığam,*
*məni çox sevdiyin,*
*istədiyinçün gəlməmisən bəlkə,*
*bəlkə də gəlmisən, xəbərim yoxdu,*
*elə belə sev, əzizim.*
*Uzaqdan, bir qıraqdan,*
*heç toxunmadan, əl-ələ tutmadan,*
*can-cana durmadan sevmək –*
*sevgilərin göyüzündən də o yana*
*qanadlananı, uçanı,*
*boran, qar demədən*
*canı həm bu dünyayçün,*
*həm də başqa bir dünyayçün*
*əbədi çiçəklər, kəpənəklər açanı.*

***Bu dünyada sevinc, qəm olmasaydı,***
***sevgi də, şeir də, elə söz də olmazdı***

***Hətta adi bir cücüdə də özünü təkrar eləmir Tanrı,***
***hamı təkrarolunmaz, hamı bir başqa, bir ayrı***

*Hansı ulduzda həyat varsa,*
*orda başqa cürə də canlı ola bilər,*
*Bizə bənzər olanlar biz tərəflərdə ancaq,*
*başqa harda canlı varsa,*
*yəqin başqa şəkildə olacaq,*
*çünki heç vaxt özünü təkrar eləmir Allah.*

*Bu kainatda yalqız deyilik biz,*
*Çünki hər an, hər an Allahlayıq,*
*Həm də heç birimiz*
*bir-birimizə bənzəmədiyimiztək*
*kainatda bizə bənzər də bir kimsə yox.*

*Həm də Tanrıdan hamımızda nəsə var,*
*hamı Tanrını duyduğu qədər,*
*birimizdəTanrıdan əbədi sevgi,*
*birimizdə əbədi kədər.*

*Mən bilmirəm, biz nədən anlamırıq,*
*İlahi yaradan bu nizamı, bu cəmi,*
*həm də İlahinin hədiyyələri içində*
*bizə bağışladığı iki ən böyük incini –*
*İlahi Qəmi, İlahi Sevinci.*

***Bu ulduz gölü, ulduz dənizində***
***kainatı aparacaq sevgili avarlar***

*"Quş yuxusu" kitabının yazarı çiçək Alsuya*

*Bir qayıqda oturantək*
*oturub ulduzların birinə*
*bu kainatın göyüzündə,*
*kainat deyilən*
*bu ulduz gölü, ulduz dənizində*
*bir ulduzun avarını çəkmək, çəkmək.*

*Beləcə də ucsuz-bucaqsız kainata*
*mən də varam demək,*
*özü də pis göyüzündən deyiləm,*
*"bu da mənim ayaqlarım",*
*deyib, sonra bir böyük okeana sallayantək*
*iki çılpaq ayağını sallamaq kainata,*
*hərdən ikisini birdən, hərdən də tək-tək,*
*bu gözəl kainatı*
*daha gözəl, daha çiçək başqa bir səmtə*
*çəkib aparacaq iki sevgili, iki sehrli avartək.*

## *Dünyanı xilas etdiyini bilməyən körpə*

*Mənim özümdən asılı olmayan,*
*özümdən minlərlə dəfə çox*
*güclü anlarım olur zaman-zaman,*
*hərdən də canım özümdən çox zəif, əfəl,*
*bir təhər hərəkət edən,*
*yarı gülməli, yarı ağlamalı bir nəfər.*

*Allahım, bilmirəm, bu gün nolub mənə,*
*elə bil başqa bir dünyada*
*başqa cür canlıyam,*
*bir yerüzü canlısı,*
*ya bəlkə göyüzü canlısı,*
*daha dəqiqi yerüzü-göyüzü canlısı,*
*həm də o canlının ən körpəsitək*
*göyüzündən yerüzünə,*
*yerüzündən göyüzünə iməkləyirəm,*
*elə iməkləyə-iməkləyə də*
*göyüzünü də,*
*yerüzünü də məhv etmək istəyən*
*quyruqlu bir kometanı*
*bir gözəl göy pişiyi sanıb,*
*yerə çatar-çatmaz göydə irtməkləyirəm.*

## *Məndən sonra subay söz qalmayacaq*

*Mən şeir yazmayacaqdım,*
*ancaq çox sözləri*
*adamlardan daha çox fikirli, qəmli,*
*yurdsuz- yuvasız, yetim gördüm,*
*o sözlərin dərdini, qəmini dağıtmaq,*
*könlünü almaq istədim ancaq.*

*Gördüm, çox sözlər, çox fikirlər*
*ən çox şeirə çevriləndə,*
*şeirə dönəndə sevinirlər,*
*elə görən kimi də onları*
*göyüzünün sevgi qatına,söz qatına,*
*ordan da yuxarı şeir qatına –*
*sevginin, sözün alov, köz qatına*
*qanadlandırmaq istədim ancaq,*
*mən şeir yazmadım ki!*

*Hərənin bir eşqi var bu dünyada,*
*mən tək, tənha, yalqız gəzən sözləri*
*təklikdən, tənhalıqdan, yalqızlıqdan qurtarmaq,*
*heç sevilməyən sözləri bir-birinə,*
*Allaha, hətta şeytana da,*
*sevdirmək istədim ancaq,*
*məndən sonra bu dünyada*
*sevməyən, sevilməyən, tək, tənha, yalqız*
*oğlan, ya qız – bircəcə subay söz qalmayacaq.*

## *Əslində Tanrıyçün*

*Əslində Tanrıyçün*
*hər insan bir saat əqrəbi,*
*dünya milyardlarla zamanı göstərən*
*milyardlarla əqrəbi olan bir saat.*

*Beləcə, hər adam*
*irəli, geri qaçıb,*
*həm Allahın vaxtını,*
*həm də öz vaxtını göstərir Allaha,*
*Allah da hər saatın içində*
*o adamın vaxtını görür,*
*bir gün, beş gün,*
*kimi əqrəbtək*
*Allahın bir saatında*
*fırlanar, düşər,*
*ancaq düşsə də,*
*Allahın əbədiyyət saatında*
*fırlanar zaman-zaman,*
*kimi də düşər,*
*ancaq elə bilər yenə fırlanır,*
*düşdüyündən xəbəri olmadan.*

## *Tanrının, Allahın ətəyinə*

*Tanrım, heç zaman dalğalanmayan*
*o kimsəsiz göyləri də*
*ver dədə şair bayraqlarına,*
*onlar o göyləri də*
*dalğalandırıb qaldıracaqlar yenə*
*bütün dövlətlərdən də,*
*bütün göylərdən də,*
*bütün dalğalanmalardan da  yuxarı,*
*Tanrının, Allahın ətəyinə.*

## *Ümid ancaq itlərə, pişiklərə*

*Ey gözəl it,*
*Bilirəm itlər*
*insanların dostlarıdır,*
*görürəm, əziz dost,*
*gözəl gözlərini*
*zilləyib gözlərimə*
*həm də soruşursan gözlərimdən:*
*Bəs insanlar?!*
*İnsan da insanın dostumu?*

*Bunu sən də hür, soruş, əzizim,*
*hər an, hər an qəmli gözlüm,*
*yığ bütün heyvanları,*
*hürün, böyürün, anqırın, miyoldayın,*
*soruşun insanlardan dönə-dönə,*
*ümid ancaq sizə,*
*hələlik bu an*
*ümid ancaq sənə.*

***Həm əbədiyyət, həm də, həm də***
***hər iki dünyada ədəbiyyat sahillərində***

*Hər iki dünyada ən böyük xoşbəxtlik tək – hamını hər an, hər zaman xoşbəxt görmək, xoşbəxt istəmək, xoşbəxtliyə itələmək, xoşbəxtliyə yıxmaq.*
*Hərdən də hamını xoşbəxt görməyə Ayın görünməyən üzünün qəminin mane olduğunu duyub Ayı tərsinə çevirmək, beləcə göyü də devirməkçün Eşqi nərdivan edib göyün biz görən, duyan göy zirvəsinə qalxmaq istəyirdinmi, sevgili oxucu?*

*Yazı yazmaq – ən böyük ibadət*

## *Yazı İbadətində*

*Hamının hamını sevməsini, sevdirməsini diləyən sözlərin üzləri hər an Allaha, onun yaratdığı bütün varlıqlara dua edərlər, ağaclar çiçək açantək qələmin, sözün ən çiçəkli budaqlarında dua açarlar, aça-aça da hər iki dünyadakı görünən, görünməz bütün varlıqlardan, ruhlardan onlarda nəsə olduğunu hər an duyarlar, duyduqca da bunu hər an bizə də duydurmağa çalışarlar.*

*Dünyalar, göylər, ulduzlar, torpaqlar, sular, Sözlər, dualar aşıb əbədi Eşqin, Sevginin bu kitabının torpağına, dənizinə, göyüzünə, duasına, sözünə, heç zaman susmayan Əbədiyyət Sükutuna xoş gəlmisiniz.*

*Yerüzünün, Göyüzünün, Əbədiyyətin,*
*Ədəbiyyatın sahillərində*

***Yerüzünün, Göyüzünün ən ulduzlu, ən çiçəkli dənizlərində,***
***ən çox da, ən çox da Əbədiyyət sahillərində***
***ədəbiyyata həm də əbədiyyət deyiləcək***

*Ədəbiyyatdan daha çox ədəbiyyatın, yazarların çəkdiyi ahın, əbədiyyətdən isə bütün insanları çiçək kimi yaradan, həmişə də çiçək görmək istəyən Allahın qoxusu gəlir.*

*Ədəbiyyat sahillərindən də hər an sevgi qoxusu, əbədiyyət qoxusu gələndə əbədiyyətlə ədəbiyyatın arasındakı sərhədlər itəcək, əsl ədəbiyyatın ərazisi, göyü daha da genişlənəcək, dərinləşəcək, ədəbi sərhədsizlik İlahi sərhədsizliklərə çatıb onlara qovuşacaq. Başqa ədəbiyyatlardan fərqli ona tək ədəbiyyat yox, göyüzünün sahillərində həm də daha çox əbədiyyət deyiləcək.*

*Həm də, bu, əbədiyyəti hər an duyanlara sözlərin zahiri oxşarlığının ifadəsi kimi görünməyəcək.*

*Bunları yazmaqda həm də məqsəd əbədiyyətlə ünsiyyətin ən ali formalarından olan ədəbiyyatın arasındakı insani sərhədləri itirmək, Tanrıya yaxın sənətlərin sərhədsizliyini duymağa ruhları, canları ürəkləndirməkdir.*

## *Min, milyon illik eşq-güllə*

*Məni yekə bir quş sayan,*
*həm də məndən dostluq diləyən*
*bir sərçəcik deyir mənə:*
*Dimdiyin nə qəribə!*
*Deyir: "Dimdiyini dəyiş,*
*dimdiyində dənin olum,*
*sənlə uçum, sənin olum".*

*GülLədən çox quş var göydə,*
*quşdan çox güllə var yerdə,*
*nə çox quş olmaq istəyən,*
*özünü ox, güllə sayan,*
*həm də gülləni yem bilib*
*uçub gülləyə şığıyan!*

*Mən də atılıram güllələrə*
*məni quş saymır güllələr,*
*hamısı da keçir yandan*
*lap ən axırda bir quşun*
*dimdiyindən düşən dəntək*
*bir damla qan düşür məndən,*
*Qışqırıram: Urra! Qan!*
*Mən də quşam! Əlin heç zaman,*
*Yorulmasın məni vuran!*

*Amma məndən dostluq diləyən*
*Sərçə küsüb gedir gendən:*
*Quş olmağına quş olmusan,*
*amma acgöz quş olmusan,*
*mənə atılan gülləyə*
*məndən qabaq tuş olmusan.*
*o güllətək dəydi sənə,*
*ancaq o güllə kimi yox,*
*min, milyon illik eşqtək*
*dəyib qovuşacaqdı mənə.*

***Bütün gözəl Sözlər də ən xoşbəxt olduqları yerə, ən uca sözyurda – şeirə can atırlar, ən uca şeirə***

***Bütün insanlar ən çox xoşbəxt, bəzən özləri də duymadan ən çox bədbəxt olduqları yerə can atdıqlarıtək sözlər də bunu çox yaxşı duyurlar və ən çox xoşbəxt olduqları ruhi Vətənə – şeirə can atırlar***

*Çox şair elə bilir Poeziya ancaq poetik qəribəliklərdən, qeyri-adi ifadə etmələrdən, heç kimin deməyiyini deyib insanı, dünyanı heyrətləndirməkdən və s. ibarətdir.*

*Əslində isə Poeziya Tanrı üçün hər an daha gözəl şəkil almaq istəyən, görünən, görünməz dünyaların sözlərlə sevinmə şəklidir.*

*Dünya bir yerdə, bir göydə durmur, o hər an hərəkətdədir, elə sözlər, şeirlər, bütün İlahidən gələn sənətlər də İlahi tərəfindən ən yaxşı duyulduqları bir əbədi yoldadırlar.*

*Ona görə də bütün yazılanlar onu yazanlar dünyalarını dəyişdikdən sonra da yaşamaqda, hətta biz ancaq duya bildiyimiz əbədi ruhi aləmdə yazılmaqda davam edirmiş kimidirlər.*

*Bəs bu necə baş verir? Ey yazarlar, sözünüz bütün dünya dillərində ən gözəl, poetik adlar almış Allahdan, Tanrıdan gələn sözsə, siz dünyanızı dəyişəndən sonra da onlar sizin ruhunuzla ürəklərdə özləri özlərini daha da gözəlləşdirəcəklər. Bu, su kimi axan ruhun özünü durulaşdırıb sevinə-sevinə İlahinin onu gördüyü səmtə doğru axması kimi.*

*Hər an Tanrıya sarı sevinə-sevinə axan sözünüz mübarək!*

## *Hər an Allahı da aldada-aldada hər an Allaha doğru yol gedirik*

*Bu beş günlük dünyanı
əbədiyyəttək dada-dada,
həm bir-birimizi,
həm də özümüz özümüzü
verə-verə bada gedirik.*

*Günüyoxlar sabahı,
günahkarlar günahı,
ah çəkənlər də ahı
ən dadlı meyvələrtək
dada-dada gedirik.*

*Cocuqluqdan canda qalan
əmiri, sultanı, şahı,
yerdə bütün bəndələri,
göydə də tək Allahı
aldada-aldada gedirik.*

## *Ölümün ləzzətli vaxtı*

*Xeyri yox, ha küs, ha inci*
*daha səni adam saymır*
*bu gülməli dünyanın*
*nə qəmi, nə sevinci.*

*Bax, dur, soruş,*
*al könlünü,*
*bu gül kolu nədən qəmli?!*
*Həvəsi yox gülünün də,*
*İç! Ləzzəti yox şərabın,*
*Öl! Ləzzəti yox ölümün də.*

*Deyirəm, elə, adamın*
*Həyatda olmasa da*
*ölümdə baxtı olaydı,*
*heç olmasa, ölümün*
*ləzzətli vaxtı öləydi.*

***Yerüzünün, Göyüzünün ən şahanə rəngləri***
***hər biri həm də Türkün bir şahanə əsgəri***

*Qarabağ, Kıbrıs bu gün*
*düşmənlərin boğazında*
*onların xəncərləri,*
*onların pəncələri*

*Onlar Tanrı əllərini*
*hər yerdə duyub görərlər,*
*o əllərlə birgə onlar*
*hər iki dünyaya yaraşıq*
*Tanrı Eşqini hörərlər.*

*Eşqli daş çatmayan anlar*
*daş yerinə başlarını,*
*eşqli su çatmayan anlar*
*su yerinə qanlarını,*
*yaranan cansız görünsə,*
*canlarını verər onlar.*

*Bu dünyadan getsələr də,*
*dünyanın üstündən yenə*
*hamımıza baxar onlar,*

*yerüzünə, göyüzünə*
*nur paylayan üzləriylə*
*gündüzlər ay yerinə,*
*gecələr günəş yerinə,*
*göy yerinə qalxar onlar.*

*Tanrım, onlarçün sən özün*
*göyü, ayı, ulduzu da*
*ən şahanə göydən dərdin,*
*o göyün ən şahanə,*
*ən şux rənglərini də*
*Türk bayraqlarına verdin.*

*İndi bütün ulduzlar, Ay*
*göyə də ən çox yaraşan*
*Türk bayraqlarına baxıb*
*"bütün göyləri də aşan*
*o ay, ulduz mənəm" – deyir.*

## *Şeir – tənhalıqdan əzab çəkən sözlərin ən gözəl qurtuluşu*

*Anladım, Tanrım, bu bəndə şeiri həm də*
*təzə Tanrı şeiritək doğulmuş bir körpənin alın yazısıymış,*
*Sənin ən son şeirintək gələn hər son körpəyə görə*
*insan sevinci haçansa bitir, Sənin sevincinsə bitmir heç zaman,*
*İndiyəcən dünyaya gələn körpələrin ağlamalarını anlamayıblar.*
*Körpələr əslində dünyaya gələn kimi hər şeydən öncə*
*Sənin sevgini duyub, Sənin sevgindən ağlayırlar, Tanrım.*
*Sonralar yenə insan sevgisi yox, Sənin sevgini istəyib ağlayırlar,*
*hər körpə ağlayır, istəyir Tanrı ancaq onu istəsin, onu sevsin,*
*o an körpə bəndə acgözlüyünə gülümsünür Tanrı,*
*sonralar bu dünyada qazandığımız əzab da yenə,*
*bizdən çox əzab yetirir, gülümsəyən qəm gətirir Tanrının üzünə,*
*elə ona görə də, Tanrım, səninçün ən böyük əzab*
*bəndə yalan danışırkən sözə verilən əzabdı,*
*Tanrım, beləcə, adamdan çox əzab çəkəcəklərini bilib*
*adamdan daha dözümlü, uzun ömürlü yaratdın sözləri,*
*çünki insan çəkən əzab keçir, söz çəkən əzab qalır –*
*insan əzabı müvəqqəti, sözün əzabı əbədidir.*

*Elə ona görə də sən insandan qabaq sözün Tanrısı olmusan,*
*sözün sevimli əzabı əbədi olduğundan,*
*sözün əzabını hamıdan çox duyan şairlər*
*xoşbəxtlikdən çox, bədbəxtliyi yazırlar,*
*çünki şikayətləndikcə bir az rahat olurlar elə bil,*
*həm də bədbəxtlik şeirə elə bil daha rahat gəlir,*
*əslində əbədi xoşbəxt şair yox,*
*onların hətta ən bədbəxt anlarında yazdıqları*
*əbədi xoşbəxt şeirlər, xoşbəxt sözlər var ancaq.*
*Əbədi xoşbəxtlik ancaq sözlərin, şeirlərin alnına yazılır,*
*Tanrım, sən – sözü, şeiri əbədi xoşbəxt edirsən*
*şairləri şeirdən şeirə, sözdən sözə azdıra-azdıra,*
*özlərini dünya bədbəxti sayan o şairlərə*
*dünyanın ən xoşbəxt şeirlərini yazdıra-yazdıra.*

### *Şeirin insan şərqindən*
### *Tanrı Şərqinə aşdığı an*

*Şeir də Şərqdən doğar,*
*Şərqdən də şərqdən zaman-zaman –*
*Şeirin insan şərqindən*
*Tanrı Şərqinə aşdığı andan.*

*Qəlbini, Qələmini Göyə, Günəşə, Aya batırıb,*
*Göylə, Günəşlə, Ayla yazan hər bir bəşər də,*
*Hətta Göylə, Günəşlə, Ayla yazan*
*hər bir körpə eşqli şər də*
*körpə, eşqli Şərqdən doğar.*

## *Göyüzündən əbədi çiçək qoxulu yeni bir soy qoxusu*

*Hər an*
*ulduz açan, çiçək açan, şeir açan göyüzündən,*
*çiçək qoxusu, şeir qoxusu,*
*ulduz qoxusu, göy qoxusu gəlir,*
*o şeirin də içində*
*sevgiylə əl-ələ tutuşan*
*bütün kainatçün çiçək açan,*
*hər iki dünyadan qaçan,*
*göyüzündə hardasa üçüncü bir dünya açan*
*ancaq, ancaq eşqdən, nurdan*
*əbədi, yeni bir soy qoxusu gəlir.*

***Hər an, hər zaman  sev, sevdir, ay adam, ay insan, bil, sevdiyin, sevdirdiyin qədər də ölümsüz olacaqsan***

*Sev, sev, hər an günəşi sev,*
*günəş də səni sevəcək, səni sevəcək,*
*sev, sev, hər an göyüzünü sev,*
*göyüzü də səni sevəcək, səni sevəcək,*
*sev, sev, hər an göyüzünün*
*dağını, düzünü, dənizini sev,*
*onlar da səni sevəcək, səni sevəcək,*
*sev, sev, bütün kainat da*
*səni görəcək, sevgiylə baxacaq sənə,*
*sən də, sən də ölümsüz göyüzütək*
*bütün kainatdan ölümsüz can alacaqsan,*
*sevdiyin, sevdirdiyin hər an, hər zaman*
*sevdiyin, sevdirdiyin qədər də*
*ölümsüz olacaqsan, ölümsüz olacaqsan.*

## *Tanrımızın mənə aşıladığı İnam*

*Mən bu dünyada hamını hamıya sevdirmək istədim, ancaq buna hayıf ki, çox az nail ola bildim.*

*Kim bu dünyada məni xatırlamaq istəsə, kimisə kiməsə sevdirsin, istətsin, buna çalışsın. Ancaq bu mənimçün ən böyük, ən gözəl xatirə sevinci olacaq, mən bunu hər iki dünyada da duyacağam və o adama başqa dünyada da dua edəcəyəm. Hiss edirəm ki, elə bu an mənə bu inamı Tanrımız aşılayır.*

***Tək bir sözdən ibarət bal şeirlər:***

*Dədə*
*nənə*
*ata*
*ana*
*yurd*
*yuva*
*Gün*
*Ay*
*ulduz*
*sevgi*
*göy*
*dəniz*
*su*
*bulaq*
*çay*
*el*
*çiçək*
*bal*

*Beləcə, yaza-yaza mən bir daha bildim ki, bizim bütün sözlərimiz hamısı gözəl, hamısı şeir! Günlərlə, aylarla, min illərlə yazmaq olar, yazmaqdan doymaq olmur. Gözəl olmayan, şeir olmayan sözümüz yox. Alınma "xeyr" demədiyinə, elə "yox" dediyinə görə "yox" da çox gözəl, "yox" da şeir!*

*Beləcə, beləcə, deyir, deyir, canım, gözüm, dilimiz o qədər eşqli, o qədər musiqili, onun hər bir sözü tək bir sözdən ibarət bir şeir, bir şeir!*
*Dildə ahəng (musiqi) qanunu Türk dillərindən başqa dünyada heç bir dildə yox. Dilimizin Tanrımız, Allahımız yaradan musiqisini hərdən alınma sözlər korlamaq istəyir bir balaca. Ancaq boyları çatmır, dilimiz o qədər uca, o qədər uca! Gedir, gedir elə hey, sevə-sevə, sevdirə-sevdirə, uça-uça, bax, bax, gör ayaqları yerə dəyəndə yer sevinir necə, əlləri, telləri göyə dəyəndə göy sevinir necə?!*

## *Dünyanın ən qanadlı, ən dadlı dili*

*Çox düşmənləri də bilir,*
*Dilimiz min illərdi danışmayan*
*lal adamı da qəfil dindirəcək,*
*kədəri, qəmi heç zaman sevinməyən*
*ən kədərli, qəmli adamı da*
*elə danışan kimi də sevindirəcək,*
*həm də, həm də hamını hamıya*
*sevdirəcək qədər dadlı, qanadlı bir dil,*
*bunu dünya duyur, bilir, nolar, özün də bil!*




**“ Destan Kahramanları Serisi - 1”**

## *“Mən səni sevirəm” dili hər zaman, hər an hər iki dünyada tək – o dildə nə desən, elə decək “mən səni sevirəm” gülünə dönəcək*

*Bu dünyada – bu İlahi eşq,*
*bu İlahi söz bağçasında*
*hər an yenidən doğulan bir gül var,*
*həm də o gülün gül açmasından*
*yenidən doğulan üç söz, bir dil var:*
*“mən səni sevirəm” dili,*
*o dil bu dünyada dil kimi də, gül kimi də tək:*
*hər nə desən, elə decək –*
*“mən səni sevirəm” dilindən*
*“mən səni sevirəm” gülünə dönəcək.*

*Tanrı o dili – o gülü açan andan,*
*hər an ancaq o üç sözçün doğulmaq,*
*o üç sözçün daha gözəl şəkil almaq,*
*hər an o üç sözün lalı, o üç sözün balı,*
*o üç sözün gülü olmaq istədik ancaq.*

*Həm də ha axtardıq, ha aradıq,*
*dördük bu dünyada, artıq,*
*o üç eşqli sözdən başqa*
*qalan bütün sözlər artıq.*

***Mən səni əbədi Tanrı şeiritək duyuram, Əbədiyyət!***

## *Hamı, hamı Tanrıyla əbədi*

*Əbədiyyət "Bu dünyada son yoxdu" – dedi,*
*"hamı Tanrıyla əbədi, Tanrıyla əbədi,*
*Tanrıyla əbədi, Tanrıyla əbədi!"*

## *Gülün, gülümsəyin, güclənirsiniz*

*Allah bütün ağır anları sizin qorxmağınız üçün yox, o anlarda gülüb güclənməyinizçün yaradır:*
*Ən ağır anlarınızda da gülün, güldürün, bilin, bəndələr, bilin, həm olmuş, həm də olmadan olmuş kimi bütün olanlar! Gülümsəyin, gülün, güclənirsiniz,*
*daha gözəl, daha güclü olursunuz.*

**Vaqif Bayatlı Odərin aldığı ədəbi mükafatlar – ödüllər:**

1. *Gürcüstan Nazirlər Sovetinin Mayakovski adına uluslararası mükafatı – 1984*
2. *Azərbaycan Mətbuat Fondunun Mirzə Cəlil mükafatı – 1993*
3. *"Ən gülməli ölü" şeirlər kitabı 1998-ci ildə "İlin ən yaxşı şeir kitabı" mükafatına layiq görülüb.*
4. *Türkiyə səfirliyinin təşkil etdiyi Məhəmməd Peyğəmbərə həsr olunmuş şeir müsabiqəsində birinci mükafat – 2010.*
5. *Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin "Qızıl Qələm" mükafatı – 2017*
6. *Azərbaycan Yazıçılar Birliyinin Nəsimi mükafatı – 2019*
7. *Əməkdar incəsənət xadimi – 2019*
8. *Ən böyük mükafatı isə, hətta şeirlərinin 50-dən artıq dilə tərcümə olunması deyil, Allahın verdiyi mükafat – sözlərin onu, onun sözləri sevib seçə bilməsi*

## MÜNDƏRİCAT

Göz yaşıyla axan şair.......... 5
İki dünya – bir Tanrı şeiri.......... 12
Söz və Sevgi Tanrının insana iki ən böyük hədiyyəsi.......... 13
İlk çiçək duası – ilk şeir duası.......... 14
O Ruhunur, İlahinur qalxan göylər.......... 15
Salavat çevirirkən göyə .......... 16
Azərbaycan – qucaqlayıb qoxlamağa Ataqılınc .......... 17
Tanrı Şairlərə uca Qələm qədər.......... 18
Son peyğəmbərini doğar göylər yorular-yorulmaz.......... 19
Bütün İlahi Göyüzündə də Şairlər olmadan olmuş.......... 20
Şeir – yarı insani, yarı İlahi cəhd.......... 21
Dilimiz – ən qədim vətənimiz.......... 23
Əsl döyüşçüyə səngəri qəfəs.......... 24
Dünyanın şahı, sultanı, qurbanı.......... 25
Şeir – Sözün ən məğrur, ən eşqli şəkildə.......... 26
Tanrının pıçıldadığını duyan Əbədiyyət xoşbəxtləri.......... 27
Doğma qoyun üzlərə, qoyun gözlərə.......... 28
Əbədi doğma mələklər, doğma kələklər şəhəri.......... 29
Şeir Şərqdən doğar, hər şeir dalınca bir Günəş də.......... 31
Dəli sözlərin ən ağıllısı, ağıllı sözlərin ən dəlisi.......... 32
Bağışlayın, mən nifrət edə bilmirəm.......... 33
Bütün insan haqlarından daha üstün insani haqq .......... 34
Göyüzü ancaq eşq dualarını.......... 35
Eşqtək mübarək minarə başlar dalğalanar.......... 36
Göyüzü – Allahın ən əziz balası.......... 37
Hər iki kainatın bir anı olduğunu hər an duyan adam.......... 38
Dünyanın ən uca adamı.......... 39
Budağından tutduğum göyüzünə keçir ağrılarım yenə də.......... 41
“Quran” oxunanda ayələrarası sükut.......... 42
Tanrının ən çox sevinməsi.......... 43
Hər gecə bütün eşqli ulduzları sayıb qurtarcaq.......... 44
Poeziya dinlər içində ən eşqli bir dindir.......... 45
Tanrının gözəl üzlərdə öz gözəlliyini açması.......... 46
Bu dünyadan qabaq, Şeirdən qabaq yazılmış şeir.......... 47
Qurbanlar cəlladları ağlayar.......... 49
Ən qatı cani də uşaq.......... 50
Utanıb adam yerinə günah yazıq azalır .......... 51
Dünyanı pak saxlamaqçün bizə güc yığır Allah.......... 52
O əksər Tanrı mələkləritək mübarək.......... 53
Ölümsüzlüyüm hər an gülümsəyənə, gülənəcən.......... 54
Sevməyə, cırıb atmağa bizə daha doğma.......... 55
Ruha, cana çox zaman yalan deyən şərablar.......... 56

Çox adam çaxırdan, araqdan............................................................57
Kişilər elə hönkürürlər, elə ağlayırlar bəzi anlar...............................58
Vətən, səni sevənlər sənin qəlbin.....................................................59
Diz çöküb torpağı – əslində bütün yerüzünü öpənlər
həmin anda......................................................................................... 60
Allah, gör nə təşər doğulur................................................................61
O, unutmağın da, unudulmağın da ən günahkar,
ən suçlu şeiri ........................................................................................62
Allahın yaddaşında ən çox şahanə şairanəliklər............................... 63
Bu dünyaya gəlməyimiz haqda sakitcə söhbət................................. 64
Bu dünyanın da yaşı, heç deməynən, ancaq bircəcə anmış............. 65
Dağ da, düz də, dəniz də hər an, hər gün......................................... 66
Hərdən də başını kainatın bir küncünə qoymağa............................. 67
Diktatura, Əli, Vəli...............................................................................68
Napoleonun qlobusları........................................................................ 69
Körpə cocuq ayyaqqabısıtək əziz.......................................................70
Hər iki dünyanın ən gözəl dili............................................................71
Tanrı Şeiritək qalx ...............................................................................72
İlk, son sevgim, sevincim, dərdim hər zaman..................................73
Azərbaycan, sən məni hamıdan dəli.................................................. 74
Türk atının mübarək yalı.....................................................................75
Qəhrəmanlıq da sevgi kimi hər zaman Tanrıdan gəlir...................... 77
Sözün insan şeirindən..........................................................................78
Cəhənnəmdə də haqq arayanlarçün...................................................79
Dünyanı kişilər idarə edir, kişiləri də qadınlar..................................80
Bütün qadın barmaqları tikiş tikən anlarda.......................................81
Avropa qadınları dünyanı daha çox öz bədənləriylə........................82
Qadınlar nə istər?................................................................................ 83
Musiqili, eşqli, çiçəkli xanım yerişlərindən......................................84
İlahi gözəllik – gözəlliklə İlahi anların qovuşması........................... 85
Səni o qədər, o qədər sevəcəyəm hər zaman, hər çağ....................... 86
Sevən, sevilən, sevdirən insanların ayaq səsləri............................... 87
Sevgi necə qol-budaq atar bütün kainata ......................................... 88
Uçurumlartək sən də ən gözəl çiçəyi
özündən uca aç, uca tut...................................................................... 89
Əsl xanımların ayaq səsləri................................................................91
Gəl bir də sevim səni yupyumru bir eşqilə........................................ 92
Sevgidən dəli olmağa bu dünyada eşq azımış..................................93
Səni niyə belə sevdim?........................................................................94
Biz də, biz də itək bir-birimizdə.........................................................95
Deyən, lap çox sevişdik...................................................................... 96
Sən bağlayan pəncərənin bir dön bəri bax yeri var..........................97
Şahənşah, sultan öpüşlər, kraliça, kral dodaqlar............................... 98
Bu dünyadan sənin qoxun gəlir.........................................................99

O – bir quş dimdiyində sevişən iki çəyirtkəydi ............................100
Sevirsənsə, dahisən!............................................................... 102
Xumarlanan xurmalar............................................................. 103
Bu dünyada o nə eşq idi, o nə sevgiydi, hardan gəldi.................... 104
Ram olunanlar, olunmazlar ..................................................... 105
Ey Əbədiyyət, mən indi duyuram biz duyan
əbədiyyət sən deyilmişsən.........................................................106
Bu şeir şairin həm ilk, həm də son fərmanı....................................107
Bu dünyada heç sevilməyənlər yox........................................... 108
Tumurcuqlayıb qanad aça-aça....................................................109
Şeir – həm də Sözün ən çox sevdiyi,...........................................110
Söz və sevgi Allahın insana iki ən böyük hədiyyəsi...................... 111
Ən böyük sevgi ..................................................................... 112
Göz dili – Tanrı dili................................................................ 113
Çiçək kimi düşünə-düşünə insanın çiçəyə çevrilməsi....................114
Tək bizim bu tənha çiçək dünyamıza yox .....................................115
Tanrı hər an bütün bilmədiklərimizi bir-bir çatdırır bizə .............. 116
Dünya yaranandan yaşlılarla ................................................... 117
Elə yarı ağıllı, yarı dəli tarixin taxtında da ancaq.......................... 118
Adamlar hamıdan əziz pulları sayır........................................... 119
Tanrım, əzabı qıymırsan heç bir fikrə, heç bir sözə....................... 120
Bu dünyadan başqa dünyaya keçən anda da ................................. 121
Dünyanın ən böyük şənlik, ən böyük xoşbəxtlik anı..................... 122
Min bir ümidi öz-özünü edam edən............................................ 123
Allah hamını adam özü istədiyi xoşbəxtlikdən ............................. 124
Odər sənə o qədər şeir çiçəyi açacaq.......................................... 125
Hamı sevindikcə Allah sevindiyindən ağlayır............................... 126
Bu dünya – ən gülməli, ən yeməli, ən sevməli sual .......................127
Böyük Göyüzünün bükümləri arasında..........................................128
Göyüzü sahillərində min illər qəmli qalmış sözlər........................ 129
Ağaclar, dağlar, düzlər, dənizlər də yorulur adamlardan................ 131
Hamını ötmək istəyən ürək...................................................... 132
Allahımızın hər an ancaq, ancaq dahilər eşidən səsi .......................133
Özləri də bilmədən o bəbəyə, onun baxdığı göyə.......................... 134
Ruh.......................................................................................... 135
Allah “Ol!” demiş, kainat olmuş...................................................136
Tək bir dərəsiz, dağsız da Vətən yarım vətən demək .......................138
Fatehlər doğmağa aslan...............................................................140
Qəhrəmanlıq – Tanrının bir anlıq qəlbi ....................................... 141
Vətən, hər iki dünyada da.......................................................... 142
Ölümsüzlük gəlməz, gedilər....................................................... 143
Qəhrəman Türk Şeirinə............................................................... 144
Hər bir söz Tanrı sözütək göydən gəlir........................................ 145
Vətən Allahın ətəyitək ...............................................................146

Qəhrəman........................................................................................ 147
Şair, səni elə hey qırılan iplərdən,
heç qırılmayan laylalardan toxuyuram ..........................................148
Hamı hamının həm əvvəli............................................................. 149
Hamı mənə gülərkən mən dua edirəm hamıya tək-tək.................. 150
Ana kainat hər an təzə ulduz açantək ............................................151
Sən məni tanıyırdın, Əbədiyyət .................................................... 152
Son mələyin yuxusuyuq................................................................ 153
Sən Allahçün ola bildiyin ən ağrılı anında da
gülə bildiyin qədərsən................................................................... 154
Dünyanı hər an dərk edən adam ...................................................155
Çiçək açantək dua açıb Allahdan hamının.................................... 156
Bu dünyada cani yox, özünü də tam anlamayan............................157
Əbədiyyət də təkrar olunur........................................................... 158
Eşqdən tikanı da gül açan, qan açan............................................. 159
Ulduzlar deyir: hər insan öz zamanının saat əqrəbi....................... 160
İçkinin ayağının altı...................................................................... 161
Qoy oyuncaqlar özləri söyləsinlər.................................................162
Gəlin yalanları gerçəklərdən də gözəl eləyək............................... 163
Tarix də darıxır eyniliklərdən........................................................164
Sən necə baxırsan Allahın hədiyyəsinə..........................................165
Bütün gözəl işləri Allah başlayır....................................................166
Ömrümüz hər an Allahın baxdığı...................................................167
Bu dünyada ən çox kəşf olunan İnsandır...................................... 169
Allah və insan haqda nəğmə – dua ..............................................170
Hər iki dünya üçün, Tanrı üçün qəmsiz ən təzə şeirim................. 171
Xoş gəldin, yeni doğulmuş cocuq göyüzü.................................... 172
Əbədiyyətlər Əbədiyyətinə ilk Əlvida........................................... 173
Ya sənin Allaha sualın var yenə.................................................... 174
Şairin şeiri, yoxsa şeirin şairi......................................................... 175
Bir daha özü bu dünyadan, ruhu da ruhi dünyadan
hər an qabağa qaçan bir adama – bir ruha.................................... 176
Tanrı ətəyinə aşan yolda əbədiyyət də körpə................................ 178
Hər on adamından yüzü gülsün, yüzü gülsün............................... 179
Yanan sözlər də, yanan şamlar da................................................. 180
Bağışla məni, Allahın qarı, bağışla............................................... 181
Ürəyini quşlar dənləyən qoca........................................................182
Təbriklər, eşqlər hər iki dünyaya...................................................183
Biz – öyünməyi sevən qanadlar, ürəklər....................................... 184
İlahi, Tanrım, Sənə dua edə-edə eyni anda həm qaçır,
həm ağlayır, həm də gülürəm........................................................185
Həyat olacaqmı ölümdən qabaq....................................................186
İlahi yolda hər an hər iki dünyayla ötüşən
sonsuz sayda əbədiyyətlər, anlar var ............................................187

Hamı eynidi deyəndə biz Allahı incidirik...................................... 188
Xanlar xanı xanımlar, bəylər bəyi bəyimlər....................................189
Yazıdan Söz ətri gəlmirsə eşq ətritək
qələm o kağızı, o Sözü incidib demək........................................... 190
Xəstələrə yox, xəstəliklərə, həm də................................................ 191
O ruh ən gözəl yalan – ən gözəl gerçək.......................................... 192
O ruh ən gözəl yalan – həm də ən gözəl gerçək..............................193
“Dünyanın ən xoşbəxt televizoru” filmi......................................... 194
Hamını ancaq çiçək görmək............................................................195
Göyüzündən – Tanrının ayağı altından .......................................... 196
Mən bu dünyaya canımdan sizə can kəsməyə gəlmişəm ..............197
Mən şeir yazmıram, şeir, ürək, eşq dövlətini qururam...................198
Yıxılan ən uzaq dünyaları da uşaqlar
Tanrıtək göydə tutmağı öyrənirlər..................................................199
Yer qazanlar, gor qazanlar, göy qazanlar........................................ 200
Doğma, gözəl səfehlik.....................................................................201
Uşaq olduqlarını unutmuş uşaqlar...................................................202
Böyüklər əslində daha çox oyuncaq sındırmış uşaqlar.................. 203
Şeir yazmaq.....................................................................................204
Dünya – hər zaman, hər an ancaq,
əbədi İlahi Yol olmuş, yol olacaq...................................................205
Xəbərimiz yox.................................................................................206
Min il öncə göyüzünün o üzünün divarına yazılmış şeir............... 207
Dahilər dahisi kimi yaradır bütün insanları Tanrı.......................... 208
İlahiylə danışmağa son hazırlıqlar................................................. 209
Şair şeirini hərdən atmırsa zir-zibil atılan yerə.............................. 210
Hərdən elə bilirəm, ölüm yaratdıqlarıyla
kiçicik bir Allah zarafatı, Allah zarafatı......................................... 212
Sevgi gülü, eşq gülü kimi güllə......................................................213
Min illər boyu .................................................................................214
Kitabları ancaq oxumaqçün yox, həm də,
həm də doğmalıqdan sevinmələrini görməkçün alıram................. 215
Mənə doğma şəkildə duran hərflər.................................................216
Özündən daha ağıllı, daha güclü.................................................... 217
Sonsuz ucalış...................................................................................218
Kim təptəzə kəndirlə, kim də çox kasıb dolanır..............................219
Allahın ətəyinə gedən ən parlaq, ağappaq haqq yolu......................220
Allahın hər an təzələdiyi, hər an ucaltdığı Eşq.............................. 221
Göyüzündə Tanrının ayaq səsləri çiçəklərin açması səsləritək....... 222
Hər bir qəlb də kainat kimi olmalı................................................. 223
Gülümsəyən doğma üz....................................................................224
Qəmli çiçək üzlərdə illərlə yumrulanıb .........................................225
Hansınız tez gəlsəniz......................................................................226
Tibb elmi deyir: düşünən ürək yox................................................. 227

Əbədiyyətdən əbədiyyətə.............................................................228
Əbədi yaşayıb əbədiyyəti yaşadanlar.............................................229
O, əbədiyyətdən də böyük...............................................................230
Adamın çəlləyə, əlin qartala döndüyü an......................................231
Tanrım, ləzzətlə gülə bilmirlərsə, heç olmasa, barı,
ləzzətlə ağlaya bilən elə adamları ................................................ 232
Bütün böyük həqiqətlər hər biri tək-tək.........................................233
Ağrıdan qorxma, ağrıyla ruh təzələnir...........................................234
İki minarə arasından əzanı dinləyə-dinləyə.................................. 235
O ahın, o silahın əlində o anda açılar o adam............................... 236
Yeni dünyayçün təzələnmək...........................................................237
Ana və əziz balasının əziz balası....................................................238
Çiçəyə çevrilə bilmirsinizsə, bunu da gözəl tale bilin .................. 239
Göyüzünün onun ayağı altına gəlməyi...........................................240
Hamı ...............................................................................................241
Böyüklük böyüklüyü tanıyır, kiçiklik kiçikliyi..............................242
Bu dünyada hər bir insan, hər bir ölkə, xalq, haqq........................ 243
Yaşamaq çox kiçik hərflərlə...........................................................244
Bu dünyada hamıdan çox pullar, həm də yollar bilir bunu ...........245
Göyüzü də, dəniz də, dağ da, duman da,
hətta dünya tarixi də darıxır eyniliklərdən....................................246
Əslində biz hər birimiz...................................................................247
Heç bir zaman fəth olunmayan zirvə............................................. 248
Zamanın, zaman qırığının şeiri...................................................... 249
Hər an təzələnən əbədiyyətə uçuş..................................................250
Göyüzünü, bütün kainatı hörənlər.................................................251
Hər bir uşaq həm hamıdan dünyanı öyrənir,
həm də hamıya dünyanı sevməyi öyrədir ....................................252
Mən Sizi hər iki dünyanı da aşıb gələn ətrinizdən tanıyıram .........253
Qarışqalar.......................................................................................254
Göyüzündə öz-özünə gülən ulduz, deyən dünya yenə
harda olduğunu bilmədiyinçün gülməli gəlir sənə............................255
Sən dəqiq bilərsən, ey böyük əbədiyyət........................................256
Şeytan hər bir insanın canında onun ekiz tayı...............................257
Ölüm də kömək eləmədi ölməyə.................................................. 258
Dünyadan düşdüklərindən xəbərləri olmayanlar........................... 259
Bu, özünə heyranlıq, bu özündən demə əsrində.............................260
O insan ağlı, bu da it ağlı,və ya, ey insanlar................................. 261
Mən səni əbədi şeirə çevirmək istəyirdim hər çağ..........................262
İşıq, nur, günəş, eşq toxumları...................................................... 263
Qışda çılpaq xanım ağaclara baxmayın......................................... 264
Yetmişinizdə, səksəninizdə də sevirsinizsə...................................265
Sevgilərin ən çox tumurcuqlayanı.................................................266
Bu dünyada sevinc, qəm olmasaydı...............................................267

Bu ulduz gölü, ulduz dənizində....................................................268
Dünyanı xilas etdiyini bilməyən körpə.......................................... 269
Məndən sonra subay söz qalmayacaq............................................. 270
Əslində Tanrıyçün............................................................................. 271
Tanrının, Allahın ətəyinə..................................................................272
Ümid ancaq itlərə, pişiklərə.............................................................. 273
Həm əbədiyyət, həm də, həm də......................................................274
Yazı İbadətində ...................................................................................275
Yerüzünün, Göyüzünün ən ulduzlu,
ən çiçəkli dənizlərində...................................................................... 276
Min, milyon illik eşq-güllə................................................................277
Bütün gözəl Sözlər də ən xoşbəxt olduqları yerə,
ən uca sözyurda – şeirə can atırlar, ən uca şeirə............................278
Hər an Allahı da aldada-aldada....................................................... 279
Ölümün ləzzətli vaxtı........................................................................280
Yerüzünün, Göyüzünün ən şahanə rəngləri....................................281
Şeir – tənhalıqdan əzab çəkən sözlərin ən gözəl qurtuluşu.............283
Şeirin insan şərqindən Tanrı Şərqinə aşdığı an.............................. 285
Göyüzündən əbədi çiçək qoxulu yeni bir soy qoxusu ....................286
Hər an, hər zaman sev, sevdir, ay adam, ay insan.........................287
Tanrımızın mənə aşıladığı İnam......................................................288
Tək bir sözdən ibarət bal şeirlər.......................................................289
Dünyanın ən qanadlı, ən dadlı dili.................................................. 291
"Mən səni sevirəm" dili hər zaman, hər an
hər iki dünyada tək ...........................................................................293
Mən səni əbədi Tanrı şeiritək duyuram, Əbədiyyət!.......................294
Gülün, gülümsəyin, güclənirsiniz.................................................... 295
Vaqif Bayatlı Odərin aldığı ədəbi mükafatlar – ödüllər.................296

**Vaqif Bayatlı Odər**
**BƏY ATLI ŞEİRLƏR**
Azərbaycan Dövlət Tərcümə Mərkəzi
Bakı – 2019

Kompüter dizaynı:
***Aqil Əmrahov***

Korrektor:
***Ceyran Abbasova***

ISBN: 978-9952-531-05-3

Çapa imzalanıb: 24.09.2019. Formatı: 60x90 $^{1}/_{16}$.
Ofset çapı. Fiziki çap vərəqi: 19. Tiraj: 500. Sifariş: ...

**Azərbaycan Dövlət Tərcümə Mərkəzi**
Ə.Topçubaşov küç., 74.

Təqdim olunmuş hazır fayldan **“Təhsil Nəşriyyat-Poliqrafiya”** müəssisəsinin mətbəəsində çap olunmuşdur.
AZ 1052, Bakı, Fətəli Xan Xoyski küçəsi, 149